RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 145 (9024) CÜMƏ AXŞAMI, 14 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycanla Çexiya arasında təmaslar ikitərəfli münasibətlərin inkişafına töhfədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçekin etimadnaməsini qəbul edib.**

→ 2

## Şəxsiyyət ucalığı

Dövlətin və xalqın yüksəlişinin, qürur duya biləcək salnamələrinin yaranmasının təcrübədə özünü doğrultmuş şərtləri var. Hansı ki, həmin şərtləri qoca tarix hər zaman, bütün minilliklərdə və əsrlərdə sübuta yetirib. Lakin tarixi gerçəklik həm də ondan ibarətdir ki, yüksəliş, inkişaf, dünyada özünə layiqli yer tutmaq, habelə mövcud olmaq üçün hətta arxalandığımız təbii və mənəvi şərtlər yetərli olmur. Bu mənada tarix həm də təsdiq edir ki, dövlət kimi var olmaq, güclü xalqa çevrilmək üçün hər zaman güclü liderlərə, dövləti və xalqı irəliyə apara biləcək şəxsiyyətlərə də ehtiyac olub.

→ 5

## Ürəklərdə yaşayan lider

Tanrı onu sanki bir millətin taleyini dəyişmək üçün yaratmışdı. Ən çətin məqamlarda xalqını bəlalardan, təhlükələrdən xilas etmək üçün göndərmişdi. Birinci dəfə hakimiyyətə gəlməmişdən öncə də elə idi... Azərbaycan ümidsizlik girdabına düşüb son günlərini yaşayan talesiz bir xəstəyə bənzəyirdi. İqtisadi tənəzzül, sosial vəziyyətin ağırlığı adamları yormuşdu. Bir tərəfdən də sovet repressiya maşını insanların gözünü qorxutmuşdu. Heç kim səsini çıxara bilmirdi.

→ 6



# Milli yüksəlişin təməl günü

## 53 il öncə Heydər Əliyevin Azərbaycana qüdrət və inkişaf bəxş edən missiyası başladı

**Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. İki əsrlik münaqişəni, otuz illik müharibəni Zəfərlə bitirən, dünyanın ən islahatçı ölkələri sırasına yüksələn, bölgənin şəriksiz liderinə çevrilən ölkəmizin bütün bu nailiyyətləri Prezident İlham Əliyevin möhtəşəm fəaliyyətinin nəticələridir. Ancaq bir məqamı da unutmayaq, möhtərəm dövlət başçımız hər zaman bildirir ki, bu nailiyyətlərin əsasını Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurla həyata keçirilməsi təmin edir.**

Haqlı olaraq dünyanın ən böyük azərbaycanlısı sayılan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti dövründə formalaşdırdığı təməllər həm də uzun onilliklər boyu Azərbaycanın uğurlu inkişafını təmin edəcək düzgün yol kimi ölkəmizin yeganə alternativsiz yüksəliş yoludur.

Həssas bölgədə yerləşən Azərbaycanda dövlətçiliyin bütün bəşəriyyətə örnək olan inkişaf modelinin qurulması istiqamətində Ulu Öndərin tarixi xidmətləri bütün dünyanın qəbul etdiyi və öyrəndiyi zəngin bir irsdir. Əminliklə deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri əvəzedilməzdir. Bütün bu işlər isə 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə başlayıb.

→ 4

## Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə xalqımızı təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Qurban bayramı münasibətilə paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hamıya möhkəm cansağlığı, xoş duyğular və uzun ömür arzulayıram! Qoy hər kəsin həyatında nurlu, xoşbəxt günlərin sayı çox olsun! Allah bu mübarək bayram günlərində kəsilən bütün qurbanları qəbul etsin!"




## Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə şəhid ailələrinə bayram sovqatları çatdırılıb



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qurban bayramı münasibətilə Vətən müharibəsi şəhidlərinin ailələrinə bayram sovqatları çatdırılıb.

AZƏRTAC xəbər verir ki, "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) nümayəndələri və könüllüləri bayram günü şəhidlərimizin ailələrinə baş çəkiblər. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Qurban bayramı münasibətilə təbrikləri çatdırılıb, qurban payları təqdim olunub.

## Azərbaycan iqtisadi sahədə daha bir rekorda imza atmaq ərəfəsindədir

BMT-nin ekspertləri bildirirlər ki, 2022-ci ildə qlobal inflyasiya 6,7 faizə çatacaq. Təhlükəli məqam ondan ibarətdir ki, bu rəqəm 2010-2020-ci illərdəki 2,9 faizlik orta göstəricini iki dəfədən artıq üstələyə bilər. Çünki Qərbi Asiya, Latın Amerikası və Karib hövzəsi ölkələrində inflyasiya artmaqdadır və statistik rəqəmlərdə təskinlik gətirən göstəriciləri axtarmaq mənasızdır.

Ekspertlər hesab edirdilər ki, qlobal inflyasiya müvəqqəti xarakter daşıyacaq. Bu da ondan xəbər verir ki, onlar Ukraynadakı uzunsürən münaqişənin, bazarların təkliflərində yaranan fasilələrin qlobal bohranı dayanıqlı prosesə çevirəcəyini öncədən görə bilməmişlər. BMT-nin mütəxəssisləri etiraf edirlər ki, ərzaq və enerji qiymətlərinin artması iqtisadiyyatın qalan hissəsinə təsir edir və bu da öz növbəsində baza inflyasiyasının artmasına səbəb olur.

Ən ağır zərbə isə aqrar sektora dəyir. Belə ki, cari il boyu əmtəə qiymətlərinin yüksək qalacağı ehtimal edilir. Rusiya Federasiyası və Belarusdan gübrə ixracının azalması ilə yanaşı, 2021-ci ilin ortalarından Çindən gübrə ixracının məhdudlaşdırılması bütün planetin aqrar sektorunda məhsuldarlığın aşağı düşməsinə səbəb ola bilər.

→ 9

## Avropa su çatışmazlığından əziyyət çəkir

İqlim dəyişiklikləri, qlobal istiləşmə bəzi ölkələrdə fövqəladə hal yaradıb

→ 10

## Koronavirus geri qayıdır, meymunçiçəyi isə sürətlə yayılır

Son həftələrdə dünyada COVID-19-a yoluxma halları artmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son iki həftədə xəstəliyə yoluxma halları 30 faiz artıb.

Bununla belə, indiyədək aparılan vaksinasiya prosesi nəticəsində xəstəxanalara yerləşdirmələrin və ölüm hallarının az olduğu bildirilir. ÜST-ün baş direktoru Tedros Gebreyesus pandemiyanın hələ heç yerdə bitmədiyini açıqlayıb.

Avropa Dərman Agentliyi də (EMA) Avropa İttifaqında COVID-19 epidemiyasının yeni dalğasının başladığını və bu dalğanın Aİ-nin bir çox ölkəsində "Omikron" ştamının yüksək yoluxucu mutasiyaları ilə idarə olunduğunu bildirib. Qeyd edilir ki, BA.4 və BA.5 variantlarının bütün qitədə dominantlığı gözlənilir və bu variantlar iyulun sonuna kimi digər növləri əvəz edə bilər. Bu səbəbdən də əksər ölkələrin səhiyyə qurumları əhalini koronavirus əleyhinə peyvənd olunmağa, eyni zamanda qaydalara əməl etməyə çağırır.

### Avropada dördüncü doza vaksininin tətbiqinə başlanılır

Görülən tədbirlər sırasında infeksiya əleyhinə peyvəndin vurulması əsas yer tutur.

→ 8

# "Qarabağ"dan möhtəşəm qələbə



→ 11

# Azərbaycanla Çexiya arasında təmaslar ikitərəfli münasibətlərin inkişafına töhfədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçekin etimadnaməsini qəbul edib.





AZƏRTAC xəbər verir ki, Milan Sedlaçek etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlətimizin başçısına çatdırdı. Bildirdi ki, Çexiyanın dövlət başçısı ona Azərbaycanla əməkdaşlığın, xüsusilə iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlı tapşırıqlar verib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çexiyanın dövlət başçısına çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında yüksək səviyyədə səfərlərin, o cümlədən nümayəndə heyətlərinin mütəmadi təmaslarının ikitərəfli münasibətlərin inkişafına töhfəsini qeyd edərək, iqtisadi əməkdaşlığın genişləndirilməsi, həmçinin qarşılıqlı ticarətin həcminin artırılması üçün yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığa da toxundu. Azərbaycan Prezidenti eyni zamanda sənaye, kənd təsərrüfatı, müasir texnologiyalar sahələrində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi, nəqliyyat infrastrukturu ilə bağlı məsələlərin önəmini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycandan keçərək Şərqdən Qərbə yükdaşımaların həcminin artmasını nəzərə alaraq bu sahədə də əməkdaşlıq baxımından imkanlar mövcuddur. Prezident İlham Əliyev həmçinin biznes dairələri arasında əlaqələrin genişlənməsi və qarşılıqlı investisiya qoyuluşu imkanlarının araşdırılmasının da əhəmiyyətini vurğuladı. Səfir ölkəsinin Azərbaycanla energetika sahəsində əməkdaşlıqda maraqlı olduğunu qeyd edərək, digər layihələrə də toxundu, Çexiyanın Ələt Azad İqtisadi Zonasına və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərinə böyük maraq göstərdiyini bildirdi.

Söhbət zamanı humanitar, elm, təhsil və turizm sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafı məmnunluq doğurur



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 13-də Gürcüstanın Kvemo Kartli bölgəsinin qubernatoru Giorgi Doxturişvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib. Həmçinin şəhərlərarası əməkdaşlığın ikitərəfli əlaqələrin genişləndirilməsində əhəmiyyətli rol oynadığı diqqətə çatdırılıb.

Bu baxımdan Gürcüstan nümayəndə heyətinin səfəri çərçivəsində iki ölkənin şəhərləri arasında imzalanacaq qardaşlaşma haqqında memorandumların önəmi vurğulanıb. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticari-iqtisadi, nəqliyyat-tranzit, sərmayə qoyuluşu, energetika və bir çox digər sahələrdə əməkdaşlığın perspektivləri də müzakirə olunub.

# Baş nazir Əli Əsədov Yaponiyanın ölkəmizdəki səfirliyinə gedərək sabiq Baş nazir Şinzo Abenin ölümü ilə əlaqədar başsağlığı verib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 13-də Yaponiyanın ölkəmizdəki səfirliyinə gedərək görkəmli dövlət xadimi, sabiq Baş nazir Şinzo Abenin ölümü ilə əlaqədar başsağlığı verib.




Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov səfirlikdə açılan matəm kitabına Şinzo Abenin sui-qəsd nəticəsində ölməsi xəbərinin sarsıntı və dərin kədər hissi ilə qarşılandığını yazıb.

Bütün həyat və fəaliyyətini doğma ölkəsinə ləyaqətlə xidmətə həsr etmiş Şinzo Abenin beynəlxalq aləmdə yüksək nüfuz sahibi olduğu qeyd edilib. Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında onun böyük xidmətləri təqdir olunub. Həmçinin mərhumun ailəsinə və yaxınlarına, dost Yaponiya xalqına dərin hüznlə başsağlığı verilib.

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib

Prezident İlham Əliyevin 2017-ci il 17 mart tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın və bu sahədə verilmiş digər tapşırıqların icrası, nəticələri və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində görülmüş işlər və əldə edilən nailiyyətlər barədə məlumat verib. Hesabat dövründə "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində verilmiş tapşırıqların icrasının davam etdirildiyi bildirilib, bu sahədə nəzarəti həyata keçirən orqanların fəaliyyətinin əlaqələndirilməsi, qəbul olunmuş qanunvericiliyin icrasına nəzarətin gücləndirilməsi, qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin stimullaşdırılması, maarifləndirmə tədbirlərinin həyata keçirildiyi vurğulanıb.

İclasda həmçinin avtomobil nəqliyyatı və pərakəndə ticarət sahələrində qeyri-formal məşğulluğun qiymətləndirilməsi və aradan qaldırılması yolları ilə bağlı məruzələr dinlənilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək, müzakirə olunan məsələlərə münasibət bildiriblər.

İclasda Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının 2022-ci ilin birinci yarımilliyi üzrə fəaliyyətinə dair Azərbaycan Respublikası Prezidentinə təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

Sonda komissiyanın sədri qarşıda duran vəzifələrin icrasının gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

# Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi yekunlaşıb













İyulun 8-9-da Bakı və Şuşa şəhərlərində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi keçirilib.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iyulun 8-də müşavirənin Bakıda, ADA Universitetində keçirilən sessiyasında nazirliyin rəhbər heyəti, ölkəmizin bütün diplomatik nümayəndəliklərinin rəhbərləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının nümayəndələri iştirak ediblər. Tədbirin açılışında ADA Universitetinin rektoru Hafiz Paşayev iştirakçıları salamlayıb, müşavirəyə ADA Universitetinin evsahibliyi etdiyini məmnunluqla vurğulayıb. Rektor müşavirənin işinə uğurlar arzulayıb.

Müşavirədə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış ediblər. Çıxışlarda Azərbaycan Respublikasının xarici siyasət prioritetləri, müasir dövrdə üzləşdiyimiz çağırışlar və onların qarşısının alınması istiqamətində görülən tədbirlər, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində rolu, ikitərəfli və çoxtərəfli platformalarda iştirakı, əməkdaşlığın perspektivləri və digər mövzularda fikirlər səsləndirilib. Diplomatik nümayəndəliklərin rəhbərlərinə müvafiq istiqamətlər üzrə təlimatlar verilib. Sonra müzakirələr panel iclaslarında davam etdirilib.

İyulun 9-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbərliyinin, habelə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi Şuşa şəhərində davam edib.

İşğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işləri mövzusuna həsr olunmuş panel iclasında xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin Şuşa şəhərində xüsusi nümayəndəsi Aydın Kərimov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev və Qarabağ iqtisadi rayonu üzrə nümayəndəsi Emin Hüseynov tərəfindən geniş təqdimatlar edilib.

Növbəti panel iclasında Heydər Əliyev Fondunun təşəbbüsü və Xarici İşlər Nazirliyinin dəstəyi ilə dərc olunan, Gürcüstan Milli Muzeyinin direktoru Eldar Naderadzenin rəhbərliyi ilə gürcü alimləri tərəfindən işlənib hazırlanmış, Qarabağ xanlığının zəngin tarixi irsini Gürcüstan Milli Muzeyində saxlanılan artefaktlara əsasən təqdim edən "Qarabağ xanlığı - tarixi və mədəni kimlik" kitabının təqdimatı keçirilib.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsi Şuşa şəhərində təşkil olunan mədəni proqramla yekunlaşıb.

# Avstriya şirkətlərinin Azərbaycana marağı daha da artıb

İyulun 11-də xarici işlər naziri Ceyhun Bayramov Avstriyanın Azərbaycana yeni təyin olunmuş səfiri Tomas Şuller-Hötzburqu qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb. Ölkəmiz ilə Avstriya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyinə istinad edən nazir ikitərəfli siyasi dialoqun və məsləhətləşmələrin əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nazir cari ilin əvvəlində Avstriyaya səfəri də daxil olmaqla, son bir ildə Avstriyanın xarici işlər naziri Aleksander Şalenberq ilə görüşləri və aparılmış müzakirələri məmnunluqla qeyd edərək, həmkarının ölkəmizə səfər edəcəyini gözlədiyini səfirin diqqətinə çatdırıb. O, bölgəmizdə baş vermiş dəyişikliklər kontekstində siyasi, iqtisadi, təhsil, nəqliyyat, tranzit, alternativ və "yaşıl enerji" resurslarının inkişaf etdirilməsi istiqamətlərində, eləcə də humanitar səviyyədə imkanların və əməkdaşlıq perspektivlərinin daha da genişləndiyini vurğulayıb.

Səfir Tomas Şuller-Hötzburq Avstriyanın Azərbaycandakı səfirliyinin 12 il əvvəl təsis edilməsinə baxmayaraq, xüsusilə enerji məsələləri daxil olmaqla, müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndiyini məmnunluqla diqqətə çatdırıb. Səfir Avstriya şirkətlərinin Azərbaycana marağının daha da artdığını qeyd edib, cari ilin may ayında Avstriyadan Azərbaycana ticarət missiyasının həyata keçirildiyini, növbəti belə missiyanın yaxın gələcəkdə planlaşdırıldığını bildirib. Nazir Ceyhun Bayramov Ermənistanın təcavüzü nəticəsində ölkəmizə və əhalimizə dəyən zərər barədə qarşı tərəfi məlumatlandırıb. Son 30 ildə ölkəmizə münasibətdə beynəlxalq hüququn norma və prinsiplərinin pozulduğu diqqətə çatdırılıb. O, daha sonra səfirə bölgədə münaqişə sonrası vəziyyət, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, Azərbaycanla-Ermənistan arasında normallaşma prosesi, habelə bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafına dair Azərbaycanın baxışları və təklifləri barədə məlumat verib. Avstriya şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə dəstək verməsinin vacibliyini vurğulayıb. Səfir ölkələrimiz arasında münasibətlərin daha da inkişafı naminə səylər göstərəcəyini diqqətə çatdırıb.

# Birləşmiş Krallıq Azərbaycanla münasibətlərin daha da möhkəmlənməsində maraqlıdır





**İyulun 11-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Londonun "Hitrou" Beynəlxalq Hava Limanında nümayəndə heyətini Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Elin Süleymanov və digər rəsmi şəxslər qarşılayıblar.

Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallığa rəsmi səfəri çərçivəsində iyulun 12-də bu ölkənin İcmalar Palatasının sədri Ser Lindsi Hoylla görüşüb. Azərbaycan parlamenti sədrinin şərəfinə Birləşmiş Krallıq parlamentinin qarşısında Azərbaycan Respublikasının Dövlət Bayrağı dalğalandırılıb.

Milli Məclisin Sədrini səmimiyyətlə salamlayan Ser Lindsi Hoyl ölkəsinin Azərbaycan parlamenti rəhbərinin bu səfərinə böyük əhəmiyyət verdiyini bildirib. O, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu qeyd edərək, bu illər ərzində Birləşmiş Krallıqla Azərbaycan arasında uğurlu tərəfdaşlığın qurulduğunu söyləyib.

Ser Lindsi Hoyl Birləşmiş Krallığın Azərbaycanla münasibətlərin daha da dərinləşməsində maraqlı olduğunu bildirərək, parlamentlərimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Azərbaycan parlamentinin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova bu səfərin Azərbaycan Milli Məclisinin Sədri səviyyəsində Birləşmiş Krallığa ilk səfər olduğunu diqqətə çatdırıb. O, bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Ölkələrimizin dost və tərəfdaş olduğunu bildirən parlamentin sədri qeyd edib ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğu ötən 30 il ərzində siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlıq dinamik inkişaf edib. O deyib ki, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlər, görüşlər müstəsna rol oynayır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Krallığa səfərlərini xüsusi qeyd edən Milli Məclisin Sədri bunun siyasi münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyib.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin münasibətlərimizin əsas komponentlərindən birini təşkil etdiyini diqqətə çatdıran Milli Məclisin Sədri qeyd edib ki, Birləşmiş Krallıq Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycanda 600-ə yaxın Britaniya şirkəti qeydiyyatdan keçib və bu, bizim iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin müsbət əlamətidir. Görüşdə enerji sahəsində əlaqələrin də yüksək səviyyəsi qeyd olunaraq, BP şirkətinin neft və qaz hasilatında Azərbaycanın etibarlı tərəfdaşı olduğu vurğulanıb. Azərbaycan "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində Birləşmiş Krallığın siyasi dəstəyini hər zaman hiss edib. Bərpaolunan enerji sahəsində də fəal əməkdaşlıq mövcuddur.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, ölkəmizdə parlamentarizmin tarixi ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlamentinin yarandığı 1918-ci ildən başlayır. Azərbaycan müsəlman Şərqində ilk parlamentli respublika olub. Həmin il əksər Qərb ölkələrini qabaqlayan Azərbaycan qadınlara səsvermə hüququ verib və bütün etnik qruplara parlamentdə təmsil olunmaq imkanı yaradılıb.

Parlamentlərarası əlaqələrin ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin ən mühüm hissələrindən biri olduğunu deyən spiker Sahibə Qafarova vurğulayıb ki, xalqlarımız arasında qarşılıqlı hörmət, dostluq münasibətləri mövcuddur. Azərbaycan parlamenti bu əlaqələri daha da gücləndirmək əzmindədir. Hazırda qanunverici orqanlarımız ikitərəfli münasibətlərin inkişafına müsbət töhfələr verir. Hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyəti təqdirəlayiqdir. Spiker deyib ki, müntəzəm görüşlər, dialoq və fikir mübadiləsi, dostluq qrupları arasında təmaslar parlamentlər arasında körpü rolunu oynaya bilər. Parlament komitələri vasitəsilə qanunverici orqanlar arasında əlaqələrin daha da genişləndirilməsi müsbət nəticələr verə bilər. Komitələrimiz hüquqi, iqtisadi, humanitar və digər sahələrdə qanunvericilik fəaliyyətində təcrübə mübadiləsi üçün əməkdaşlıq da edə bilərlər.

Görüşdə İcmalar Palatasının sədrinə Cənubi Qafqaz regionunda mövcud vəziyyət və Ermənistanla Azərbaycan arasında sülh perspektivləri barədə məlumat verən Sahibə Qafarova qeyd edib ki, Azərbaycan 2020-ci ildə Vətən müharibəsində qələbə qazanaraq, öz ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və digər beynəlxalq hüquqi sənədlərin tələblərinin icrasını öz gücü ilə təmin edib. Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil və tarixin səhifələrində qalıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, işğal illərində Ermənistan Azərbaycanın bütün şəhər və kəndlərini qəsdən dağıdıb, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, məscidlərimiz, müqəddəs yerlərimiz təhqir olunub. Bu gün isə Azərbaycan öz imkanları hesabına bu ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Hazırda işğal zamanı ermənilər tərəfindən dağıdılmış bütün infrastruktur bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağda və Şərqi Zəngəzurda yeni şəhər və kəndlər salınır. Artıq bu il keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasına başlanılacaq. Amma təəssüflər olsun ki, bu işlərdə ən mühüm problemlərdən biri Ermənistanın işğal zamanı ərazilərə çoxlu sayda mina qoymasıdır. 10 noyabr 2020-ci il tarixdən etibarən mina partlayışları nəticəsində 210-dan çox mülki şəxs və hərbçi həlak olub və yaralanıb. Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən biri olsa da, minatəmizləmə fəaliyyətində hələ də ən az beynəlxalq dəstək alan ölkələrdən biridir. Milli Məclisin Sədri Birləşmiş Krallıq şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minaların təmizlənməsinə verdiyi töhfəni və bu ərazilərimizdə həyata keçirilən bərpa, quruculuq işlərində iştirakını xüsusi qeyd edib.

Spiker Sahibə Qafarova vurğulayıb ki, münaqişədən sonrakı dövrdə Cənubi Qafqazda yeni reallıqlar, yeni imkanlar yaranıb. Bu, regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verəcək. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Azərbaycan artıq nəqliyyat infrastrukturuna çox böyük maliyyə vəsaiti ayırıb. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması nəqliyyat potensialını xeyli artıracaq. Sahibə Qafarova deyib ki, regionun nəqliyyat infrastrukturunun, o cümlədən Zəngəzur dəhlizinin açılması inkişafa, sabitliyə töhfə verməklə yanaşı, blokada şəraitində yaşayan Ermənistanın özünə də fayda verəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanla Birləşmiş Krallıq arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur

İyulun 12-də Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallığa rəsmi səfəri çərçivəsində Lordlar Palatasının sədri Lord Con Makfolla görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin rəhbərini səmimiyyətlə salamlayan Lordlar Palatasının sədri ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. Görüşdə Azərbaycan Milli Məclisi Sədrinin Birləşmiş Krallığa ilk səfərinin münasibətlərimizin daha da dərinləşməsinə töhfə verəcəyinə inam ifadə olunub.

Birləşmiş Krallığın Azərbaycanı vacib tərəfdaş ölkə hesab etdiyi və münasibətlərimizin inkişafına böyük əhəmiyyət verdiyi qeyd edilərək, ölkələrimiz arasında bir çox sahələri əhatə edən əməkdaşlıq əlaqələrinin mövcud olduğu bildirilib. Qeyd edilib ki, enerji sahəsində əməkdaşlıq iqtisadi sahədə əlaqələrin inkişafına əsaslı töhfələr verib. Söhbətdə humanitar sahədə də əlaqələrin dərinləşməsinin vacibliyi vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmiz haqqında səsləndirdiyi fikirlərə və göstərilən qonaqpərvərliyə görə Lord Con Makfola minnətdarlığını bildirərək, dost və tərəfdaş ölkələr olan Birləşmiş Krallıq və Azərbaycan arasında münasibətlərin dinamik inkişaf etdiyini bildirib. O, əlaqələrimizin hazırkı yüksək səviyyəyə çatmasında belə səfərlərin, o cümlədən Prezident İlham Əliyevin Birləşmiş Krallığa səfərlərinin əhəmiyyətli rolunu qeyd edib.

Spiker Sahibə Qafarova Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələrin iqtisadi, siyasi, humanitar, enerji sahələri ilə yanaşı, digər sahələri də əhatə etdiyini bildirib. O deyib ki, parlamentlərarası əlaqələr ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin ən mühüm tərkib hissələrindən biridir. Biz parlament üzvləri olaraq əlaqələrimizi daha da inkişaf etdirməkdə maraqlıyıq. Parlamentlərimiz ikitərəfli münasibətlərin inkişafında müsbət rol oynayır və qanunverici orqanlarımız arasında sıx əlaqələr qurulub. Spiker parlamentlərimiz arasında rəhbərlik səviyyəsində ilk səfər olan bu səfərin parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi istiqamətində mühüm nəticələr verəcəyinə inamını ifadə edib.

Milli Məclisin Sədri dostluq qruplarının fəaliyyətini təqdir edərək deyib ki, bu qruplar parlamentlərarası əlaqələrin inkişafında mühüm rol oynaya bilər. Birləşmiş Krallıq parlamentində fəaliyyət göstərən Azərbaycanla dostluq qrupunun ölkəmizə çoxsaylı səfərlərinin olduğunu qeyd edən Sahibə Qafarova xatırladıb ki, qrupun üzvləri 2021-ci ilin noyabrında Azərbaycana sonuncu səfərləri zamanı işğaldan azad edilmiş Füzuli və Şuşa şəhərlərində də olublar.

Milli Məclisin Sədri 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbə, öz torpaqlarını işğaldan azad etməsi, ərazi bütövlüyünün bərpası, hazırda regionda mövcud olan yeni şərait barədə ətraflı məlumat verib. Spiker deyib ki, Ermənistanla Azərbaycan arasında münaqişə artıq tarixin səhifələrində qalıb və ölkəmiz gələcəyə ümidlə baxır. Spiker vurğulayıb ki, Azərbaycan Ermənistana bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanılması, regionda bütün kommunikasiyaların bərpası və münaqişənin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təklif verib. Azərbaycan regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması üçün səylərini davam etdirir. Buna baxmayaraq, Azərbaycanın sülh sazişi üzərində işə başlamaq təklifi hələ də cavabsız qalır. Ümid edirik ki, Ermənistan bu dəfə öz öhdəliklərini yerinə yetirəcək, konstruktiv yanaşma nümayiş etdirəcək və qeyd olunan prinsiplər əsasında münasibətlərin normallaşmasına gedəcək. Çünki bu, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yoludur.

Spiker qeyd edib ki, münaqişədən sonrakı dövrdə Cənubi Qafqazda yeni reallıqlar, yeni imkanlar yaranıb. Bu imkanların reallaşması regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verəcək. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması nəqliyyat potensialını xeyli artıracaq. Bu mənada ölkələrimiz nəqliyyat sahəsində əməkdaşlıq üçün geniş imkanlara malikdir.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Vestminster Sarayı ilə tanış olub, İcmalar Palatasının iclasını müşahidə edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qarşılıqlı səfərlər əlaqələrin daha da dərinləşməsinə xidmət edir





Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallığa rəsmi səfəri çərçivəsində bu ölkə parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun rəhbəri Bob Bləkmən və qrupun digər üzvləri ilə görüşüb.

Milli Məclisdən verilən məlumata görə, Sahibə Qafarova ölkələrimiz arasında münasibətlərin hazırda uğurla inkişaf etdiyini bildirib. O, qeyd edib ki, Birləşmiş Krallıq Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk Qərb ölkələrindən biridir və bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub. Spikerin sözlərinə görə, bu illər ərzində münasibətlər uğurla inkişaf edərək, bir çox sahələrdə əməkdaşlığın inkişafına geniş imkanlar yaradıb.

Milli Məclisin Sədri xüsusilə iqtisadiyyat və enerji sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Birləşmiş Krallıq Azərbaycanın əsas ticarət tərəfdaşlarından və iqtisadiyyatımıza ən böyük investisiya qoyan ölkələrdən biridir. Sahibə Qafarova Birləşmiş Krallıq şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərməsini, o cümlədən ərazilərimizin minalardan təmizlənməsində və digər sahələrdə uğurlu əməkdaşlığını xüsusilə qeyd edib. O, inamını ifadə edib ki, bütün bu tədbirlər ikitərəfli əlaqələrimizi daha da gücləndirəcək.

Spiker Sahibə Qafarova deyib ki, ölkələrimiz arasındakı əlaqələrin inkişafında parlamentlərimiz müsbət rol oynayır və qanunverici orqanlarımızın üzvləri arasında xoş münasibətlər mövcuddur. Bu, parlamentlərimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlıqda özünü təsdiqləyir. Hər iki ölkənin parlamentlərində işçi qrupları uğurla fəaliyyət göstərir. Beynəlxalq təşkilatlar çərçivəsində də nümayəndə heyətlərimiz arasında qarşılıqlı təmas və müxtəlif məsələlərlə bağlı əməkdaşlıq mövcuddur. Qarşılıqlı səfərlər əlaqələrimizin daha da dərinləşməsinə xidmət edir. Bu mənada Azərbaycan Milli Məclisinin Sədri səviyyəsində Birləşmiş Krallığa ilk səfər də qanunverici orqanlarımız arasında münasibətlərin dərinləşməsinə öz töhfəsini verəcək. Sahibə Qafarova 2021-ci ildə Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərini məmnunluqla xatırladaraq, sözügedən səfərin parlamentarilərimiz arasında dialoqun daha da inkişafı baxımından əhəmiyyətini qeyd edib. Qanunverici orqanlarımız arasında əlaqələrin inkişafı xalqlarımız arasında qarşılıqlı hörmət, dostluq münasibətlərinin də genişlənməsinə özünəməxsus töhfələr verir.

Dostluq qrupunun üzvlərinə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə və öz ərazi bütövlüyünü bərpa etməsi, Cənubi Qafqaz regionunda mövcud olan vəziyyət barədə məlumat verən spiker Sahibə Qafarova deyib ki, Azərbaycan öz gücü hesabına münaqişəni həll edib və Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil. Onun sözlərinə görə, işğal illərində Ermənistan bütün şəhər və kəndlərimizi qəsdən dağıdıb, bütün tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub. Keçən ilin noyabrında Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti Füzuliyə, Şuşaya səfərləri zamanı dağıntıların, törədilən vəhşiliklərin şahidi olub. Azərbaycan ərazilərini işğaldan azad edəndən dərhal sonra isə öz imkanları ilə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlayıb. Hazırda işğal zamanı dağılmış bütün infrastruktur bərpa olunur, Qarabağda və Şərqi Zəngəzurda yeni şəhər və kəndlər salınır. Azərbaycan bölgədə daimi sülhün və sabitliyin təmin olunmasını istəyir. Ona görə də Ermənistana bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanması, regionda bütün kommunikasiyaların bərpası və münaqişənin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə təklif verib. Buna baxmayaraq, Azərbaycanın sülh sazişi üzərində işə başlamaq təklifi hələ də cavabsız qalır. Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, Ermənistan öz öhdəliklərini yerinə yetirəcək, konstruktiv yanaşma nümayiş etdirərək qeyd olunan prinsiplər əsasında münasibətlərin normallaşmasına gedəcək. Çünki bu, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yoludur. Münaqişədən sonrakı dövrdə Cənubi Qafqazda yeni reallıqlar, yeni imkanlar yaranıb. Bu imkanların reallaşması regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verəcək.

Görüşdə çıxış edən Birləşmiş Krallıq parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun rəhbəri Bob Bləkmən Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, ölkəmizdə bir neçə dəfə səfərdə olduğunu, hər səfərində Azərbaycanda baş verən irimiqyaslı dəyişikliklərin şahidinə çevrildiyini diqqətə çatdırıb. O, Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini xüsusi vurğulayaraq, hazırda hökumətin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi yenidənqurma və bərpa işləri haqqında danışıb, ölkəmizin bölgədə daimi sülhün təmin olunması istiqamətində səylərini vurğulayıb.

Görüşdə çıxış edən hər iki tərəfdən dostluq qruplarının üzvləri qanunverici orqanlarımız arasında əməkdaşlığın dərinləşməsinin vacibliyi, Azərbaycan Milli Məclisinin Sədrinin Birləşmiş Krallığa ilk səfərinin tərəflər arasında münasibətlərə verəcəyi töhfə və digər məsələlər haqqında fikirlərini bildiriblər. Dostluq qruplarının üzvləri arasında bu cür görüşlərin keçirilməsinin, qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub.

❖ ❖ ❖

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallıq Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson və Qadınlar üçün sülh və təhlükəsizlik qrupunun həmsədrləri Baronessa Cenkins və Baronessa Hodcson ilə görüşdü.

Görüşdə parlamentin sədri müstəqil Azərbaycanın dost və tərəfdaş ölkə kimi Birləşmiş Krallıqla iqtisadi və ticarət əlaqələrinin gündən-günə inkişaf etdiyini diqqətə çatdırdı. Bildirildi ki, 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıq, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, kommunikasiya xətlərinin açılması istiqamətində görülən işlər Avropa ölkələri, həmçinin Birləşmiş Krallıq ilə əməkdaşlığın daha da dərinləşməsinə yaxşı imkanlar yaradacaqdır.

Görüşdə Sahibə Qafarova Azərbaycanda qadın hüquqlarının qorunması, gender məsələləri ilə bağlı aparılan dövlət siyasəti barədə ətraflı məlumat verərək bu gün qadınların Azərbaycanın ictimai-siyasi həyatında, dövlət idarəetmə orqanlarında iştirakından söz açdı. Qeyd edildi ki, hələ ötən əsrin əvvəllərində müsəlman Şərqində ilk cümhuriyyət qurmuş Azərbaycanda qadınlara seçki hüququ verilmişdir və qadınlar bu gün Azərbaycan parlamentində və müxtəlif dövlət vəzifələrində təmsil olunurlar. Bu sahədə islahatlar və məqsədyönlü siyasət davam etməkdədir.

Söhbətdə parlamentlərarası əlaqələrin gələcək inkişafı, qadınların dünyada sülh və əmin-amanlığın yaradılmasındakı rolu və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# 1969 Azərbaycan tarixinin Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2022

**Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. İki əsrlik münaqişəni, otuz illik müharibəni Zəfərlə bitirən, dünyanın ən islahatçı ölkələri sırasına yüksələn, bölgənin şəriksiz liderinə çevrilən ölkəmizin bütün bu nailiyyətləri Prezident İlham Əliyevin möhtəşəm fəaliyyətinin nəticələridir. Ancaq bir məqamı da unutmayaq, möhtərəm dövlət başçımız hər zaman bildirir ki, bu nailiyyətlərin əsasını Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurla həyata keçirilməsi təmin edir.**



# Milli yüksəlişin təməl günü

## 53 il öncə Heydər Əliyevin Azərbaycana qüdrət və inkişaf bəxş edən missiyası başladı

Haqlı olaraq dünyanın ən böyük azərbaycanlısı sayılan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti dövründə formalaşdırdığı təməllər həm də uzun onilliklər boyu Azərbaycanın uğurlu inkişafını təmin edəcək düzgün yol kimi ölkəmizin yeganə alternativsiz yüksəliş yoludur.

Həssas bölgədə yerləşən Azərbaycanda dövlətçiliyin bütün bəşəriyyətə örnək olan inkişaf modelinin qurulması istiqamətində Ulu Öndərin tarixi xidmətləri bütün dünyanın qəbul etdiyi və öyrəndiyi zəngin bir irsdir. Əminliklə deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri əvəzedilməzdir. Bütün bu işlər isə 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə başlayıb.

### Tarixi missiyanın uğurlu başlanğıcı

Hər bir xalq tarixən yaranmış əlverişli şəraitdə özünün milli dövlətçilik, müstəqillik ənənələrinin bərpasına can atır. Zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqı üçün belə real tarixi şans ötən əsrin ikinci yarısında məhz böyük dövlət xadimi Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə yaranıb.

Həmin il dahi şəxsiyyətin Azərbaycanda rəhbərliyə gəlməsi, sovet rejiminin sərt qanunlarına baxmayaraq, respublikamızda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açıb. Ona görə də deyə bilərik ki, Azərbaycan tarixində son 53 il məhz Heydər Əliyev dövrüdür.

Etiraf etməliyik ki, həmin dövrdə Azərbaycan iqtisadi göstəricilərinə görə keçmiş SSRİ-də sonuncu yerlərdən birini tuturdu. Respublikada iqtisadi-siyasi böhran hər il dərinləşirdi. Cəmiyyət həyatının ən müxtəlif sahələrində ideoloji-siyasi, sosial-iqtisadi və mənəvi böhran hökm sürür, neqativ hallar baş alıb gedirdi. Azərbaycan milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalatda tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı.

Yaranmış vəziyyətdə keçmiş SSRİ rəhbərliyi çıxış yolunu kadr dəyişikliyində görərək ciddi və hərtərəfli araşdırmalardan sonra müxtəlif namizədlər arasında təşkilatçılığı, yüksək idarəçiliyi, dərin bilikləri ilə fərqlənən, xalqın səciyyəvi milli xüsusiyyətlərinə dərindən bələd olan dahi lider Heydər Əliyevin üzərində dayandı. Bu qərar isə yaranmış vəziyyəti tamamilə dəyişdi.

Zəngin təbii sərvətlərinə, istehsal potensialına baxmayaraq, Azərbaycanın keçmiş SSRİ-nin geridə qalmış respublikaları sırasına düşməsinin səbəblərini ilk günlərdən araşdıran Heydər Əliyev iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərin həyata keçirilməsini təmin etməklə peşəkar strateq və müdrik dövlət xadimi olduğunu sübuta yetirdi. Ümummilli Lider respublikada ilk növbədə milli-mənəvi ruhu yüksəltməklə azərbaycanlıların öz tarixi ənənələrinə, köklərinə bağlılığını sürətləndirməyə, xalqın müstəqil yaşaya bilməsi üçün lazım olan iqtisadi və maddi-texniki bazanın formalaşdırılmasına çalışdı.

Ümummilli Lider ölkəyə rəhbərlik etməyə başlayandan sonra qısa zaman kəsiyində Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrildi. Heydər Əliyevin rəhbərliyi altında başlanan genişmiqyaslı işlərin nəticəsində Azərbaycan ittifaq respublikaları arasında öz layiqli yerini tutdu.

Sovet illərində Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və ana dilinin inkişafına da güclü təkan verən tədbirlər həyata keçirildi. Bu mənada o illərdə təkcə sosial-iqtisadi yüksəliş deyil, milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Sovet ideologiyasının hakim olduğu dövrdə Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib itməməsi üçün əlindən gələni etdi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət Azərbaycan xalqının milli-mənəvi dəyərlərini xalqın şüurundan silə bilmədi.

Azərbaycan 1970-ci illərdə kənd təsərrüfatı və sənaye məhsulları istehsalına görə keçmiş SSRİ-də ön yerlərdən birinə yüksəldi, milli gəlir artdı, respublika böyük tikinti-quruculuq meydanına çevrildi, yeni-yeni istehsal müəssisələri fəaliyyətə başladı. Ümummilli Liderin böyük qətiyyət və iradə əsasında formalaşdırmağa başladığı sənaye potensialı əsasında respublikamız həmin illərdə neft maşınqayırması, məişət kondisionerləri, elektrik mühərrikləri, elektromaqnit avadanlığı, soyuducular, sintetik kauçuk, boru-prokat, şüşə və şüşə qablar və sair məhsullar istehsalına görə ittifaq miqyasında qabaqcıl mövqelərə çıxdı.

Ümumilikdə 1969-1982-ci illər ərzində ölkədə kənd təsərrüfatı, iqtisadiyyat, elm-təhsil, mədəniyyət sahəsində əldə edilən nailiyyətlər Azərbaycanın ümumi inkişafına mühüm töhfələr verdi. Ona görə də məhz bu illər, sözün əsl mənasında, milli intibah dövrü kimi xarakterizə olunur.

Bütün bunlarla yanaşı, müdrik zəka sahibi kimi Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə milli mənafelərə xidmət edən çoxşaxəli addımları ilə xalqın istiqlal və azadlıq duyğularının gerçəkləşməsinə real siyasi-hüquqi və iqtisadi zəmin hazırladı.

Beləliklə, Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndərin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi yazılıb. Dövlət müstəqilliyimizin, Azərbaycanda inkişaf və tərəqqinin bir çox əsasları məhz bu dövrdən qaynaqlanır. Həmin faktların ən əhəmiyyətlisi bu idi ki, dünya sosializm sisteminin və böyük sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

### Tənəzzül, müstəqilliyin itirilmə təhlükəsi və Qurtuluş günü

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ulu Öndər həmçinin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. 1987-ci il oktyabr plenumunda isə öz ərizəsi ilə Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi.

Bununla da Azərbaycanda Heydər Əliyevsizlik dövrü (1987-1993) başladı. Açıq deməliyik ki, 1969-1987-ci illərdə əldə edilmiş uğurlu inkişaf, yüksəliş Heydər Əliyevsiz 6 il müddətində tənəzzülə uğradı, qazanılan uğurlar itirildi. Naşı, antimilli mərkəzlərin oyuncağına çevrilmiş rəhbərlərin məkrli fəaliyyətləri nəticəsində bütün nailiyyətlər əldən çıxdı və Azərbaycan böyük bir uçurumun astanasına gəldi. Heydər Əliyevsizlik illəri Azərbaycanın Qarabağ müharibəsi, müstəqilliyini itirmək təhlükəsi, vətəndaş müharibəsi, siyasi böhran, sosial səfalət dövrü oldu. Hətta hakimiyyət uğrunda çəkişmə Ermənistanla aparılan müharibəni də arxa plana keçirdi. Elə məhz bunun nəticəsində də torpaqlarımız ard-arda işğal edildi və 1 milyon soydaşımız yurdundan-yuvasından didərgin düşdü. Bununla da Azərbaycanın vəziyyəti daha da ağırlaşdı.

Belə bir ağır və mürəkkəb dövrdə xalqımız çox düzgün addım ataraq ölkəni düşdüyü ağır böhrandan qurtarmaq üçün üzünü Heydər Əliyevə tutdu. Çünki Azərbaycan xalqı əmin idi ki, ölkəni düşdüyü bu acınacaqlı durumdan yalnız Heydər Əliyev qurtara bilərdi. Buna əsas da var idi. Xalq 1969-1982-ci illərdə Ulu Öndərin tənəzzüldən inkişaf mərhələsinə çıxardığı Azərbaycanı görmək, müasir və əsl müstəqil dövlətdə yaşamaq istəyirdi.

Beləliklə də xalq birləşib dahi şəxsiyyəti Bakıya dəvət etdi. 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə qayıdan Ulu Öndər müstəqilliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı öz üzərinə götürdü. O dövrdə təsəvvür etmək çətin idi ki, ömrünün müdrik çağında olan və çoxsaylı təhdidlərə məruz qalan Heydər Əliyev yenidən hakimiyyətə qayıtsın. Buna rəğmən bu güclü şəxsiyyətin heç nədən çəkinmədən, öz həyatını belə təhlükəyə ataraq, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib, siyasət meydanına atılması xalqı və dövləti qarşısında misilsiz fədakarlığı idi.

Həmin il iyunun 15-də Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin xilasına yol açan böyük siyasi hadisə kimi tarixə yazıldı. Məhz Heydər Əliyev dövlətçiliyimizi, azadlığımızı qorudu, xilas etdi və bu gün müstəqil, demokratik, hüquqi dövlətdə yaşamaq arzumuzun real və dayanıqlı əsaslar üzərində gerçəkləşməsi dahi şəxsiyyətin adı ilə bağlıdır.

15 İyun Milli Qurtuluş Günü "xalq-Heydər" birliyinin əzəmətli təntənəsi kimi tariximizə qızıl hərflərlə yazıldı. Xalq üzləşdiyi bütün təlatümlərdən, faciələrdən xilas yolunu məhz Heydər Əliyev şəxsiyyətində tapdı. Bir lider kimi Heydər Əliyev də millətin və dövlətin böhran və məşəqqətlərdən qurtuluşu üçün həyatını qurban verməyə hazır idi. Bu qarşılıqlı etimad, inam - xalq və lider birliyi dünya tarixində az rast gəlinən hadisələrdəndir. Tariximizin 1980-ci illərdən sonra başlayan və indiyədək davam edən dövrünü diqqətlə araşdırsaq, Milli Qurtuluş Gününün əhəmiyyətini və əlahiddəliyini aydın dərk edərik.

### Müasir inkişafın təməl daşı, böhrandan, xaosdan yüksəlişə gedən yol

İkinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər Azərbaycanda, sözün həqiqi mənasında, möcüzələr yaratdı. Bəlkə Tanrının da əlini üzdüyü bir dövləti dağılmaqdan, parçalanmaqdan qurtardı. Əsl demokratik, vətəndaş cəmiyyətinin əsasını qoydu və ölkəni inkişaf istiqamətinə yönəltdi. Dahi liderin Azərbaycana yenidən qayıdışından sonra ölkəmizdə milli məfkurənin, vətəndaş cəmiyyətinin formalaşması və yüksəlişi, xalqın arzularının gerçəkləşməsi üçün gördüyü ən mühüm işlərdən biri də ictimai-siyasi qurumların inkişafı və fəallaşmasıdır. Azərbaycan həmkarlar ittifaqlarının müxtəlif siyasi qüvvələrin təsirindən qorunmasında, cəmiyyətdəki missiyasını yerinə yetirməsində Ümummilli Liderin əvəzsiz rolu oldu. Bunların sayəsində həmkarlar ittifaqlarının uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alındı,vətəndaş cəmiyyətinə yad olan inzibati-amirlik metodlarından imtina edildi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının demokratik idarəçilik prinsiplərinə əsaslanan fəaliyyətinə dəstək verildi. Ulu Öndər dövlətin sosial-iqtisadi siyasətinin reallaşdırılması işində, dövlət başçısı kimi fəaliyyətinin sonuna qədər həmkarlar ittifaqına güvəndi.

Ulu Öndər 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimində yenidən xalqına ləyaqətlə xidmət edəcəyini hər kəsə bəyan etdi: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm".

Dahi şəxsiyyət belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərinə götürərkən, ilk növbədə xalqının zəkasına, müdrikliyinə güvəndi, qüdrətinə arxalandı. Həyat və fəaliyyəti tarix üçün bir örnək, xalq üçün bir nümunə olan Ümummilli Lider nəsillərin minillik arzusunu tarixi reallığa çevirdi. Xalqına böyük zəhməti hesabına ərsəyə gətirdiyi şah əsərini - müstəqil, demokratik Azərbaycanı bəxş etdi. O, Azərbaycanı öz şəxsi nüfuzu və əməli fəaliyyəti ilə dünyada tanıtdırdı, Avropa ölkələri ailəsinin tamhüquqlu üzvləri sırasına çıxardı. Ölkəmiz Qafqaz regionunun iqtisadi, hərbi təsir gücünə malik ən nüfuzlu dövlətinə çevrildi.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Ulu Öndərin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz. Bütün bunlar Azərbaycanın həqiqətləridir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ən mühüm uğurlardan biri atəşkəsin əldə edilməsi oldu.

Ulu Öndərin ölkə iqtisadiyyatında köklü dəyişikliklərə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanılıb. 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması 28 il öncə müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasına, neft salnaməsinə qızıl hərflərlə yazılan bu tarix dahi şəxsiyyətin yeni neft strategiyasının təntənəsi kimi yaddaşlara əbədi həkk olunub. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər sırasına düşüb. Ona görə də bu müqavilə müstəqil Azərbaycanın inkişafının təməl daşı adlandırılıb.

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın xilaskarı kimi müstəqillik tarixini yazan Ümummilli Lider qısa zamanda misilsiz xidmətləri ilə, köklü demokratik hüquqi dövlət quruculuğu, mütərəqqi islahatları ilə tariximizin parlaq səhifələrini yazdı.

Heydər Əliyevin böyüklüyü, dövlətçilik səriştəsi onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikcəsinə bacarırdı. O, hər zaman xalqının yanında idi, onu böyük bir izdiham müşayiət edirdi, hər bir vətəndaşa qayğı ilə yanaşırdı. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Dahi şəxsiyyət vətən üçün, xalq üçün doğuldu, ölkənin tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də, xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir...

Ulu Öndər əsl ümumxalq məhəbbəti qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanın sabitlik və təhlükəsizliyinin qarantı oldu, ölkəmizi inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi. Dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoydu, Azərbaycanın reallıqlarını, ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratdı.

### Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan

Dahi şəxsiyyətin bir vaxtlar söylədiyi "Vaxt gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamı bu günümüzün reallığı olmaqla yanaşı, onun uzaqgörənliyinin real təsdiqidir. Həqiqətən də bu gün Azərbaycan tarixinin ən qüdrətli dövləti kimi dünyaya səs salır.

Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil respublikamızın taleyini öz məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Ulu Öndər dühasından bəhrələnərək onun siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan dünyada qüdrətli dövlət kimi tanınır.

Cənab İlham Əliyev həqiqətən də bu gün yaşadığımız ölkəni dahi liderin görmək istədiyi Azərbaycana çevirib. Bunun səbəbi isə möhtərəm Prezidentin 19 il ərzində Ulu Öndərin müəyyən etdiyi inkişaf konsepsiyasını uğurla reallaşdırmasıdır.

Bütün bunlar isə Ulu Öndərin ideyalarının yaşadığını, daim Azərbaycana uğur gətirdiyini təsdiqləyir. Elə Prezident İlham Əliyevin söylədiyi kimi - "Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz - Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, ölkəmizi gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".

Bəs Azərbaycan bu uğurları necə əldə etdi?!

Cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan dünyada etibarlı tərəfdaşa, söz sahibinə çevrildi. İqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatı 3,2 dəfə artdı və bu, dünya rekordu hesab olundu. Azərbaycan iqtisadiyyatına müstəqillik dövründə 300 milyard dollara yaxın sərmayə yatırıldı. Bu investisiyalar, reallaşan transmilli layihələr və sosial proqramlar Azərbaycanın uğurlu gələcəyini şərtləndirdi. 2003-cü ildə, yəni 19 il öncə valyuta ehtiyatları 1,8 milyard dollar olan Azərbaycan bu gün 52 milyard dollar valyuta ehtiyatlarına sahibdir.

Azərbaycanın razılığı və birbaşa təşəbbüskarı olduğu beynəlxalq tranzit layihələri - Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri ölkəmizi dünyada neft-qaz ixracatçısına, nəqliyyat-logistika və sənaye mərkəzlərindən birinə çevirib.

İqtisadiyyatın bütün sahələrinin inkişafı ilə ölkəmiz dünya bazarına "Made in Azerbaijan" brendi ilə yüzlərlə çeşiddə məhsul çıxarır. Bütün bu layihələr bir daha sübut edir ki, Azərbaycan son 19 il ərzində böyük və şərəfli yol keçib. İri sərmayəçi kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici ölkələrin iqtisadiyyatına yatırılan investisiyaların həcminə görə MDB-də aparıcı dövlətlərdən birinə çevrilib.

Bunu təkcə biz yox, beynəlxalq təşkilatlar da mütəmadi olaraq təsdiqləyir. Nailiyyətlər beynəlxalq strukturlar tərəfindən də qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı dünyanın 10 ən islahatçı ölkəsindən biri, Prezident İlham Əliyevi isə ən islahatçı dövlət başçısı elan edib.

Bütün bu uğurlara əsaslanaraq deyə bilərik ki, son 19 ildə Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atıb. Bu illər ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 19 ildə yeni hədəflər müəyyənləşdirib inkişaf dinamikasına nail oldu. Azərbaycanla müqayisə ediləcək çox az ölkəni misal göstərmək olar.

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər Ulu Öndərin müəyyənləşdirdiyi doğru yolun davamının sübutudur. Bu yüksəliş isə Heydər Əliyevin inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir. Ona görə də əminliklə söyləyə bilərik ki, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur ələyəcək.

### Heydər Əliyev Fondundan Ulu Öndərin irsinə layiqli töhfə

İki ildir ki, Azərbaycan xalqı Vətən müharibəsindəki böyük Zəfərin sevincini, qürurunu yaşamaqdadır. Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələri "Dəmir yumruq" əməliyyatı ilə işğal olunmuş və ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağı silah gücünə düşməndən azad etdi.

Beləliklə, Azərbaycan xalqının təbii və müqəddəs hüququ təmin edilərək, Qafqaz xalqları tarixində böyük dönüş nöqtəsi olan hadisə - Azərbaycan torpaqlarının işğaldan azad edilməsi prosesi baş verdi. İki əsrlik münaqişəni, 30 illik müharibəni həm hərbi, həm də diplomatik yolla həll edən Ali Baş Komandan Azərbaycan xalqının qəlbində özünün əbədiyaşar heykəlini ucaltdı.

Əlbəttə ki, Vətən müharibəsində qazanılan Zəfər Heydər Əliyev siyasətinin nəticəsidir desək, yanılmarıq. Çünki müharibənin başa çatdığı gün müqəddəs ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini söyləyən dövlət başçısı cənab İlham Əliyevin bu fikirləri bir daha təsdiq edir ki, bu Zəfər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi müasir inkişaf konsepsiyasının ən böyük uğurudur. Ulu Öndər vaxtı ilə dediyi: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun" fikirlərini reallığa çevirən cənab İlham Əliyev həqiqətən də uzaqgörən, Ümummilli Liderimizin əbədiyaşar ruhunu da şad etdi.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu Qələbənin sevincini yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Qalib ölkənin qalib Lideri kimi işğaldan azad edilmiş torpaqlarımıza davamlı səfərlər edən cənab İlham Əliyev hər dəfə hansısa obyektin açılışını edib, yenisinin təməlini qoymaqla düşmənə, onun havadarlarına gözdağı verir.

Qarabağ və Şərqi Zəngəzuru yenidən quran möhtərəm Prezident həm də dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Onu da xüsusi olaraq vurğulamalıyıq ki, Ulu Öndərin siyasətini uğurla gerçəkləşdirən Azərbaycan Prezidentinin fəaliyyəti ilə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu irsi ləyaqətlə yaşadır. Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu dünyanın ən nüfuzlu mərhəmət ünvanına çevrilib. Dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi xoşməramlı missiyaların, müxtəlif layihələrin hamısı Ulu Öndərin təbliğatının tanıdılmasına yönəlib. Bu gün isə fondun fəaliyyətinin ən şanlı səhifəsi Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq prosesində ön sırada olmasıdır. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırmaqdadır.

Artıq Qarabağ münaqişəsi tarixə qovuşub və Azərbaycanın həyatında yeni səhifə açılıb. Qarabağ problemini həll edən Prezident İlham Əliyev bununla da bölgədə yeni reallıqların yaranmasının əsasını qoyub. Hər zaman qlobal miqyaslı təşəbbüslərlə çıxış edən, bölgədə sülhün-təhlükəsizliyin təminatı üçün yeni əməkdaşlıq platformalarının yaradılması təklifini irəli sürən Azərbaycan Prezidenti Cənubi Qafqazı Avrasiyanın ən mühüm nəqliyyat-logistika mərkəzinə çevirmək üçün yol xəritəsi müəyyənləşdirib.

*Bir sözlə, Azərbaycanın yalnız öz gücünə, heç bir beynəlxalq maliyyə təşkilatından yardım almadan Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi misli görünməmiş bərpa-quruculuq işləri onu deməyə əsas verir ki, tezliklə Böyük qayıdış başlayacaq və bu tarix xalqımızın həyatında ən yeni səhifə açacaq.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

1969

# Azərbaycan tarixinin Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf

2022

# Şəxsiyyət ucalığı

**Dövlətin və xalqın yüksəlişinin, qürur duya biləcək salnamələrinin yaranmasının təcrübədə özünü doğrultmuş şərtləri var. Hansı ki, həmin şərtləri qoca tarix hər zaman, bütün minilliklərdə və əsrlərdə sübuta yetirib. Lakin tarixi gerçəklik həm də ondan ibarətdir ki, yüksəliş, inkişaf, dünyada özünə layiqli yer tutmaq, habelə mövcud olmaq üçün hətta arxalandığımız təbii və mənəvi şərtlər yetərli olmur. Bu mənada tarix həm də təsdiq edir ki, dövlət kimi var olmaq, güclü xalqa çevrilmək üçün hər zaman güclü liderlərə, dövləti və xalqı irəliyə apara biləcək şəxsiyyətlərə də ehtiyac olub.**



## Cəmiyyətin bütün sahələrində canlanma yarandı

İyulun 14-də respublikamıza ilk dəfə rəhbərliyə başlamasının 53-cü ili tamam olan Heydər Əliyev məhz belə, başqa cür ifadə etsək, prosesləri dövlətinin və xalqının mənafelərinə uyğun yönləndirməyi bacaran görkəmli siyasi və dövlət xadimi idi. Bu fenomenal şəxsiyyət rəhbərlik etdiyi bütün mərhələlərdə varlığı ilə sevdiyi Azərbaycana rifah bəxş edib, tariximizi şərəfləndirib. Heydər Əliyev özünün uzaqgörən və parlaq siyasi zəkası, müdrikliyi sayəsində yeni Azərbaycanı qurub, onun bugünkü iqtisadi və siyasi inkişafının memarı olub, ölkəmizi işıqlı gələcəyə aparan yolları müəyyənləşdirib.

Heydər Əliyevin Mərkəzi Komitənin plenumunda birinci katib seçilməsinin respublikamızda necə böyük əks-səda doğurması o dövrün şahidlərinin yaxşı xatirindədir. Çünki Ulu Öndərin rəhbərliyinin ilk günlərindən respublikamızda sanki böyük bir inqilabın başlandığı göz önündəydi. Cəmiyyətin bütün sahələrində bir canlanma yaranmışdı. Təsadüfi deyil ki, böyükdən kiçiyə hər kəs Heydər Əliyev barədə danışırdı. Yeni rəhbərin yaratdığı işgüzarlıq mühiti sadə insanların dərin rəğbətinə səbəb olmuşdur. Onun vətəni, xalqı üçün böyük xariqələr yaradacağı artıq ilk günlərdən cəmiyyətə məlum idi. Ona görə həmin dövrdə vətəndaşların dilindən tez-tez "ədalətli katib" ifadəsinin eşidilməsinin real əsasları var idi. Qeyd edim ki, 14 iyul plenumunda həmin vaxta kimi Azərbaycana rəhbərlik etmiş Vəli Axundov demişdir: "Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə imkan verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malikdir. O, bütün kadrlara qarşı eyni dərəcədə obyektiv, vicdanlı və layiqli insandır". Bəli, Heydər Əliyev ən yüksək keyfiyyətlərə malik idi və qısa zamanda Azərbaycan ictimaiyyəti bunun şahidi oldu.

Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda geniş məruzə ilə çıxış edən Heydər Əliyev respublikadakı vəziyyəti ardıcıllıqla təhlil etdi, iqtisadiyyatda, sosial və mədəni sahələrə rəhbərlikdə buraxılmış nöqsanları, çatışmazlıqları göstərdi. Problemlərin aradan qaldırılması üçün ilk növbədə diqqəti ölkədə mənəvi-psixoloji mühitin sağlamlaşdırılmasına yönəltdi. Bu gün fəxarət hissi ilə deyə bilərik ki, 1969-cu il Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməlinin qoyulduğu il kimi yazıldı.

## Azərbaycanlıların idarəetməyə cəlb edilməsi islahatların tərkib hissəsi idi

Heydər Əliyev Azərbaycanın inkişafının təmin olunması yönündə islahatlarını həm də idarəetmədən başlamışdı. Lakin bu sahədəki problemlər yalnız xoşagəlməz halların, bürokratik əngəllərin baş alıb getməsindən ibarət deyildi. Problem həm də onda idi ki, idarəetmədə azərbaycanlıların say göstəricisi olduqca az idi, kadr siyasətində neqativ hallar var idi. 1969-cu ilin avqust plenumunda Heydər Əliyev bütün neqativ hallar barədə fikirlərini böyük cəsarətlə, açıq-aydın, təfərrüatı ilə yığıncaq iştirakçılarının diqqətinə çəkdi. O, kəskin şəkildə qeyd etdi ki, hakimiyyətin idarəçiliyi sistemində yerlibazlıq, regionçuluq təzahürləri önə çəkilmiş, dövlət işinə böyük xeyir gətirən, daha böyük səmərə verən təşkilatçılıq bacarığı, işgüzarlıq keyfiyyətləri kölgəyə alınmışdır.

İdarəçilikdə azərbaycanlıların təmsil olunmasına ciddi maneələrin hökm sürməsi, onların daha çox aşağı vəzifələrdə yerləşdirilməsi ilk növbədə hakimiyyətlə xalqın birliyinə, milli vəhdətə ciddi əngəl idi. Ona görə Heydər Əliyev əsas diqqətini hakimiyyətlə xalqın vəhdətinə, onlar arasında birliyin təmin olunmasına yönəltmişdi.

Bacarıqlı rəhbər buna son qoymaq üçün möhkəm iradə, qətiyyət və prinsipiallıq nümayiş etdirməyə başladı. 1969-cu ilin avqust plenumunda da başlıca problem olan siyasi rəhbərliklə bağlı yekdilliyə səsləyən çağırışlar eşidildi. Bu məsələlər ətrafında işini qurmaq istəyən Heydər Əliyev hakimiyyət strukturunda azərbaycanlıların sayının az olması halına çox mənfi münasibətlə yanaşdı, xalqın çoxəsrlik milli-mənəvi dəyərlərini öz həmvətənlərinin şəxsində üzə çıxarmaq siyasəti ilə işə başladı. Heydər Əliyevin cəsarətlə bacarıqlı yerli kadrları idarəetməyə cəlb etməsi respublikanın inkişafı istiqamətində başlanan islahatlara böyük dəstək oldu. Belə bir fəaliyyət nəticəsində Azərbaycanda idarəçilikdə - dövlət orqanları arasında işlək əlaqə zəncirləri yarandı.

Mənim üçün bu mövzuda danışmaq xüsusilə qürurvericidir. Çünki siyasi və idarəçilik fəaliyyətimdə ilk addımlarımı məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra atmışam. Mən 1971-ci ilin fevral ayında Lənkəran rayonunda komsomolun ikinci katibi vəzifəsinə seçilmişəm. 1972-ci ildə Lənkəranda komsomolun birinci katibliyinə namizədliyim irəli sürüldü. Həmin vaxt məni qəbul edən Heydər Əliyevin verdiyi tövsiyələr həyatım boyu siyasi fəaliyyətimin yeganə istinadgahı oldu. Bu görüş məndə həyat fəaliyyətimin istiqamətini birdəfəlik müəyyən edən təssürat yaratdı. O görüşdə mənə verilən tövsiyələr, fikir mübadiləsi Heydər Əliyev məktəbinin birinci dərsi idi.

Kadr siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdən biri kimi xalqımızın dahi oğlu inkişafda vacib amil olan təhsil sisteminin yaxşılaşdırılmasına, savadlı, geniş dünyagörüşünə malik ziyalıların yetişməsinə böyük diqqət yetirirdi. Ölkənin dinamik inkişafı üçün ilk növbədə yüksəkixtisaslı kadrlara ehtiyac olduğunu gözəl bilən Heydər Əliyev azərbaycanlı gənclərin Moskvada və keçmiş SSRİ-nin başqa şəhərlərində olan qabaqcıl elm və təhsil ocaqlarında təhsil alması üçün bütün vasitələrdən istifadə edirdi. Bu baxımdan 1970-1980-ci illərdə onun təşəbbüsü ilə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq şəhərinin, 135 mülki, 105 ali hərbi məktəbində 250-dən çox nadir ixtisas üzrə 15 mindən çox mütəxəssis hazırlanmışdı. Heydər Əliyevin atdığı ən müdrik və cəsarətli addımlardan biri də Cəmşid Naxçıvanskinin adı verilən hərbi təyinatlı orta internat məktəbin fəaliyyətə başlaması oldu. Aradan ötən illər, müstəqillik illərində həyata keçirilən ordu quruculuğu Azərbaycanın tarixində ilk hərbi təhsil müəssisəsi olan bu məktəbin yaradılması ilə Heydər Əliyevin xalqımızın gələcəyi üçün nə qədər uzaqgörən bir qərar qəbul etdiyini təsdiqlədi.

## İqtisadiyyatda vüsətli dəyişikliklər baş verdi

Zəngin sərvətlərinə, iqtisadi və aqrar potenisalına baxmayaraq, ötən əsrin 60-cı illərində Azərbaycan ittifaq miqyasında milli gəlirin həcminə görə 2 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Energetika, metallurgiya, kimya sahələrində göstəricilər çox aşağı idi. Bu ağır vəziyyətdən çıxış yolları tapılmalı, iqtisadiyyatın dirçəldilməsi üçün köklü dəyişikliklər həyata keçirilməli idi. Bu baxımdan yeni rəhbərdən ölkənin iqtisadi potensialının səmərəli şəkildə hərəkətə gətirilməsi gözlənilən idi.

Ulu Öndər bu istiqamətdəki problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərdi. 1969-cu ildən başlayaraq respublikada özünü qabarıq şəkildə göstərən iqtisadi durğunluğun qarşısının alınmasına, sənayedə, kənd təsərrüfatında yeni islahatların həyata keçirilməsinə dair müvafiq tədbirlər planı hazırlandı. Heydər Əliyevin təşəbbüsləri ilə sovet rəhbərliyi Azərbaycan iqtisadiyyatının hərtərəfli və intensiv inkişafına yönəldilmiş beş xüsusi qərar qəbul etmişdi. Bu, görünməmiş bir iş idi və onun respublikanın, xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı. Məhz Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycanda iqtisadi həyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və ölkəmiz Rusiyadan sonra ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan birinə çevrildi.

Artıq 1980-ci ilin göstəricilərinə görə, sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artaraq 8,4 milyard rubla çatdırılmışdı. 10 il ərzində respublikada 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verilmişdi. Bunu, əlbəttə, sənayenin uğuru kimi yüksək qiymətləndirmək olardı. 12 müəssisədə istehsal gücü əvvəlki illərlə müqayisədə bir neçə dəfə artmışdı. Azərbaycanda sənaye istehsalı üç dəfə yüksəlmişdi. Bütün bu göstəricilər əldə olunandan sonra sənaye istehsalının artım sürətinə görə Azərbaycanın adı ittifaq səviyyəsində ön sıraya çıxmışdı.

Ötən əsrin 70-ci illərində Azərbaycanda kənd təsərrüfatının inkişafı sahəsində çox böyük irəliləyişlər nəzərə çarpmağa başladı. Bu sahədə mühüm nailiyyətlər əldə olundu. 1982-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1969-cu ildəkinə nisbətən təxminən beş-altı dəfə artmışdı.

Həmin dövrdə məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda yeni inkişaf dövrünün əsası qoyuldu, ayrı-ayrı sahələrdə islahatlar aparılmasının istiqamətləri müəyyənləşdirildi, yeni istehsal sahələri işə düşdü, sənaye, kənd təsərrüfatı məhsullarının həcmi ildən-ilə yüksəldi. Bütövlükdə, fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Heydər Əliyev Azərbaycanı qısa müddətdə dinamik inkişaf yoluna gətirməyə müvəffəq oldu. O cümlədən yuxarıda qeyd etdiyim kimi, idarəçilikdə mütərəqqi yeniliklərin tətbiqi, milli kadrların önə çəkilməsi yolu ilə cəmiyyətin normal inkişaf ahəngini təmin etdi.

## Ulu Öndər milli dəyərlərimizi sovet ideologiyasından qətiyyətlə qorudu

Heydər Əliyevin fəaliyyətindən bəhs edərkən Ulu Öndərin xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi ilə bağlı tarixi xidmətlərindən söz açmamaq mümkün deyil. O illərdə sovet rejiminin sərt qayda və qanunlarına, ideoloji baryerlərinə baxmayaraq, Heydər Əliyev milli-mənəvi dəyərlərimizin itməməsi üçün əlindən gələni edirdi. Xalqımızın milli mənlik şüurunun inkişafına güclü təkan verən tədbirlərin həyata keçirilməsi məhz Ulu Öndərin böyük vətəndaş qeyrətindən, vətəninə və xalqına sonsuz məhəbbətindən irəli gəlirdi.

Xatirimdədir ki, vaxtilə mən Lənkəranda çalışdığım dövrdə Böyük Bazar məscidini tarixi abidə kimi bərpa etmişdik. Şəkidə isə iki məscidi tarixi abidə kimi bərpa etmişdik. Əslində, bütün bunlar həmin məscidlərin qorunması, xalqımızın mənəvi dəyərlərinin yaşadılması üçün atılan addımlar idi.

Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət xalqımızın milli-mənəvi dəyərlərini şüurlarımızdan silə bilmədi. O illərdə Azərbaycan xalqı Novruz bayramını da ürək dolusu ilə qeyd edirdi, ümumiyyətlə, mənəvi dəyərlərimiz yaşadılırdı. Bu mənada təkcə sosial-iqtisadi yüksəliş deyil, milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Azərbaycan dilinin statusunun Konstitusiya ilə dövlət dili kimi təsbit olunması, şair və yazıçılarımızın kommunist rejiminin ideoloji təqiblərindən qorunması xalqın Heydər Əliyevə olan sevgisini daha da yüksəldən amillər idi.

1978-ci ildə Azərbaycan Sovet Respublikasının Konstitusiyası qəbul olunanda əsas qanuna Heydər Əliyevin cidd-cəhdi ilə "Azərbaycan dili Azərbaycan Sovet Respublikasının rəsmi dövlət dilidir" maddəsi daxil edildi. O zaman ali və orta-ixtisas təhsili məktəbləri üçün dərin elmi axtarışların məhsulu olan "Azərbaycan dili" dərslikləri nəşr olundu. Doğma dilimizlə bağlı olan bu uğurlar Heydər Əliyevin müdrikliyinin təcəssümü idi.

## Xilaskar

1991-ci il oktyabr ayının 18-də müstəqilliyimizin bərpa olunması Azərbaycan xalqının tarixi qələbəsi idi. Lakin tökülən qanlar, milli mübarizə hesabına nail olduğumuz müstəqilliyimiz 1990-cı illərin əvvəllərində hakimiyyətdəki siyasi qrupların səbatsızlığı səbəbindən az qala itirilmək təhlükəsi qarşısında qalmışdı. Belə vəziyyətdə öz xalqımızın istək və arzusu ilə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, güclü iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirdi. Bu gün cəsarətlə demək olar ki, əgər belə bir məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan adlı məmləkət dünya xəritəsindən silinə bilərdi. Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə müstəqilliyimizi qorudu, müasir Azərbaycan dövlətinin banisi oldu.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra dövlətçiliyin qüdrətlənməsinə, sosial rifahın yaxşılaşmasına xidmət edən dövlət quruculuğu xəttini böyük ardıcıllıqla həyata keçirməyə başladı. Ümummilli Liderin sayəsində mürəkkəb geosiyasi dövrdə ölkə vətəndaş qarşıdurması və hərc-mərclik, dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən çıxarıldı, inkişafın və əsl müstəqilliyin təməli qoyuldu. Heydər Əliyev dövlətçiliyin qüdrətlənməsinə, vətəndaşların rifahının yaxşılaşmasına xidmət edən dövlət quruculuğu xəttini böyük ardıcıllıqla həyata keçirdi. Azərbaycan tezliklə dünyanın sayılıb, seçilən ölkələrindən birinə çevrildi.

Ölkədə başlanan yeni siyasi kurs, islahatlar sosial siyasətə təsirsiz ötüşmədi. Çünki sosial ədalət olmayan yerdə inkişafdan, yüksəlişdən söhbət gedə bilməz. Məhz bundan irəli gələrək Ulu Öndər Heydər Əliyevin çoxillik siyasi fəaliyyətində və zəngin nəzəri irsində sosial ədalət anlayışı daim həlledici yer tutub. Onun sözügedən problemə həssas münasibəti hələ Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edən məşhur "Qoy ədalət zəfər çalsın" çağırışında qabarıq şəkildə əks olunurdu. Heydər Əliyev sosial ədalətin pozulmasını cəmiyyətin və dövlətin üzləşdiyi ən böyük bəla sayırdı. "Dövlət o zaman zəifləyir ki, ədalət pozulur" sözləri də Ulu Öndərin ədalət haqqında baxışlarının geniş prizmaya malik olduğunu sübuta yetirir. Sosial ədalət prinsipinin qorunması cəmiyyətin harmoniyasının təmin edilməsi baxımından əhəmiyyətli olduğu qədər də, siyasi sistemin dayanıqlılığının vacib şərtidir. Bütün bunları rəhbər tutan Ulu Öndərin 1993-cü ildən sonra başlatdığı yeni dövlət quruculuğu konsepsiyasında vətəndaşların sosial rifahının yüksəldilməsi, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminatın yaradılması başlıca məqsədlər elan olundu.

Mənim üçün olduqca qürurvericidir ki, bu dövrdə də Heydər Əliyevin rəhbərliyi altında çalışmışam. Həm Nazirlər Kabinetində, həm də qanun yaradıcılığı sahəsində çalışdığım illərdə bir daha Ulu Öndərin nə qədər vətənpərvər, bütün varlığı ilə dövləti və xalqını sevən şəxsiyyət olduğunu gördüm. Adi bir misal olaraq qeyd edim ki, Heydər Əliyev məcburi köçkünlərin sosial qayğılarının təmin olunmasına nə qədər həssaslıqla yanaşırdı.

## İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirdi

Mənim üçün Heydər Əliyev barədə danışmaq bir də ona görə qürurvericidir ki, 1994-cü ilin avqust ayında Ulu Öndərlə birlikdə müqəddəs Kəbəni ziyarət etmişəm. Həmin ziyarət zamanı Heydər Əliyev Azərbaycan dövləti, xalqımız üçün dualar edirdi.

Bu gün Ulu Öndərin ruhu rahatdır, çünki Azərbaycanın inkişafı üçün təməlini qoyduğu siyasəti, müəyyən etdiyi strategiya son 19 ildə uğurla reallaşıb. Ulu Öndərin ən layiqli siyasi davamçısı olan cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan tarixində görünməmiş inkişaf baş verib. Milli inkişafda varisliyi təmin edən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət həm də novatorluğu və dinamizmi ilə fərqlənir. Qeyd olunanlar özünü Prezident İlham Əliyevin dövlət idarəçiliyi xəttində də özünü göstərir. Xüsusilə qeyd etmək istərdim ki, İlham Əliyevin dövlət idarəçiliyi konsepsiyası sosial ədalət prinsipinin ön planda saxlanılmasını nəzərdə tutur. Azərbaycan dövlətinin sosial rolunun durmadan artması, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş layihələrin miqyaslarının genişlənməsi və bu qəbildən olan digər hadisələr fikrimizi təsdiq edən tutarlı dəlillərdir.

Bütün bunların nəticəsidir ki, xalqımız bütün seçkilərdə cənab İlham Əliyevə etimad göstərib. Bu etimad həm də zamanın sınaqlarından uğurla çıxan xalq-prezident münasibətlərindən irəli gələn böyük etibardır.

2020-ci ilin Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etməklə möhtərəm İlham Əliyev Heydər Əliyevin tarixi vəsiyyətini yerinə yetirdi. İşğaldan azad edilmiş torpaqlarımız indi İlham Əliyevin qətiyyətli siyasəti ilə bərpa edilir. Qarabağ və Şərqi Zəngəzurda salınan yol şəbəkəsi, elektrik enerjisi və su infrastrukturunun yaradılması, yeni yaşayış məhəllələrinin inşa edilməsi, mədəni, tarixi və dini abidələrin bərpası görülən işlərin miqyasının böyüklüyündən və əzəmətindən xəbər verir. Azərbaycan dövləti doğma yurdlarına qayıdacaq vətəndaşlarının rifahı, ən yüksək standartlar səviyyəsində yaşayışı üçün bütün addımları atır. Həm də Böyük qayıdışı dövlətimiz öz maddi imkanları ilə reallaşdırır.

Prezident İlham Əliyev Azərbaycanı elə bir səviyyəyə çatdırıb ki, indi dövlətimiz qarşısında dayanan ən ağır problemləri belə həll etməyə qadirdir. Çünki hazırda Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. İndi Azərbaycan regionda lider, dünyada söz sahibi olan dövlətdir. Heydər Əliyev yolu və İlham Əliyev qətiyyəti artıq Azərbaycanı Ulu Öndərin görmək istədiyi güclü və qalib dövlətə çevirib.

**Hadi RƏCƏBLİ,**
*siyasi elmlər doktoru, professor*

# Heydər Əliyev yolu

Əbədiyaşar şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə başlamasından bu gün 53 il ötür. 14 iyul 1969-cu ildən Azərbaycanda başlanan Heydər Əliyev siyasəti respublikamızın iqtisadi və sosial yüksəlişinə, xalqımızın elmi potensialının inkişafına yol açdı. Həmin gündən bu gün barəsində qürur hissi ilə bəhs etdiyimiz Heydər Əliyev epoxası başladı.

1969-cu ildən sonra Azərbaycanda baş verən dəyişikliklər təsdiq edir ki, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Sovet rejiminin sərt tələb və qaydalarına baxmayaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanın inkişafı naminə digər respublikaların rəhbərlərinin cəsarət etmədiyi addımların atılması bütün sahələrdə intibaha yol açdı. Məsələn, həmin dövrdə Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində iqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklərin baş verməsini, respublikamızın Rusiyadan sonra ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan birinə çevrilməsini başqa cür dəyərləndirmək mümkün deyildir. Ən mühümü də odur ki, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin sayəsində Azərbaycanda yaranan güclü iqtisadi potensial müstəqillik dövründə də ölkəmizə xidmət etdi.

Xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi ilə bağlı görülən işlər Heydər Əliyevin hələ sovet dövründə dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərinin möhtəşəm nümunələrindən biridir. O illərdə Heydər Əliyevin sayəsində xalqımızın mənəvi dəyərlərinin qorunmasına xidmət edən genişmiqyaslı tədbirlərin həyata keçirilməsi insanlarda milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi. Bu baxımdan Ulu Öndərin sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərliyini ölkəmizə milli-mənəvi yüksəliş mərhələsi kimi də xarakterizə etmək olar. Sözün bütün mənalarında həmin illərdə Azərbaycan xalqı özünə inamını bərpa etdi, manqurtlaşmaqdan, yad mədəniyyətlərin təsirindən tam xilas oldu. Xalqın milli-mənəvi və mədəni dəyərləri özümüzə qaytarıldı. Və əlbəttə ki, bütün bunların hamısı Heydər Əliyevin sayəsində mümkün oldu. O zamanlar milli düşüncə sahibi olduqlarına görə təqib edilən ziyalıları ən çətin məqamlarda müdafiə etməyi qanı, canı, bütöv ruhu ilə milli köklərə bağlı olan Heydər Əliyev şəxsiyyəti üzərinə götürə bilərdi.

Heydər Əliyev Azərbaycanın elm və təhsil potensialını da hərəkətə gətirmişdi. Ötən əsrin 70-80-ci illərində alimlərimizin elmi araşdırmalarının genişlənməsi, ittifaq miqyasında daha çox fərqlənmələri, yeni ali orta ixtisas təhsil müəssisələrinin yaradılması, idarəetmədə azərbaycanlı kadrların sayının artması məhz Ulu Öndərin xalqımızın yüksəlişi naminə həyata keçirdiyi mütərəqqi siyasətin təcəssümü idi.

Hazırda möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə intibahının yeni mərhələsini yaşayan Sumqayıtın da sovet hakimiyyəti dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin böyük qayğısı sayəsində Sumqayıtın tarixinin əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqətini və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz bir faktdır. Azərbaycana rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb.

Bütövlükdə Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olunması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi.

Tarix sübut edir ki, qüdrətli şəxsiyyətlər hər zaman xalqın güvənc yeri olaraq, onlara həvalə olunan tarixi missiyaları qətiyyətlə yerinə yetirirlər. Bu baxımdan 1993-cü ildə, müstəqilliyimizin başının üstünü təhlükələr aldığı bir vaxtda insanların Heydər Əliyevə üz tutmaları təsadüfi deyildi. Çünki Heydər Əliyevin Azərbaycana sovet dövründəki uğurlu rəhbərliyini görən xalqımız bilirdi ki, yalnız bu qüdrətli şəxsiyyət dövlətimizi təhlükədən xilas edə bilər. Həmin ağır və çətin vaxtda xalqın harayına səs verib hakimiyyət sükanının arxasına keçən Heydər Əliyev növbəti dəfə öz tarixi missiyasını həyata keçirdi. Məhz Heydər Əliyevin sayəsində Azərbaycanın müstəqilliyi xilas olundu. Ulu Öndər xalqımızın bir daha əsarət altına düşməsinə imkan vermədi. Xilaskarlıq, daha sonra isə dövlət quruculuğu missiyasını böyük uzaqgörənlik və siyasi müdrikliklə yerinə yetirən Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisinə çevrildi.

Beləliklə, ən kəskin ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Ona görə də Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq tarixdir. Hakimiyyətdə olduğu 34 il müddətində Ulu Öndər xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir.

Bu gün Heydər Əliyev öz ideyaları, xalqımızın və dövlətimizin inkişafına xidmət edən siyasi kursunun davam etdirilməsi ilə milyonların qəlbində yaşayır. Ulu Öndərin müəllifi olduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq ötən 19 ildə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirilib, respublikamız beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilib, ölkədə tarazlı və davamlı inkişaf təmin olunub.

Bütün bunlar həm də göstərir ki, Heydər Əliyev ideyalarının həyata keçirilməsi layiqincə davam etdirilir. 2020-ci ildə Vətən müharibəsində qazandığımız Qələbə isə Heydər Əliyev siyasətinin təntənəsi oldu. Bu Zəfər təsdiq etdi ki, möhtərəm Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndər Heydər Əliyevin arzuladığı bir dövlətə çevirib. Bu qələbə və bütövlükdə dövlətimizin yüksəlişi həm də göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da ən möhtəşəm nailiyyətlərə imza atacaq.

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı*

1969 **AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ:** 2022
**qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf**

# Ürəklərdə yaşayan lider

**Tanrı onu sanki bir millətin taleyini dəyişmək üçün yaratmışdı. Ən çətin məqamlarda xalqını bəlalardan, təhlükələrdən xilas etmək üçün göndərmişdi. Birinci dəfə hakimiyyətə gəlməmişdən öncə də elə idi... Azərbaycan ümidsizlik girdabına düşüb son günlərini yaşayan talesiz bir xəstəyə bənzəyirdi. İqtisadi tənəzzül, sosial vəziyyətin ağırlığı adamları yormuşdu. Bir tərəfdən də sovet repressiya maşını insanların gözünü qorxutmuşdu. Heç kim səsini çıxara bilmirdi.**

Keçmiş SSRİ-i rəhbərliyində, dövlətin ən yüksək eşalonunda vəzifə tutan ermənilər də Azərbaycanın düşdüyü bu vəziyyətdən məharətlə istifadə edərək ölkəmizi məkrli niyyətlərinin poliqonuna çevirə bilmişdilər. Ötən əsrin 60-cı illərində respublikamızda nəinki SSRİ-nin, Avropanın ən iri kimya kombinatlarının inşasına başlanmışdı. Artıq 1968-ci ilədək Bakının bir addımlığında, Sumqayıtda bir-birinin ardınca kərpic zavodu, polimer tikinti materialları kombinatı, superfosfat zavodu işə salınmışdı. Şəhər əsl kimya laboratoriyasını xatırladırdı. Hələ neçə-neçə kimya zavodunun da tikintisi planlaşdırılırdı. Özü də şəhərin ya mərkəzində, ya da mərkəzə yaxın yerlərdə. Bunun nəticəsi olaraq o zaman Sumqayıtın ekologiyası artıq fəlakət həddinə çatmışdı. Atmosferə hər il orta hesabla 96,5 min ton zəhərli maddə buraxılırdı. Sumqayıt dünyanın yeganə şəhəri idi ki, üç müəssisəsində xlor istehsal edilirdi. Küləyin sürəti saniyədə 15-20 metr, orta hesabla ilin 75 gününün küləkli keçdiyi şəhərin ekoloji vəziyyətini təsəvvür etmək o qədər də çətin deyildi. Elə bunun nəticəsi olaraq, Sumqayıt o dövrün ölü şəhəri statusu qazanmışdı. Şəhər əsl fəlakət zonasına, ölüm koordinatına çevrilmişdi. Uşaq ölümünə, qan xəstəliklərinə, şikəst doğulan körpələrin sayına görə keçmiş SSRİ-də liderlik edirdi.

Belə bir zamanda Tanrı Azərbaycanı Heydər Əliyevlə mükafatlandırdı. Xalqımızın xilaskar oğlu Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. Təsadüfi deyil ki, Ümummilli Lider hakimiyyətə gəlişinin ilk ilində Mərkəzi Komitənin Plenumunu Sumqayıtda keçirdi. Bu, çox ciddi bir mesaj idi. Qısa vaxtda Sumqayıt tikinti meydançasına çevrildi. Şəhərdə səkkiz mikrorayon salındı, məktəblər tikildi, mədəni-maarif, elm, istehsal müəssisələri inşa edildi. Yüngül sənaye və maşınqayırma sənayesinin inkişafına diqqət artırıldı. Qısa bir zaman kəsiyində o dövrdə SSRİ-nin ən iri trikotaj fabriklərindən biri hesab edilən Sumqayıt Trikotaj Fabriki tikilərək məhsul istehsalına başladı. Əhalinin həyat şəraitini yaxşılaşdırmaq, şəhərin fasiləsiz su təminatını təchiz etmək məqsədilə Samur-Abşeron su kanalı çəkildi, şəhərətrafı yaşıllıqlar salındı.

Proqmatik və uzaqgörən liderin bütün şüurlu fəaliyyəti Azərbaycanın gələcəyinə, istiqlalına yönəlmişdi. SSRİ-nin ümumi büdcəsindən Azərbaycana bacardıqca daha çox vəsait ayrılmasına çalışan respublika rəhbəri Heydər Əliyev gələcəkdə ölkənin özünü müstəqil idarə etməsi, iqtisadiyyatının asılılıqdan qurtarması üçün bütün qüvvəsini sərf edir, müstəqil iqtisadi sistemin yaranması üçün var gücü ilə çalışırdı. Uzaqgörən dahi şəxsiyyət öz şəxsi nüfuzundan ölkəmizin maraqları naminə istifadə edərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini N.Tixonovu ölkəmizə dəvət edərək neft-kimya sənayesinin yeni Avropa texnologiyası əsasında qurulmasına nail oldu. Almaniya və Çexoslovakiya istehsalı olan layihə gücü etilenə görə 300, propilenə görə 138 min ton olan EP-300 qurğusunu respublikamıza gətizdirməyə nail oldu. SSRİ dövrü üçün bu, əsl iqtisadi hadisə idi. 1970-1980-ci illər Azərbaycan öz iqtisadi potensialına görə ittifaqın iqtisadi cəhətdən ən qüdrətli respublikasına çevrildi. Qısa zamanda respublikamız ölkənin ixracat bazarının əsl təminatçısı oldu. Azərbaycanda istehsal olunan məhsul SSRİ-nin 700-dən çox şəhərinə ixrac edilirdi.

Respublikamız əsl intibah dövrünü yaşayırdı. Bütün sahələrdə inqilabi dəyişikliklər baş vermişdir desək, mübaliğə etmiş olmarıq. İnsanların yaşam həvəsi artmışdı. Adamlar əməyə yaradıcı münasibətlə yanaşırdılar. Sözün yaxşı mənasında, ölkədə bir rəqabət var idi. Azərbaycanda elmin inkişafına xüsusi diqqət, qayğı göstərilirdi. Gənclərimizin SSRİ-nin ən yaxşı ali təhsil müəssisələrində təhsil almaları üçün dövlət qayğısını bir an belə əsirgəmirdi. Azərbaycan ədəbiyyatında yeni bir mərhələ başlanmışdı. Şair və yazıçılarımızın əsərləri müxtəlif dillərə tərcümə edilərək dünyada tanıdılırdı. Azərbaycan musiqisi dünyanı fəth edirdi. Yeni bəstəkarlar nəsli yetişməkdə idi... Ölkəmizin tanınmış ədəbiyyat, elm, sənət adamlarına o dövrün ən yüksək fəxri adları, Sosialist Əməyi Qəhrəmanı adlarının verilməsi artıq bir ənənə halını almışdı.

Respublikamızda işsizliyin səviyyəsini minimuma endirmək məqsədilə yeni iş yerləri yaradılırdı. Azərbaycan aqrar bir respublikadan sənaye ölkəsinə çevrilmişdi. 1970-ci illərdə respublikamızda keçmiş



SSRİ-də ilk dəfə Yaponiyanın "Hitaşi" firmasının lisenziyası əsasında məişət kondinsionerləri zavodu fəaliyyətə başlamışdı. Zavodda ildə 500 min ədədə qədər məhsul istehsal olunurdu. Bu zavodun istehsal etdiyi məhsullar keçmiş SSRİ ilə yanaşı, dünyanın bir sıra ölkələrinə, o cümlədən Kuba, Çin, İran, Misir, Avstraliyaya da ixrac olunurdu. Keçmiş SSRİ-nin neft sənayesində istifadə olunan avadanlıqların əksəriyyəti Azərbaycan zavodlarında istehsal edilirdi. Eləcə də respublikamızın inşaat sektorunda da təkamül baş vermişdi. İnşaatçılar 1 saylı evtikmə kombinatının keçmiş ittifaqın müxtəlif şəhərlərində möhtəşəm layihələr həyata keçirirdilər.

Ulu Öndər Heydər Əliyevin bir qayəsi də olub: Azərbaycanı müstəqil görmək. Təbii ki, SSRİ kimi bir imperiyanın tərkibində fəaliyyət göstərib bunu dilə gətirmək o zaman mümkün deyildi. Bunun bədəli olduqca ağır olardı. Amma görülən işlər, uzaqgörən siyasət müstəqilliyimizə hesablanmışdı. Bununla bağlı bir faktı göstərmək kifayət edər. 19 aprel 1971-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması Ulu Öndərin həmin məqsədindən irəli gəlirdi. Bu gün ölkəmizin hərbi, müdafiə qüdrətinin artmasında, torpaqlarımızın işğaldan azad olunmasında bu məktəbin məzunu olmuş hərbçilərimizin, zabitlərimizin müstəsna xidmətləri var.

Tanrı ona böyük zəka, yüksək idarəetmə qabiliyyəti, qətiyyət, güc, qüdrət vermişdi. Dahi rəhbər bunlardan xalqımızın işıqlı gələcəyi, dövlətimizin bu günü üçün istifadə edirdi. Tükənməz enerjisini, biliyini, bacarığını Azərbaycana sərf edirdi. Fitri istedadı, bacarığı onu SSRİ kimi nəhəng bir dövlətin ən yüksək vəzifə iyerarxiyasının zirvəsinə apardı. Ulu Öndər SSRİ rəhbərliyində yüksək vəzifə tutarkən də bütün fəaliyyəti boyu Azərbaycan xalqını dünyaya tanıtdırmaqla məşğul idi. Bu xalqın oğlu olduğuna görə qürur duyurdu. Adı və əməli fəaliyyəti ilə tandem yaradırdı. Heydər Əliyev adı çəkiləndə Azərbaycan, Azərbaycan adı çəkiləndə Heydər Əliyev başa düşülürdü. Bəzən Azərbaycanı tanımayanların, harada yerləşdiyini bilməyənlərin yanında kifayət edirdi ki, Ulu Öndərin adı çəkilsin.

Ürfan fəlsəfəsinə görə, bu dünyada heç nə təsadüfi deyil. Hər bir insan dünyaya bir missiyanı yerinə yetirmək üçün gəlir. Tanrı Ümummilli Lideri də bu milləti, bu dövləti xilas etmək üçün yaratmışdı. Ən çətin məqamlarda meydana çıxıb bu ağır missiyanı yerinə yetirmək təsadüfi ola bilməz. Sözsüz ki, burada bir İlahi hikmət var... Birinci hakimiyyəti illərində Azərbaycanı iqtisadi bataqlıqdan, yoxsulluqdan, məkrli insanların məngənəsindən çıxarıb dünyaya tanıtdı. Müstəqilliyimizin ilk illərində isə qarşıdurmadan, vətəndaş müharibəsindən, vətəni parçalanmaqdan, dövləti məhv olmaqdan xilas etdi. Ömrünü xalqına həsr etmiş, örnək bir həyat yaşayıb xalqın qəlbində əbədi məskən salmış Ulu Öndər öz həyatı haqqında danışarkən "Mən həyatımda üç şeyə: Yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam" demişdir. İllər, əsrlər keçəcək, xalqının şərəfli tarixini yaradıb, adını yaddaşa yazan bu böyük İnsan həmişə ürəklərdə yaşayacaq, ehtiramla anılacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Peşəkar dövlət qulluğu Azərbaycanın etibarlı gələcəyinin bünövrəsidir

Respublikamız qısa zaman kəsiyində siyasi və iqtisadi cəhətdən güclü, millətlərarası və konfessiyalararası vəhdətin dövlət ideologiyasının əsasını təşkil etdiyi demokratik ölkəyə çevrilib. Ölkədaxili və xarici siyasət sahəsində uğurlar Azərbaycanın inkişaf vektorunun düzgün seçilməsindən xəbər verir. Dövlət başçısının iqtisadi inkişafın siyasi dəyişikliklərdən öncüllüyünə əsaslanan seçimi reallıqda da öz təsdiqini tapıb.

"Öncə iqtisadiyyat, sonra siyasət" klassik deyiminə dayanan strategiya ölkədə reallaşdırılan islahatların uğurlu yekununa yol açıb. Prezident İlham Əliyevin yürütdüyü siyasi kursun prioriteti Azərbaycan Respublikasının dünya dövlətləri arasında rəqabətədavamlı, effektiv və stabil inkişaf sahəsində layiqli yer tutması, kəmiyyət deyil, keyfiyyətə əsaslanan iqtisadi yüksəlişə nail olması və vətəndaşlar üçün yüksək həyat standartlarının təmin edilməsidir. Bu hədəfə çatmaq üçün köklü tədbirlər görülüb və ilk növbədə cəmiyyətin başlıca ideyası - intellektə əsaslanan millətin formalaşdırılması ideyasının gerçəkləşdirilmə mexanizmləri işə salınıb. Ölkədə səmərəli və optimal inzibati-dövlət idarəçiliyi modeli qurulub. Məhz Prezident İlham Əliyev ölkənin tarixi gələcəyini müəyyənləşdirən uğurlu dəyişikliklərin sistemli məntiqini, məqsədəuyğun ardıcıllığını və humanist yönümünü təmin edib.

XXI yüzillikdə heç şübhəsiz ki, gələcəyin açarı bilik və texnologiyalar, dövlətin başlıca vəzifəsi isə biliyə və texnologiyalara əsaslanan strategiyanın işlənib reallaşdırılmasıdır. Ölkə Prezidenti İlham Əliyevin böyük səmərəliliklə gerçəkləşdirdiyi dövlət idarəçilik strategiyasının təməlində də məhz elm, texnologiyalar, elmi-intellektual insan potensialının formalaşdırılması dayanır. O sistem ki, təkcə hesabat vermir, eyni zamanda inkişaf siyasəti və onun məqsədlərinə, öz fəaliyyətinin nəticələrinə görə məsuliyyət və cavabdehlik daşıyır.

Əslində, bu, həm də Azərbaycanda bütün səviyyədə dövlət strukturlarının çevik, səmərəli, peşəkar fəaliyyətinin, dövlət qulluğu sisteminin işinin düzgün qurulmasının nəticəsidir.

Bəlli olduğu kimi, dövlət qulluğu dövlət idarəçiliyi sistemində aparıcı yer tutur və onun səmərəliliyini təmin edən başlıca mexanizmdir. Bu, bütün dünyada qəbul edilən faktdır ki, istənilən dövlətin imici dövlət qulluğu sisteminin inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsindən birbaşa asılıdır. Birmənalı olaraq bu sahədə dəyişikliklər "hər bir dövlət qulluqçusunu dövlət işə götürür" təfəkkürünün formalaşdırılması və "dövlət vəzifəsini ən layiqli namizədlər tutmalıdır" prinsipinin işləməyə başlamasına əsaslanır. İstənilən zaman və məkanda dövlət qulluğu sisteminin gələcəyini müəyyən edən meyarlar bunlardır.

Bu gün Azərbaycan Respublikasının heç kimin tanımadığı postsovet ərazisindən dünyanın lider ölkələri sırasına güclü keçidinin Prezident İlham Əliyevin səriştəli idarəçiliyi sayəsində optimal və innovativ təşkili təmin olunan dövlət qulluğu sisteminin sayəsində mümkün olub. Hazırda Prezident İlham Əliyevin yeni idarəçilik paradiqması və çağırışlara uyğun, innovasiyalara açıq islahatları sayəsində ölkədə dövlət qulluğunun hüquqi tənzimlənməsi məsələləri həllini tapıb, kadr siyasətinə vahid yanaşma ortaya qoyulub, kadr resurslarının cəlbi, saxlanması və inkişafı mexanizmləri işlənib, motivasiya, fəaliyyətin qiymətləndirilməsi mexanizmləri üçün zəmin formalaşıb və etik məsələlərin populyarlaşdırılması ilə korrupsiya risklərinin minimallaşdırılmasına nail olunub. Azərbaycan digər ölkələrin təcrübəsi və yanlışları əsasında uğurlu dövlət qulluğu modeli yaratmaq şansından maksimum faydalanıb. Və nəticə etibarilə Azərbaycan siyasi, iqtisadi, sosial, humanitar sahələrdə inkişaf templərinə görə dünyada analoqu olmayan özünəməxsus bir inkişaf modeli ortaya qoyub və artıq intensiv inkişaf dövrünü yaşayır. Burada xüsusi vurğulamaq lazımdır ki, dövlət siyasətinin məqsədlərinin uğurla reallaşdırılmasında dövlət qulluğu başlıca alət kimi çıxış edir. Azərbaycanda dövlət aparatının təkmilləşdirilməsi sahəsində görülən işlərin kökündə isə düzgün kadr siyasəti dayanır. Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhələyə yol açan cənab Prezident "qara qızılı insan kapitalına çevirək" deməklə, əslində, insan resursunu bütün sahələrdə inkişafın aparıcı lokomotivi kimi müəyyənləşdirib.

Azərbaycanın yeni təfəkkürə malik həqiqi lideri və gələcəyi proqnozlaşdıran, yönləndirən əsl rəhbəri imicini ləyaqətlə daşıyan Prezident İlham Əliyev "XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil" - deməklə, əslində, çağdaş dönəmin prioritetlərini dəqiqliklə ifadə edib və günümüzdə dövlət və onun institutlarının davamlı inkişafı üçün şəraitin yaradılmasında rolunun diqqət mərkəzində tutulduğunu bir daha təsdiqləyib. Bu reallıq ictimai-siyasi həyatın fərqli sahələrindəki dinamiklik, beynəlxalq arenada qüvvələr balansındakı əhəmiyyətli dəyişikliklər, çağdaş dövlətlərin üzləşdiyi yeni çağırış və təhdidlərin çoxluğu, inkişafın ssenarili proqnozlaşdırılmasının reallığı və aşağı səmərəliliyi ilə bağlıdır. Bu arada davamlı inkişafın təmininin trend olmasına baxmayaraq, indiyədək dövlətin sözügedən prosesdə bilavasitə rolu ilə bağlı məsələlər hələ də açıq qalmaqdadır. Bu gün peşəkar hökumətin yaradılması Azərbaycan Respublikasında dövlət qulluğu islahatlarının prioritet istiqamətlərindəndir.

İslahatların gerçəkləşdirilməsi yeni nəsil dövlət qulluqçularının formalaşdırılmasına, cəmiyyətdə kök salmış stereotiplərin aradan qaldırılmasına və dövlət qulluğunun müsbət imicinin təsdiqlənməsinə, həmçinin dövlət və vətəndaşlar arasında qarşılıqlı əlaqənin yeni formalarının kultivasiyasına yönəlik kompleks transformasiyanı nəzərdə tutur. Bu sırada texniki tərəqqi də mühüm rol oynayır. O, dövlət sektorunun idarə edilməsi sahəsində yeni yanaşma, mexanizm və prinsiplərin tətbiqi üçün güclü stimuldur.

Azərbaycan Respublikasında ictimai-siyasi və sosial-iqtisadi sahələrdə qeydə alınan dəyişikliklər əhalinin tələbatlarının ödənilməsi və keyfiyyətli dövlət xidmətlərinin təklif olunmasına yönəlik yeni dövlət idarəçiliyi sisteminin formalaşması ilə bağlıdır. Bu, dövlət idarəçiliyi metodologiyası və təcrübəsinə dəyişikliklərin edilməsi, bütövlükdə davamlı və kompleks inkişafın reallaşdırılması məqsədilə yeni vasitə və metodların axtarışını tələb edir. Dövlət qulluğu islahatları ictimai sektorda aparılan yeniliklərin tərkib hissəsidir. Birmənalı olaraq ictimai sektorun inkişafı proqramları arasında dövlət qulluğu institutunun sistemli və struktur dəyişiklikləri xüsusi yerə malikdir. Belə ki, dövlət qulluqçuları islahatların təkcə obyekti deyil, həm də subyektləridir. Dövlət aparatı ictimai sektordakı bütün islahatlardan məsuldur və onun fəal iştirakı olmadan heç bir islahat reallaşdırıla bilməz. Ümumiyyətlə, dövlət qulluğu institutu dövlət idarəçiliyi sisteminin səmərəliliyinin fundamental elementidir.

Dövlət qulluğu sisteminin önləyici inkişafı xarici ölkələrin müsbət örnəyinin ümumiləşdirilməsi və nəzərə alınmasına, cəmiyyətin müxtəlif təbəqələrinin, ekspert və dövlət qulluqçularının mövqeyinin göz önündə tutulmasına əsaslanıb. Nəticə etibarilə sabaha yönəlik iş quran dövlət qulluğu sisteminin formalaşması digər sahələrdə islahatları səmərəli reallaşdıra biləcək səriştəli kadrların yetişməsini təmin etməyə imkan verib. Etiraf etmək lazımdır ki, bu sistemə də biznes əsasları, biznes menecment sistemi nüfuz etməyə başlayıb. Və əgər biz əvvəllər yaxşı dövlət qulluqçusu deyə bütün göstəriş, təlimatları gerçəkləşdirən, zəruri zaman kəsiyində işdə olub zəruri miqdarda sənədi gözdən keçirənləri nəzərdə tuturduqsa, indi cəmiyyət və vətəndaşların dövlət qulluqçularından tələbləri daha fərqlidir. Biz artıq ictimai əhəmiyyətli layihələrin, vəzifələrin yerinə yetirilməsi ilə maraqlanırıq. Bu isə dövlət qulluqçusu obrazının əsrlik şablonundan uzaqlaşmaq kimi psixoloji dəyişiklikdir. Dövlət qulluqçusu günümüzdə yalnız təlimatlara uyğun davranan darıxdırıcı və boz insan imicindən, bir qayda olaraq, mənfi çalarları qabardılan "məmur" etiketindən qurtula bilib.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident postunda fəaliyyətinin nəticəsi olaraq ölkəmizdə dövlət qulluğu təkcə hüquqi və təşkilati deyil, həm də publik və sosial institut imici qazana bilib. Bu gün dövlət aparatı qarşısında daha səmərəli, mobil və vətəndaşlara yönəlik, daim təkmilləşən instituta çevrilmək kimi bir çağırış var. Bu institutun başlıca kapitalı insanlardır. Peşəkar insanların uzunmüddətli karyeralarını dövlət aparatı ilə bağlamaları üçün dövlət qulluğu həm "daxildən", həm də "xaricdən" cəlbedici iş yerinə çevrilməlidir. Bunun üçün dövlət qulluğunda yeni yanaşmaların tətbiqi zəruri tələb kimi qarşıya qoyulub. Öncə dövlət qulluğunun cəlbedici işgötürən kimi formalaşması üçün tədbirlər gerçəkləşdirilib, dövlət qulluqçularının sosial təminatları ilə bağlı bir çox məsələlər həllini tapıb. Dövlət qulluğunun cəlbediciliyinin yüksəldilməsi məqsədilə dövlət aparatının təşkilati mədəniyyəti daha çevik, prosesə deyil, nəticəyə yönəlik və innovativ yanaşmalara açıq duruma gətirilib. Eyni zamanda yeni çağırışlar fonunda dövlət qulluqçularının potensialı və bacarıqlarının inkişafı, həmçinin dövlət qulluğunda insan resurslarının idarə edilməsinə yönəlik texnologiyaların tətbiqinə başlanılıb, meritokratiya prinsiplərinin gücləndirilməsi prioritet kimi önə çəkilib.

Burada yeni iş yerlərinin açılması ilə yanaşı, insan resurslarının şəxsi keyfiyyətlərinin və qabiliyyətlərin inkişaf etdirilməsinə xüsusi önəm verilməsi, ölkədə yaradılan müasir idarəetmə modelinin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqlarının dayanması, şəffaf, demokratik, səmərəli və innovativ idarəetmə çərçivəsində dövlət qulluğunun "xalqa xidmət" konsepsiyasında həyata keçirilməsi, vətəndaşla dövlət qulluqçusu, məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzinə keçidə nail olunması, dövlət qulluqçularının fəaliyyət üslubunun dəyişməsi, vətəndaş məmnunluğunun əsas qiymətləndirmə meyarına çevrilməsi də görülən işlərin məntiqi yekunudur. Yaxın perspektivdə cəmiyyətin potensialından dövlət qərarlarının hazırlanması prosesində istifadə, kraudsorsinq texnologiyalarının tətbiqinin dəstəklənməsi, müstəqil qurumların dövlət orqanlarında kadr prosedurlarının həyata keçirilməsi prosesinə cəlbi (autsorsinq) təcrübəsinin genişləndirilməsi, dövlət orqanlarında keyfiyyətin idarə edilməsi sistemlərinin tətbiqi, nəticəyə görə idarəetmə sisteminin inkişafı, dövlət orqanlarının proqram sənədlərində kəmiyyət qiymətləndirilməsinə əsaslanan beynəlxalq göstəricilərdən istifadə və sair dövlət qulluğu sisteminin inkişafına rəvac verəcəkdir.

Dövlət qulluğunun cəmiyyətdə üst quruluş deyil, başlıca məqsədinin ölkənin davamlı inkişafı və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi olan institut kimi qəbul edilməsi və real fəaliyyət göstərməsi prioritet hədəfdir. Bu, qanunvericiliyin təkmilləşdirilməsi ilə yanaşı, kadr hazırlığı sistemində və siyasətində də dəyişikliklər zərurətini ortaya çıxarıb.

Çağdaş, peşəkar və müstəqil dövlət aparatının formalaşması və daim təkmilləşdirilməsi Azərbaycanın gələcək stabil, davamlı inkişafının həlledici faktorlarındandır, həmçinin qlobal çağırışlara cavabıdır. Bu sahədə islahatların uğuruna strateji məqsəd və taktiki vəzifələrin dəqiq formalaşdırılması, ölkə rəhbərliyinin siyasi iradəsi, qərarlılığı və tələbkarlığının olması yol açıb. Beləliklə də, dövlət qulluğu institutunun təkmilləşdirilməsi ölkənin hərtərəfli inkişaf dinamikasının yüksəlməsini şərtləndirib. Çünki onun səmərəli və innovativ fəaliyyəti dövlət siyasətinin strateji məqsədlərinin yerinə yetirilməsini hədəfləyən dövlət idarəçiliyi sisteminin davamlı inkişafına zəmin yaratmış olub. Bu üzdən dövlət qulluğunun və dövlət məmurunun cəmiyyətdə rolu da olduqca önəmlidir.

Tarixən liderlər öz düşüncələrinin miqyasından irəli gələn fəaliyyəti reallaşdırırlar. Prezident İlham Əliyev "əsrlər və qitələr"lə düşünən bir liderdir. Dövlət başçısının Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafı üçün müəyyənləşdirdiyi Milli Prioritetlər, qarşıya qoyduğu strateji hədəflər və bu istiqamətdə fəaliyyət birmənalı olaraq dövlət qulluqçularının peşəkar hazırlığının yeni səviyyəyə keçidini və yeni strateji idarəetmə çərçivəsinin qurulmasını zəruri edir. Bu isə öz növbəsində Azərbaycanın gələcək inkişaf istiqamətlərinin reallaşdırılması üçün zəmin olacaqdır.

*Ziyafət HƏBİBOVA,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının şöbə müdiri,*
*siyasi elmlər doktoru, professor*

# Vətən müharibəsinin daha 68 iştirakçısı polis orqanlarında xidmətə qəbul olunub



İyulun 13-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sıra baxışında kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 234 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlardan da 68 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Nazir V.Eyvazov daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərilərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfə vermələrini tövsiyə edib.

# Azərbaycan-Özbəkistan elmi əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademiyanın Humanitar Elmlər Bölməsinin "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Özbəkistan səfəri və elmi əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsi" mövzusunda elmi sessiyası keçirilib.



Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan səfəri və humanitar elmlər sahəsində əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsi" adlı geniş məruzə ilə çıxış edərək bildirib ki, hər il akademiyanın müxtəlif institutlarında Azərbaycan-Özbəkistan münasibətlərinə aid konfranslar keçirilir, kitablar çap edilir. Lakin bu görüş tamamilə fərqlidir.

Prezident İlham Əliyevin 2022-ci ilin iyun ayında Özbəkistana dövlət səfərinin, orada keçirilən görüşlərin və imzalanan sənədlərin Azərbaycan və Özbəkistan əlaqələrini tamamilə yeni tarixi mərhələ səviyyəsinə qaldırdığını söyləyən İsa Həbibbəyli vurğulayıb ki, min illərlə tarixi olan Azərbaycan-Özbəkistan çoxcəhətli əlaqələri Prezident İlham Əliyevin bu ölkəyə səfəri zamanı əldə olunan razılaşmalarla bundan sonra yeni istiqamətdə daha da inkişaf edəcək. Onun fikrincə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycan Prezidentinin dövlət səfəri zamanı göstərdiyi yüksək qonaqpərvərlik, Ulu Öndər Heydər Əliyevin adına parkın, küçənin, baralyefin açılması müasir Özbəkistan dövlətinin Azərbaycan Prezidentinə, xalqına hörmət və ehtiramının bariz nümunəsidir: "Eyni zamanda Bakıda Əlişir Nəvainin, Daşkənddə Nizami Gəncəvinin heykəllərinin olması, hər il tədbirlərin keçirilməsi bu qardaşlığın tarixi təməllər üzərində yeni mərhələyə çatdığını göstərir".

Akademik İsa Həbibbəylinin sözlərinə görə, bu istiqamətlərin içərisində elm də özünəməxsus yer tutur. Çünki Prezident İlham Əliyevin səfəri çərçivəsində Azərbaycan-Özbəkistan Elmlər akademiyaları arasında imzalanan müqavilə elmi əlaqələrin daha da intensiv şəkildə inkişaf etdirilməsinə böyük stimul verəcək. Həmin müqavilə müstəqillik dövründə bu istiqamətdə imzalanan ilk sənəddir.

AMEA-nın vitse-prezidenti həmçinin prezidentlərin Xivədə keçirlən görüşünün xüsusi tarixi əhəmiyyətə mailk olduğunu deyərək qeyd edib ki, Özbəkistan Prezidenti dövlətimizin başçısı İlham Əliyevə Azərbaycan şairi Məhəmməd Füzulinin əlyazmasını hədiyyə edib: "Azərbaycanın əlyazmalar fondunda da Əlişir Nəvainin qiymətli əlyazmaları var. Hesab edirəm ki, cənab Prezidentin Özbəkistan səfərindən sonra qarşıda duran əsas məsələlərdən biri də Əlişir Nəvainin Azərbaycan kataloqunu hazırlamaq, Bakıda saxlanılan əlyazmalarını çap etmək qardaşlıq borcumuzun ifadəsidir. Özbəkistan-Azərbaycan əlaqələri ölkəmiz üçün strateji bir səviyyəyə gəlib çatmışdır. Bizim də borcumuz prezidentlərimizin atdığı addımlardan nümunə götürərək bu sahəni daha da inkişaf etdirməkdir".

İsa Həbibbəyli xatırlatma edərək Ədəbiyyat İnstitutunda Əlişir Nəvai Mərkəzinin fəaliyyət göstərdiyini, indi qarşıda duran əsas məsələnin Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı, Əlişir Nəvai və türk dünyası məsələlərinin təzədən, daha sistemli şəkildə öyrənmək olduğunu vuğulayıb.

İsa Həbibbəyli eyni zamanda deyib ki, xalqımız müstəqilliyin ən çətin illərində Özbəkistan dövlətinin öz ərazisində Ermənistanın səfirliyinin açılmasına razılıq vermədiyini unutmur. Elə günü bu gün də Daşkənddə Ermənistanın səfirliyi yoxdur. Bu, Özbəkistan dövlətinin Azərbaycana münasibətini çox aydın ifadə edir: Bu gün isə prezidentlərimizin atdığı addımlar, ortaya qoyduğu mövqe dostluğumuzu ən yüksək səviyyəyə çatdırdı.

Sonra Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov çıxış edərək Prezident İlham Əliyevin Özbəkistana səfəri və elmi əlaqələrin inkişaf etdirilməsinin yeni mərhələsinə aid elmi sessiya təşkil edilməsi üçün təşəkkürlərini çatdırıb. Vurğulayıb ki, Özbəkistan və Azərbaycan münasibətlərində tarixi hadisə baş verib. İyunun 21-22-də reallaşan bu dövlət səfəri ilə iki dövlət arasında müxtəlif sahələri əhatə edən iyirmiyə yaxın sənəd imzalanıb. Bunların hamısı mühümdür. Mədəniyyət və elm sahəsində olanları xüsusi vurğulamalıyıq.

Səfir Bahrom Aşrafxanov eyni zamanda bu günə qədər səfirliklə Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən tədbirləri xatırladaraq, bundan sonrakı əməkdaşlığın daha intensiv olacağını vurğulayıb.

Elmi sessiyada Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli "Azərbaycanda Özbək ədəbiyyatı əlyazmalarının tədqiqi və nəşri: dünəni, bu günü və sabahı", Memarlıq və İncəsənət İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "Azərbaycan və Özbəkistan qarşılıqlı bədii əlaqələri: ənənələr və perspektivlər", Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli "Azərbaycanda özbək dilinə həsr olunmuş tədqiqatlar və gələcək perspektivlər" və Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi "Azərbaycan nəvaişünaslığı: nailiyyətlər və vəzifələr" mövzusunda məruzələrlə çıxış ediblər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mexanikləşdirilmiş bölmələrdə praktiki çalışmalar icra edilib

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq, mexanikləşdirilmiş bölmələrin heyətləri ilə sürücülük və atəş hazırlığı üzrə praktiki çalışmalar yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, çalışmaların icrası zamanı sürücü-mexaniklər döyüş texnikasını idarəetmə bacarıqlarını, tuşlayıcı operatorlar isə müxtəlif silahlardan atəşaçma qabiliyyətlərini təkmilləşdiriblər.

Mexanikləşdirilmiş bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsi məqsədilə keçirilən praktiki çalışmalarda qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Xocavənd rayonu ərazisində bir sıra yeni hərbi obyektlər istifadəyə verilib













Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordu quruculuğu üzrə şəxsi heyətin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də sağlamlıqlarının qorunması istiqamətində inamlı islahatlar həyata keçirilir, ordunun maddi-texniki təminatı daha da gücləndirilir, müasir standartlara cavab verən hərbi infrastruktur qurulur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Xocavənd rayonu ərazisində yeni istifadəyə verilmiş hərbi hospitalın açılışında olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, məruzəyə əsasən 250 çarpayılıq hərbi hospitalın 4 hektara yaxın ərazini əhatə etdiyi bildirilib. Qeyd olunub ki, burada qərargah, birmərtəbəli patoloji anatomiya, daimi oksigen təminatı üçün oksigen və transformator binaları tikilib, eləcə də su, ərzaq və əşya anbarları, əsgər yeməkxanası, hamam-camaşırxana-qazanxana kompleksi, avtopark, nəzarət buraxılış məntəqəsi inşa edilib. Ərazidə yaşıllaşdırma işləri aparılıb, abadlıq işləri görülüb, asfalt örtüyü salınıb.

Hərbi hospitalda üçmərtəbəli müalicə-diaqnostika korpusunun da inşa edildiyi diqqətə çatdırılıb. Korpusda qan bankı, laboratoriyalar, müalicə palataları, əməliyyat otaqları, altı nəfərlik reanimasiya palatası, cərrahiyyə və əməliyyat blokları, tibbi ləvazimatlar anbarı, qəbul bölməsi, xəstələr üçün qida qəbulu zalları, aptek, stomatologiya, oftalmologiya, yuma-dezinfeksiya, LOR, terapiya, rentgen və kompüter tomoqrafiyası, endoskopiya, dermatologiya bölmə və kabinetləri yaradılıb.

Bildirilib ki, dünyanın inkişaf etmiş ölkələrində istehsal edilən, müasir avadanlıqlarla təchiz olunmuş palatalarda hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, eləcə də onların müalicəsi üçün hər cür şərait mövcuddur.

Hospital bioloji təmizləmə qurğusu, cərrahiyyə əməliyyatlarının fasiləsiz təminatı üçün UPS sistemi, ehtiyat generator qurğusu, su, istilik və digər kommunikasiya sistemləri ilə təmin olunub. Həmçinin təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə təxliyə üçün hospitalın ərazisində helikopter meydançası salınıb.

Hərbi hospitalda yaradılan şəraitlə tanış olduqdan sonra müdafiə naziri burada müalicə alan hərbi qulluqçular və tibbi heyətlə görüşərək onları müqəddəs Qurban bayramı münasibətilə təbrik edib. Hospitalın şəxsi heyəti üçün qurbanlıqlar kəsilib və bayram sovqatları təqdim olunub.

Daha sonra general-polkovnik Z.Həsənov hərbi hospitalın ərazisində tibbi heyət və onların ailə üzvləri üçün hazırlanmış yaşayış binalarının açılış mərasimində iştirak edib.

Müdafiə nazirinə məruzə olunub ki, yeni istifadəyə verilmiş, hər biri 2 və 3 otaqlı mənzillərdən ibarət ikimərtəbəli binalar kommunikasiya xətləri və mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilib. Müasir standartlara cavab verən tam təmirli mənzillərdə mebel və lazımi avadanlıqlar quraşdırılıb. Ərazidə yarımstansiya, su anbarı tikilib, binaların ətrafına asfalt döşənib. Hasara alınmış yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Sonda müdafiə naziri şəxsi heyətin məişət şəraitinin daha da yaxşılaşdırılması, sağlamlığının qorunması və tibb xidmətinin daha səmərəli təşkil olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

❖❖❖

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam edir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin digər rəhbər heyəti və Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov Qurban bayramı günündə Xocavənd rayonu ərazisində yeni istifadəyə verilmiş hərbi hissənin açılışını edib.

Müdafiə Nazirliyindən bildirilib ki, döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, eləcə də şəxsi heyətin məişət şəraitinin təmin edilməsi məqsədilə inşa edilmiş hərbi şəhərcik ərazisindəki qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanası, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektlərinə baxış keçirilib.

Müdafiə nazirinə məruzə edilib ki, bütün xidməti otaqlar kondisionerlər, mebellər, müasir tipli sanitar qovşaqları, yataq ləvazimatları, mətbəx avadanlıqları və generatorlarla təchiz olunub.

Hərbi hissəyə baxış keçirildikdən sonra müdafiə naziri şəxsi heyətin xidməti və məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq tapşırıqlar verib.

Sonra Qurban bayramı münasibətilə şəxsi heyət üçün konsert proqramı təşkil edilib. Şəxsi heyət qarşısında çıxış edən general-polkovnik Z.Həsənov Ali Baş Komandanın Kəlbəcərdə yeni komando hərbi hissəsinin açılışı zamanı Azərbaycan Ordusuna bir daha yüksək qiymət verdiyini diqqətə çatdırıb. Ölkə rəhbərliyi tərəfindən göstərilən etimadın doğruldulması üçün bütün vəzifələrin layiqincə yerinə yetirilməsinin vacibliyini qeyd edən nazir şəxsi heyəti yeni hərbi hissənin istifadəyə verilməsi və Qurban bayramı münasibətilə təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Hər il olduğu kimi, bu il də şəxsi heyət üçün qurbanlıqlar kəsilib.

Sonda müdafiə naziri general-polkovnik Z.Həsənov Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı E.Hüseynovla birgə hərbi hissənin ərazisində ordu və xalq birliyinin göstəricisi kimi həmişəyaşıl uzunömürlü ağaclar əkiblər.

❖❖❖

Xocavənd rayonunda səfərdə olan müdafiə naziri general-polkovnik Zakir Həsənov burada yeni istifadəyə verilən qərargah binasının açılışında iştirak edib.

Müdafiə Nazirliyindən bildirilib ki, nazirə döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün yeni qərargahda müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzinin, rabitə qovşağı və digər xidməti otaqların mövcud olduğu məruzə edilib.

Xidməti fəaliyyətin təşkili üçün binada bütün otaqların zəruri mebel və avadanlıqlarla tam təchiz olunması barədə nazirə ətraflı məlumat verilib.

Sonra müdafiə naziri hərbi qulluqçular üçün yeni istifadəyə verilmiş ikimərtəbəli yaşayış binasına baxış keçirib. Yeni bina ilə tanışlıq zamanı məlumat verilib ki, burada bütün mənzillər tam təmir olunub və zəruri kommunikasiya xətləri ilə təchiz edilib. Hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.

Görülən işləri müsbət qiymətləndirən nazir hərbçilərin xidməti və məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aidiyyəti şəxslərə tapşırıqlar verib.

Daha sonra general-polkovnik Z.Həsənov yeni istifadəyə verilən qərargah binasında komandir heyəti və qərargah zabitlərinin iştirakı ilə müşavirə keçirib.

Şəxsi həyəti müqəddəs Qurban bayramı münasibətilə təbrik edən müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Müşavirədə Azərbaycan-Ermənistan dövlət sərhədindəki və Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti geniş təhlil edilib. Müdafiə naziri bölmələrin maddi-texniki və döyüş təminatının gücləndirilməsi, hərbi qulluqçuların xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin şəxsi heyətin sayıqlılığının artırılması barədə konkret tapşırıqlar verib.

Kiber Təhlükəsizlik Əməliyyatları Mərkəzindən söz açaraq, müasir dövrdə istər müharibə, istərsə də sülh şəraitində informasiya-kommunikasiya texnologiyaları sahəsində təhlükəsizlik tədbirlərinin görülməsinin xüsusi önəm daşıdığını vurğulayan müdafiə naziri kibertəhlükəsizliyin təmin edilməsində Azərbaycan Ordusunun inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrindən faydalandığını bildirib.

Sonra yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinin fəaliyyətinə dair məruzələr dinlənilib və komandoların döyüş hazırlığına xüsusi diqqət yetirilməsi barədə müvafiq göstərişlər verilib.

Müdafiə naziri döyüş və mənəvi-psixoloji hazırlığın, həmçinin nizam-intizamın daha da artırılması, hərbi təyinatlı obyektlərin mühafizəsinin gücləndirilməsi, şəxsi heyətin qayğısına və sağlamlığına xüsusi diqqət yetirilməsi, eləcə də təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarətin gücləndirilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə qoşun xidmətinin təşkili, həmçinin xidməti-döyüş və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə yeni hərbi infrastrukturun yaradılması istiqamətində görülən işlərlə bağlı göstərişlər verib.

Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin və sağlamlığını itirən döyüşçülərimizin ailələrinin hər zaman olduğu kimi, Qurban bayramı ərəfəsində də diqqət mərkəzində saxlanılması ilə bağlı müdafiə naziri müvafiq vəzifəli şəxslər qarşısında tapşırıq qoyub.

Sonda hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

***AZƏRTAC***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2022-ci ilin iyul ayı üzrə regionlarda vətəndaş qəbulu qrafikinə uyğun olaraq, Gənclər və idman naziri Fərid Qayıbov iyulun 9-da Beyləqan, Füzuli və Xocavənd rayonlarının sakinlərini qəbul edib.

Gənclər və İdman Nazirliyindən bildiriblər ki, qəbuldan əvvəl Beyləqan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib.

Beyləqan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda nazir Fərid Qayıbov vətəndaşları diqqətlə dinləyib, müraciətlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

Qəbulda nazir müavinləri Mariana Vasileva, İndira Hacıyeva və nazirliyin digər məsul əməkdaşları iştirak ediblər.

❖ ❖ ❖

"Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev iyulun 13-də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin qəbul qrafikinə uyğun olaraq Şirvan Şəhər Gənclər Evində Şirvan, Hacıqabul və Salyan rayon sakinləri ilə görüşüb.

İB-dən bildirilib ki, Salyan Regional Qaz İstismarı İdarəsinin rəhbərliyinin də iştirak etdiyi qəbulda Ruslan Əliyev 16 sakinin müraciətini dinləyib, şikayətinə baxıb. Qəbul zamanı qaz xəttinin yerinin dəyişdirilməsi, qaz sayğacının quraşdırılması, yaşayış məntəqəsinin, eləcə də fərdi mənzillərin qazlaşdırılması və sair bu kimi müraciətlər olunub. Qəbulda qaldırılan məsələlərin çoxunun icrasına elə yerindəcə göstəriş verən baş direktor digər məsələlərin araşdırılması və lazımi köməkliyin göstərilməsi üçün birlik əməkdaşlarına tapşırıqlarını verib.

Qeyd edək ki, birliyin səlahiyyətinə aid olmayan digər məsələlər isə aidiyyəti üzrə orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli iyulun 13-də Gəncə Şəhər Heydər Əliyev Mərkəzində Gəncə, Samux və Kəlbəcərdən olan vətəndaşları qəbul edib.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin hörmət və ehtiram bildirilib.

Qəbulda vətəndaşların müraciətləri dinlənilib, ərizə və şikayətlərinə baxılıb. Qeyd edək ki, vətəndaşların müraciətləri əsasən agentliyin səlahiyyət dairəsinə aid məsələlərlə (qida məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləmə, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsi və s.) əlaqədar olub. Müraciətlərin bir qismi yerində həll olunub, bəzi məsələlər araşdırılması üçün nəzarətə götürülüb.

***AZƏRTAC***

**Narkomaniyaya yox deyək!**

# "Ağ ölüm" millətin sağlam həyat tərzi üçün çox təhlükəlidir

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində mühüm tədbirlər həyata keçirilir. İctimaiyyəti ciddi narahat edən narkomaniyaya qarşı Bakıda, eləcə də respublikamızın digər şəhər və rayonlarında maarifləndirici işlər aparılır. Narkotik maddələri gizli yolla əldə edib satanlara və ondan istifadə edənlərə qarşı hüquq-mühafizə orqanları tərəfindən mübarizə gücləndirilir.



Əməkdaşımız narkotikdən qorunmaq mümkündürmü, bunu hamı bilirmi kimi suallarla bu sahədə çoxillik təcrübəyə malik həkim-psixoloq Fidan Feyzullayevaya müraciət etmişdir. O demişdir:

- Psixoloqların, bir çox valideynlərin üzləşdiyi ən ağrılı problemlərdən biri narkomaniyadır. Bəzən valideynlər övladlarının gizli aludə olduğu bu bəladan xəbərsiz halda uşağının davranışında, əməllərində xoşagəlməz hallar barədə psixoloq kimi mənə də müraciət edirlər. Həkim, bəlkə başı pozulub, bəlkə qorxub, yıxılıb, bəzən günün müəyyən vaxtı özündən çıxır, həddindən artıq əsəbi gərginlik keçirir, özü də yaxşı oxuyan şagird olub, indi də tələbədir, son vaxtlar dərslərində də geriləmə hiss olunur və digər suallarla narahatlıqlarını bildirirlər. Müəyyən müayinələrdən və analizlərdən sonra valideynə deyəndə ki, oğlun, ya qızın narkotik maddə aludəçisidir, az qalır ürəyi getsin... Biz isə o kateqoriyadan olan "xəstələri" xüsusi ixtisaslaşdırılmış müəssisələrə müalicəyə yönləndiririk.

Televiziyada bəlkə də hər gün görürük, rəsmi mənbələrdən eşidirik ki, nə qədər belə maddə satanlar, narkokuryerlər saxlanılır. "Ağ ölüm" kimi tanınan bu bəşəri bəlaya düçar olanların sayı təəssüf ki, ildən-ilə artmaqdadır. Narkomaniya dinindən, dilindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə təhlükəlidir. Hazırda Yer kürəsinin 250 milyondan çox sakini planetimizin ən qlobal problemlərindən birinə çevrilən "ağ ölüm"ün əsirinə çevrilib. Bu statistikanın 47 milyon nəfəri Latın Amerikası ölkələrinin payına düşür. Təkcə Meksikada narkomaniyanın bəlasına düçar olmuş insanların sayı 1 milyon 200 min nəfəri ötmüşdür. Avropa Birliyi ölkələrinə gəldikdə isə orada da 750 minə yaxın insan narkotik maddə istifadəçisidir. MDB və Asiya ölkələrində isə bu göstərici 26 milyondan çoxdur. Yeri gəlmişkən, ekspertlərin fikrincə, bu rəqəm tam real gerçəkliyi əks etdirmir. Çünki narkomanların heç də hamısı qeydiyyata düşmür.

Görünən odur ki, narkomanlıq insanı ruhi cəhətlə yanaşı, fiziki cəhətdən də şikəst edir. Tibbi araşdırmalara görə, narkotik maddələr ilk növbədə orqanizmin immunitet səviyyəsini aşağı salaraq ürək-damar sisteminin, qaraciyər və böyrək kimi daxili orqanların ciddi zədələnməsinə yol açır. Əsəbi gərginlik və pozğunluq yaradır. Sonda ölüm halları baş verir. Erkən vaxtdan narkotik qəbul edən şəxslərin ömrü təxminən 35-40 yaş arası olur.

Narkotik maddə qəbuluna aludəçiliyin əsas səbəbləri bu maddələrə olan maraq, aşırı stres, kənar təzyiqlər və digər psixi asılılıqlardır. Müşahidələrdən o da məlum olur ki, narkotik maddələrdən istifadə edən gənclərin valideynləri əksər hallarda lazımi qədər sevgi, diqqət, qayğı, nəzarət və ailədaxili qaydaları olmayan ana-atalardır. Bəzi ailələrin isə basqın xarakterli, avtoritar olduğu üzə çıxır. Boşanmış, ayrı yaşayan, valideynlərdən birinin itirildiyi ailədən olan uşaqlar arasında bu cür maddələrin istifadəsi daha çox yayılmışdır. Ana-atanın düzgün nümunə və model olmaması da bu sahədə özünü biruzə verir. Problemlər qarşısında aciz qalan, yeni üsul və yollar axtarmayan, bu cür maddələr haqda yaxşı fikirdə olan ailələrin uşaqları risk qrupuna daxildirlər.

Ailə daxilində yeniyetmənin problemlərini bölüşə biləcəyi insanın olmaması da problemi gərginləşdirir.

Neçə illik təcrübədə görmüşəm ki, həddindən artıq qoruyuculuq və nəzarətin olduğu ailənin uşaqlarında da narkotik maddəyə meyillilik yaranır. Övladlarına qulaq asmayan, onları başa düşməyən, öz dəyərlərini davamlı olaraq təlqin edən, uşağın şəxsi xarakterinin formalaşmasına imkan verməyən valideynlər gələcəkdə uşaqları ilə bu və digər formada problemlər yaşayırlar.

Spirtli içki və narkotik maddə istifadəsi kişilərdə qadınlara nisbətən daha çox təsadüf edilir. Bəzən bunu davranış pozuntuları, qorxusuzluq, digər insanlarla hesablaşmamaq kimi qələmə verirlər. Psixoaktiv maddələrdən asılılığı olan insanlardan danışarkən "yetkinləşməyən", "nəfsinin qurbanı olan", "özünə inamı olmayan və özünü olduğu kimi qəbul edə bilməyənlər", "üsyankar", "insanlarla münasibət qurmaqda çətinlik çəkən" və digər ifadələr işlədilir. Psixoanalizə görə, psixoaktiv maddələrdən istifadə bu cür maddələrin beyinə təsiri nəticəsində istədiyi vaxtda həzz almaq, bunun nəticəsində yetkinliyin məsuliyyət və çətinliklərindən qaçmaq istəyən şəxslər üçün "ən yaxşı yol və hədiyyədir".

Statistik məlumatlara görə, bir sıra dünya ölkələri ilə müqayisədə Azərbaycanda narkotizm o qədər geniş yayılmasa da, amma fakt faktlığında qalır ki, dövlətin, ictimaiyyətin və hüquq-mühafizə orqanlarının ciddi mübarizəsinə baxmayaraq, respublikamızda da istifadəçilərin sayı və coğrafiyası artmaqdadır.

Ölkəmizdə narkomaniya ilə mübarizə məqsədilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılıb, bu mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilib. Azərbaycan Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib. Sərəncamın tələb və tövsiyələri baxımından narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirilir. İstər ali təhsil müəssisələrində, istərsə də orta məktəblərdə "Narkomaniyaya yox deyək!", "Narkomaniya və digər zərərli vərdişlərə qarşı birgə mübarizə aparaq!" devizi ilə yığıncaqlar, görüşlər təşkil olunur. Tədbirlərdə narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizənin bu gün xüsusilə aktual xarakter daşıdığı, aparılan tədbirlərin hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olduğu diqqətə çatdırılır. Eyni zamanda narkotik asılılığın aradan qaldırılmasının çətin olmasına baxmayaraq, bunun mümkün olduğu və narkotiklərdən istifadə edənlərin erkən müraciəti müalicənin əksər hallarda uğurlu olması ilə müşahidə edildiyi xüsusi vurğulanır.

Narkotik asılılığı aradan qaldırmaq çətin olsa da, bu mümkündür. Fikrimcə, heç bir şagirdə şpris, maddə adı, deformasiyaya uğramış sümük, bədən göstərməyin faydası yoxdur. Biz gəncin daxili-xarici resurslarını aktivləşdirməliyik, onda idmana, istəyində olduğu məşğuliyyətə, kitaba, mütaliəyə meyillilik yaratmalıyıq. Birmənalı olaraq başa düşülməlidir ki, narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükəlidir. Narkomaniya ilə əvvəl psixoloji, sonra isə sosial və tibbi mübarizə aparılmalıdır. Doğrudur, bəzən dərmanlar qəbul etməyi, yaxud qanda narkotiklərin yuyulması prosesini həyata keçirməyi müalicə hesab edirlər. Lakin bu, müalicə deyil. Bu, narkotiklə zəhərlənmədən xilasdır, yaxşı halda xəstə zəhərlənmədən xilas olur, amma narkotikdən asılılıq qalır. Həmin asılılıqdan xilas olmaq üçün çoxşaxəli müalicə alqoritmi qurulmalıdır, çünki bu zaman mütləq depressiya əleyhinə müalicə aparılmalıdır. Narkotiklərdən istifadə edənlərin erkən müraciəti çox hallarda uğurlu müalicə ilə nəticələnir. Narkotik istifadəçiləri çox vaxt qısa zamanda ailəsini, dostlarını, işini, əmlakını, sağlamlığını və həyatını itirmiş olurlar. Bu uçuruma sürüklənməyi saxlamaq hər bir gəncin öz əlindədir və bu işdə də onlar tək deyillər. Dövlətimiz lazımı kömək göstərir, eyni zamanda gənclərə yardım etməyə hazır olan xeyriyyəçilər, mütəxəssislər var.

***Söhbəti yazdı:***
***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Koronavirus geri qayıdır, meymunçiçəyi isə sürətlə yayılır

## Ümumdünya Səhiyyə Təşkilatı son iki həftə ərzində xəstəliyə yoluxma hallarının 30 faiz artdığını bəyan edib



**Son həftələrdə dünyada COVID-19-a yoluxma halları artmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son iki həftədə xəstəliyə yoluxma halları 30 faiz artıb.**

Bununla belə, indiyədək aparılan vaksinasiya prosesi nəticəsində xəstəxanalara yerləşdirmələrin və ölüm hallarının az olduğu bildirilir. ÜST-ün baş direktoru Tedros Adhanam Gebreyesus pandemiyanın hələ heç yerdə bitmədiyini açıqlayıb.

Avropa Dərman Agentliyi də (EMA) Avropa İttifaqında COVID-19 epidemiyasının yeni dalğasının başladığını və bu dalğanın Aİ-nin bir çox ölkəsində "Omikron" ştamının yüksək yoluxucu mutasiyaları ilə idarə olunduğunu bildirib. Qeyd edilir ki, BA.4 və BA.5 variantlarının bütün qitədə dominantlığı gözlənilir və bu variantlar iyulun sonuna kimi digər növləri əvəz edə bilər. Bu səbəbdən də əksər ölkələrin səhiyyə qurumları əhalini koronavirus əleyhinə peyvənd olunmağa, eyni zamanda qaydalara əməl etməyə çağırırlar.

### Avropada dördüncü doza vaksininin tətbiqinə başlanılır

Görülən tədbirlər sırasında infeksiya əleyhinə peyvəndin vurulması əsas yer tutur. Eyni zamanda peyvəndin müəyyən müddət sonra qoruyuculuğunun azalması nəzərə alınaraq, bəzi ölkələrdə artıq dördüncü doza vaksinin tətbiqinə başlanılıb. Avropa Dərman Agentliyi də dördüncü doza peyvəndin vurulmasını tövsiyə edir.

İtaliya Səhiyyə Nazirliyinin qərarına əsasən, ölkədə COVID-19 infeksiyası əleyhinə aparılan vaksinasiya kampaniyasının növbəti mərhələsi çərçivəsində yaşı 60-dan yuxarı xroniki xəstələr və yaşlılar üçün peyvəndin dördüncü dozası tətbiq olunacaq. İlk buster dozanın qəbulundan ən azı 120 gün sonra infeksiya əleyhinə vaksinin ikinci gücləndirici dozasını qəbul etmək tövsiyə olunur.

### Azərbaycanda COVID-19-la bağlı vəziyyət

Azərbaycanda COVID-19-a yoluxma halları son həftələrdə artıb. Təbii ki, insanların mövsümlə əlaqədar istirahət üçün müxtəlif ölkələrə gediş-gəlişi, bir yerdə çox vaxt keçirməsi ilə təmasların artması yoluxma sayına təsir edir. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə məlumatında da qeyd olunur ki, dünya ölkələrinin bütün səylərini koronavirus infeksiyası ilə mübarizəyə və profilaktik tədbirlərə yönəltmələrinə baxmayaraq, pandemiyanın qarşısını tam almaq hələ də mümkün olmayıb.

Dünyada müşahidə olunan infeksiyanın yüksək artım fonunda ölkəmizdə həyata keçirilən mühüm preventiv tədbirlər, eyni zamanda əhalinin vaksinasiya prosesində aktiv iştirakı nəticəsində son bir neçə ay ərzində Azərbaycanda epidemioloji vəziyyətin sabit saxlanılmasına nail olunub. Amma buna baxmayaraq, ölkəmizdə COVID-19-a yoluxma hallarının sayında artım var. Odur ki, epidemioloji vəziyyət səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarətdə saxlanılır. Yoluxma dinamikası intensivləşdiyi təqdirdə müvafiq addımların atılması məsələsinə baxıla bilər. Məlumatda o da qeyd olunur ki, respublikada virusla mübarizə tədbirləri çərçivəsində mövcud maddi-texniki baza, dərman təchizatı və kifayət qədər çarpayı fondu var. Vəziyyətlə əlaqədar səhiyyə qurumları vətəndaşları virusdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq gücləndirici (buster) doza ilə peyvəndləməyə çağırır. Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına riayət olunması tövsiyə edilir.

### Koronavirusdan qorunmağın yeganə yolu

COVID-19 infeksiyasına yoluxmuş şəxslər əksər hallarda xəstəliyi yüngül, lakin bəzi insanlar, xüsusən yaşı 65-dən yuxarı və hər hansı yanaşı xəstəliyi olanlar nisbətən ağır keçirirlər. Risk qrupuna daxil olan vətəndaşlara sanitar-gigiyenik qaydalara ciddi əməl etmələri, koronavirusun əlamətlərini duyduqda isə ilk növbədə sahə həkimlərinə məlumat vermələri və test nümunələrinin götürülməsi üçün müraciət etmələri tövsiyə olunur.

Mütəxəssislər qeyd edirlər ki, hazırda yeni dalğa başlayıb və bu dalğanı yüngül keçirmək üçün peyvənd vurdurmalı və maska taxılmalıdır. Yəni xəstəlikdən qorunmağın tək yolu budur.

TƏBİB koronavirusa yoluxma saylarında artımları nəzərə alaraq, əhalini bir daha diqqətli olmağa çağırıb. Müraciətdə qeyd olunub ki, sabun, su və ya spirt tərkibli antiseptik vasitə ilə tez-tez əlləri yumaq, öskürərkən və ya asqırarkən ağzı bükülmüş dirsək və ya salfet parçası ilə örtmək, daha sonra isə həmin salfet parçasını dərhal bağlı zibil qutusuna atmaq lazımdır: "Başqaları ilə aranızda ən az bir metr məsafə saxlayın, telefonlar, qapı dəstəkləri kimi tez-tez toxunulan səthləri müntəzəm olaraq təmizləyin və dezinfeksiya edin, qapalı məkanları tez-tez havalandırın, kütləvi toplaşma hallarından yayının, bunun mümkün olmadığı zaman maskadan istifadə edin, ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra buster doza peyvənd vurdurun".

### Meymunçiçəyinə yoluxanların sayı 10 minə yaxınlaşır

COVID-19-la yanaşı, dünyada yeni bir pandemiyanın da olduğunu unutmamalıyıq. Meymunçiçəyi virusu da yayılmaqda davam edir. Onun COVID-19 kimi pandemiya olmadığı deyilsə də, lakin infeksiya ilə əlaqədar həyəcan təbili çalınır.

Ümumdünya Səhiyyə Təşkilatı meymunçiçəyilə bağlı son məlumatları paylaşıb. Təşkilatdan bildirilib ki, artıq dünya üzrə virusa yoluxanların sayı 10 minə yaxınlaşıb.

Qurumun baş direktoru Tedros Adhanom Gebreyesus təşkilatın Cenevrədəki baş qərargahında keçirilən mətbuat konfransında xəstəliklə bağlı son vəziyyəti dəyərləndirib. O, virusun endemik və qeyri-endemik olduğu 63 ölkədə yayıldığını deyib. Gebreyesus rəhbərlik etdiyi təşkilatın meymunçiçəyinə qarşı peyvəndlərin hazırlanması və yayılması ilə bağlı müvafiq ölkələrlə danışıqlara başladığını da açıqlayıb.

Qeyd edək ki, bu günə qədər bu virusdan 3 nəfər ölüb.

Virusun yayılma yolları COVID-19-dan daha genişdir. Yayılma sürətinin aşağı, amma aqressivliyinin yüksək olduğu bildirilir. Xəstəlik, əsasən, Avropada geniş yayılsa da, artıq qonşu ölkələrdə - Türkiyə, Gürcüstan, Rusiyada da ilk yoluxma faktları qeydə alınıb. Bu da xəstəliyin qısa zamanda Azərbaycana da gələ biləcəyi ehtimalından xəbər verir.

Səhiyyə Nazirliyindən ölkədə meymunçiçəyinə yoluxma faktının qeydə alınmadığı, hazırda durumun stabil olduğu və epidemioloji vəziyyətin izlənildiyi bildirilib. Eyni zamanda yoluxma faktı qeydə alınmadığından ölkəyə gətirilən diaqnostik testlərdən istifadə edilmədiyi qeyd olunub.

Hər iki xəstəliyin yayılmasına şərait yaradan isə insanların özləridir. Buna görə də fiziki məsafənin saxlanılması və şəxsi gigiyenik qaydalara əməl olunması virusun mutasiyasından asılı olmayaraq ondan qorunmağın yeganə yoludur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

İyulun 13-ü günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutub. Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.






# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan iqtisadi sahədə daha bir rekorda imza atmaq ərəfəsindədir

**BMT-nin ekspertləri bildirirlər ki, 2022-ci ildə qlobal inflyasiya 6,7 faizə çatacaq. Təhlükəli məqam ondan ibarətdir ki, bu rəqəm 2010-2020-ci illərdəki 2,9 faizlik orta göstəricini iki dəfədən artıq üstələyə bilər. Çünki Qərbi Asiya, Latın Amerikası və Karib hövzəsi ölkələrində inflyasiya artmaqdadır və statistik rəqəmlərdə təskinlik gətirən göstəriciləri axtarmaq mənasızdır.**

## İlin sonunadək valyuta ehtiyatlarımızın 60 milyard dollara yaxınlaşacağı gözlənilir



Ekspertlər hesab edirdilər ki, qlobal inflyasiya müvəqqəti xarakter daşıyacaq. Bu da ondan xəbər verir ki, onlar Ukraynadakı uzunsürən münaqişənin, bazarların təkliflərində yaranan fasilələrin qlobal bohranı dayanıqlı prosesə çevirəcəyini öncədən görə bilməmişlər. BMT-nin mütəxəssisləri etiraf edirlər ki, ərzaq və enerji qiymətlərinin artması iqtisadiyyatın qalan hissəsinə təsir edir və bu da öz növbəsində baza inflyasiyasının artmasına səbəb olur.

Ən ağır zərbə isə aqrar sektora dəyir. Belə ki, cari il boyu əmtəə qiymətlərinin yüksək qalacağı ehtimal edilir. Rusiya Federasiyası və Belarusdan gübrə ixracının azalması ilə yanaşı, 2021-ci ilin ortalarından Çindən gübrə ixracının məhdudlaşdırılması bütün planetin aqrar sektorunda məhsuldarlığın aşağı düşməsinə səbəb ola bilər. Bir sözlə, qlobal inflyasiya davam edəcəkmi sualına nikbin cavab vermək mümkün deyil. Üstəlik, inkişaf etmiş ölkələrdə bugünkü rekord səviyyədə aşağı işsizlik və işçi qüvvəsi çatışmazlığı da inflyasiya təzyiqlərini artırır. İnkişaf edən ölkələrdə isə inflyasiya təzyiqləri tədiyyə balansında problemlərin yaranmasına səbəb olur. Yerli valyutalar zəiflədikcə bu proses daha da güclənir. BMT-nin ekspertlərinin son sözü belədir ki, bütün əlamətlərinə görə cari inflyasiya dövrü 2007-2008-ci illərdəkindən daha uzunmüddətli olacaq.

Bu davamlı inflyasiya təzyiqi mərkəzi bankları pul siyasətini sərtləşdirməyə sövq edir. Yüksək faiz dərəcələri olan ölkələrdə, xüsusilə Afrika, Latın Amerikası və Karib hövzəsi ölkələrində böyük faizlər artıma zərər verəcək. Bu ona görə baş verəcək ki, daha yüksək borclanma xərcləri nəinki investisiyaları azaldacaq, həm də inkişaf etmiş və inkişaf edən ölkələr arasında kapital axınındakı fərqləri qütbləşdirəcək.

Azərbaycan iqtisadçıları və ekspertləri də öz baxış bucaqlarından bu məsələni araşdırırlar. O cümlədən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) dünyada gedən qlobal prosesləri nəzarətdə saxlayır, mütəmadı və maraqlı analizləri və ekspert rəyləri ilə çıxış edir, proqnozlar verirlər.

Sözügedən məsələ barədə İİTKM bildirir ki, bu gün nəinki ən zəif ölkələr, hətta aparıcı dövlətlər belə, qlobal böhranın məngənəsindədir. İİTKM-in icraçı direktoru, professor Vüsal Qasımlı belə hesab edir ki, bu gün qlobal iqtisadiyyatın əsas problemlərindən biri inflyasiyadır. Bu zəmində ərzaq məhsullarının bahalaşması daha ciddi problemlərin yaranmasına səbəb olur. Və artıq dünyada ərzaqla bağlı üsyanların baş verdiyini müşahidə etmək mümkündür.

Professor V.Qasımlı dünyanın inflyasiyadan əziyyət çəkdiyi bir dövrdə Azərbaycanın atdığı addımları yüksək qiymətləndirir və Prezidentin göstərişi ilə bu ilin əvvəlində Nazirlər Kabinetinin antiinhisar tədbirləri paketini qəbul etdiyini bildirir: "Bir neçə istiqamətdə yeniliklərin tətbiq edilməsi qərara alınıb: ərzaq səbətinin tərkibi yenidən nəzərdən keçiriləcək, vacib ərzaq məhsulları idxal edilməkdənsə, ölkədə istehsal olunacaq, idxal olunan ərzaq məhsulları isə əlavə dəyər vergisindən və bir çox rüsumlardan azad ediləcək. Bazarlarda süni qiymət artımının qarşısının alınması üçün monitorinqlər hazırlanacaq".

Hazırda Azərbaycanda 13 faizlik inflyasiya müşahidə olunur. Hədəf isə inflyasiyanın 2-5 faiz civarında saxlamaqdır. Əgər qonşu dövlətlərə nəzər salsaq, Türkiyədə və Rusiyada inflasiyanın faiz hədlərinin bizdən daha çox olduğunu görəcəyik. Çünki İİTKM-in ekspertlərinə görə, Azərbaycanda inflyasiyanın təhlükəli həddi keçməsinə imkan verilmir. Vüsal Qasımlının mövqeyi belədir: "Çalışırıq ki, bu inflyasiya insanların həyat tərzinə daha az mənfi təsir göstərsin, biznes gözləntiləri ilə bağlı problem yaratmasın. İnflyasiya bizdə 13,7 faiz olduğu halda, ilk beş ayda insanların nominal gəlirləri 19 faizdən çox artmışdır".

Azərbaycanda inflyasiyanın nisbətən aşağı olmasının əsas səbəblərindən biri də manatın sabitliyinin qorunması ilə bağlıdır. V.Qasımlıya görə, iqtisadiyyatda hər bir şeyin öz qiyməti mövcuddur: "Ümumiyyətlə, iqtisadi artımın da öz qiyməti vardır. İqtisadi artımı həyata keçirən ölkə xarici borclanmaya gedə bilər. Azərbaycanda xarici borcun ÜDM-ə nisbəti 12,5 faizdir. Bu rəqəm orta dünya göstəricilərindən 7-8 dəfə aşağıdır".

İİTKM-in araşdırmasında göstərilir ki, əgər Azərbaycanda manatın sabitliyi qorunmasaydı, ev təsərrüfatları və biznes ziyan çəkər, gözləntilər pisləşər, proqnoz vermək qabiliyyəti aşağı düşərdi. Azərbaycan ikinci yola getməmək üçün manatın sabitliyini qoruyur. Professor V.Qasımlı belə hesab edir ki, bizim iqtisadi artım daha keyfiyyətlidir, o, devalvasiyanın və inflyasiyanın, eləcə də milli təhlükəsizliyin hesabına deyil, daha çox iqtisadiyyatın səmərəli qurulması, düzgün istiqamətləndirilməsi, gəlirlərin daha düzgün bölünməsi və dövlət maliyyəsinin daha yaxşı idarə olunması sayəsində baş verir: "Azərbaycan Prezidentinin apardığı islahatlar burada daha səmərəli rol oynayır. Ona görə də Azərbaycan bu gün digər dövlətlərlə müqayisə edildikdə daha rahat və əmin görünür. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan artıq MDB məkanında liderdir. Bu gün Azərbaycanın valyuta ehtiyatları 54 milyard ABŞ dollarını keçmişdir. Gözləntilər ondan ibarətdir ki, ilin sonunadək bu rəqəm 60 milyard dollara yaxınlaşacaq. Beləliklə yeni bir tarixi rekord əldə olunacaq. Azərbaycan valyuta ehtiyatlarına görə də regional liderdir. Və bu valyuta ehtiyatlarının vacib elementidir".

Hərbi xərclərin məbləğinə gəldikdə isə bu dəfə büdcəni artıranda əsas istiqamətlərdən biri də milli təhlükəsizlik məsələləri ilə bağlı olmuşdur, çünki biz indi Qarabağ azad edildikdən sonra milli təhlükəsizlik və müdafiə xərclərinin nə qədər səmərəli olduğunu gördük. 44 günlük Vətən müharibəsində iqtisadiyyat Azərbaycan Ordusuna işləyirdisə, indi ordu Azərbaycan iqtisadiyyatına işləyir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Postmüharibə dövründə sosial dəstək paketi: 100 min şəxsə 191 min xidmət göstərilib

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbə qazandığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələrinə və müharibə iştirakçılarına genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilməkdədir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, ötən dövrdə Vətən müharibəsi şəhidlərinin 8 minədək ailə üzvünə 16 minədək sosial ödəniş (Prezident təqaüdü, müavinət və ya pensiya) təyin olunub, 3 151 müharibə iştirakçısına əlillik və bununla bağlı sosial ödəniş təyin olunub. Cari ildə "Müharibə veteranı" adı verilmiş 81 856 şəxsə də Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yekunlaşdırılıb. Ümumilikdə 93 min nəfərə 104 min sosial ödəniş təyin olunub.

Sosial ödənişlər vətəndaşların müraciəti olmadan, elektron sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği 2021-2022-ci illərdə orta hesabla 60 faiz artırılıb. 1 yanvar 2021-ci ildən Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin təqaüdü, 1 yanvar 2022-ci ildən isə Vətən müharibəsinin veteranlarına Prezidentin təqaüdü təsis olunub.

Mühüm sosial dəstək tədbirlərindən biri də şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatıdır. Bu proqram 2021-ci ildə 5 dəfə genişlənib. Ötən il şəhid ailələri və müharibə əlillərinə 3 min, 2022-ci ilin əvvəlindən daha 587 mənzil, postmüharibə dövründə isə 3587 mənzil verilib. Ümumən ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

Dəstək tədbirləri çərçivəsində müharibə əlillərinin atomobillə təminatı işləri də davam etdirilib. Postmüharibə dövründə 264 müharibə əlilinə avtomobil verilib. Bu günədək bu kateqoriyadan olan 7450 şəxs avtomobillə təmin olunub.

Postmüharibə dövründə şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər də daxil olmaqla, 13 mindən çox şəxsin aktiv məşğulluq proqramlarına, o cümlədən 7,8 min şəxsin özünüməşğulluq proqramına cəlb olunması təmin edilib. Bu ilin 1 iyul tarixinə "Məşğulluq marafonu"na qoşulan 649 işəgötürənin təqdim etdiyi vakansiyalar üzrə 2423 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

Həmçinin 9 mindən artıq şəxsə 28,5 minədək sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, 1456 müharibə əlilinə 20 766 reabilitasiya vasitəsi verilib. Dövlət başçısının göstərişi ilə 2020-ci ilin dekabr ayından müharibə əlillərinin yüksək texnologiyalı protezlə təminatına başlanıb ki, bu proqram çərçivəsində Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunub.

Şəhid ailələrinə, müharibədə yaralanmış hərbi qulluqçulara mərkəzi və rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən 26 istiqamətdə xidmətlərin "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edildiyi vahid əlaqələndirmə mərkəzlərində 41 min şəxsə xidmətlər göstərilib. Sosial dəstək çərçivəsində birdəfəlik maddi yardımla, ərzaq dəstəyi ilə təminat işləri də aparılıb.

Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri 1 iyul 2022-ci il tarixə şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənlərdən ibarət 100 minədək şəxsi əhatə edib, onlara 191 min xidmət göstərilib.

# Vahid əlaqələndirmə mərkəzlərində 41 min şəhid ailəsi üzvü və qaziyə xidmət göstərilib

Vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyətə başlamasından artıq 1 il keçir və ötən dövrdə bu mərkəzlərdə 41 min şəxsə xidmət göstərilib.

Prezident İlham Əliyevin fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzləri şəhid ailələri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, müalicə, müayinə və s. üzrə xidmətlər təqdim edilir.

Onlara 40-dək qurum üzrə 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir.

Həmin qurumların sırasına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və müvafiq yerli icra hakimiyyətləri orqanları daxildir.

2021-ci ilin avqust ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin DOST mərkəzlərində və Dövlət Sosial Müdafiə Fondunun bölgələrdəki (Gəncə, Masallı, Ucar, Şəmkir, Qusar, Salyan) filiallarında 11 vahid əlaqələndirmə mərkəzləri açılıb.

# 16 ildə BTC ilə 463 milyon tondan çox Azərbaycan nefti nəql olunub

Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixracı boru kəmərinin Türkiyə hissəsinin, Ceyhandakı dəniz ixrac terminalının və bütövlüklə BTC ixrac boru kəməri sisteminin tam istismara verilməsindən 16 il ötür.

Üç dənizin əfsanəsi hesab edilən BTC üç ölkənin ərazisindən keçərək 1768 kilometr məsafəyə uzanan dünya səviyyəli bir boru kəməridir. Beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxış təmin edən BTC kəmərinin ötürücülük gücü isə gündəlik 1,2 milyon bareldir.

2006-cı il iyulun 13-dən indiyə qədər bu boru kəməri vasitəsilə 463 milyon tondan çox Azərbaycan nefti Xəzərdən Aralıq dənizinə nəql olunub.

# İstehsal və emal sahəsində fəaliyyət göstərən müəssisələr üçün özünüqiymətləndirmə platforması yaradılıb

**İstehsal və emal sahəsində fəaliyyət göstərən müəssisələr üçün resurs səmərəliliyinin və qənaətli istehsalın ölçülməsinə dəstək məqsədilə özünüqiymətləndirmə platforması yaradılıb.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, bu platforma vasitəsilə müəssisələr fəaliyyətlərinin ətraf mühitə təsirini, su və enerji istifadəsinin səmərəliliyini, tullantıların "yaşıl idarəetməsi"ni onlayn formada qiymətləndirə bilərlər. Müəssisə tərəfindən platformaya daxil edilən məlumatlar əsasında qabaqcıl beynəlxalq təcrübəyə uyğun metodologiya ilə müəssisənin səmərəliliyi ölçülür və təkmilləşdirilməsi üçün zəruri tövsiyələr verilir. Platforma Avropa İttifaqının "EU4Envinroment" proqramı çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təşəbbüsü ilə yaradılıb.

Müəssisələr https://yb.smb.gov.az/form/ linkinə daxil olmaqla resurs səmərəliliyi və qənaətli istehsal üzrə özünü qiymətləndirə bilər.

# Dövlət dayaq olanda

## Sosial müdafiəyə ehtiyacı olan heç kəs diqqət və qayğıdan kənarda qalmır



Ölkəmizdə sosial-iqtisadi islahatların paralel aparılması iqtisadi inkişafı təmin etməklə yanaşı, əhalinin sosial müdafiəsini də genişləndirir. Bu baxımdan cari ilin büdcəsinə yenidən baxılarkən ən çox vəsait ayrılan sahələrdən birinin sosial sfera olması təsadüfi deyil.

Dövlətin bu istiqamətdə həyata keçirdiyi islahatlar həssas təbəqədən olan bütün insanları, xüsusən 44 günlük Vətən müharibəsi iştirakçılarını, o cümlədən qazilərini əhatə edir. Bunun üçün hətta qanunvericilikdə dəyişikliklər olunub. Məqsəd Vətənin müdafiəsində fədakarlıq edən insanların sosial müdafiəsini daha da yaxşılaşdırmaqdır.

Etiraf edək ki, bunun üçün ölkəmizin əlavə maddi imkanları da var. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri proqnozla müqayisədə 9 faiz və ya 238 milyon manat artmaqla 2 milyard 806 milyon manat təşkil edib. Cari ilin yanvar-iyun aylarında DSMF-nin sosial sığorta daxilolmalarında 12 faiz (236 milyon manat) artım qeydə alınıb. Fondun xərcləri isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz (120 milyon manat) artaraq 2 milyard 591 milyon manata çatıb.

Əhalinin sosial müdafiəsi çoxsahəlidir. Belə ki, insanların dövlətin maddi dəstəyinə ehtiyacının yaranmasının səbəbləri müxtəlif ola bilir. Bu üzdən hər kateqoriyadan olan insanlara fərdi yanaşılır. Sosial sığortanın çoxşaxəli olması da bununla bağlıdır.

İnsanların işləməsi və öz güzəranını bu hesaba yaxşılaşdırması dövlətin marağındadır. Çox sadə bir səbəbdən - işləyib yaxşı gəlir əldə edən vətəndaşın dövlətin maddi yardımına ehtiyacı olmur. Üstəlik, dövlətə vergi ödəməklə ümumi inkişafa töhfə verir. Digər tərəfdən sosial sığorta ödəməklə özünün gələcək pensiya təminatını təmin etmiş olur. Bu səbəblərdən işləmək qabiliyyətində olan hər bir şəxsin məşğulluğunun təmin olunması hər iki tərəf üçün sərfəlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluğu Agentliyinin icra etdiyi "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə cari ilin 5 ayı ərzində 850 işsiz şəxsə iş yerinə göndəriş verilib. Onlardan 300-dən çox namizəd işə qəbul prosesini tamamlayıb. Bu proqram üzrə cari ilin ötən dövründə 80-dək, ümumilikdə isə 262 işəgötürənlə əməkdaşlığa başlanılıb və onlarla müqavilələr imzalanıb. Bağlanan müqavilə üzrə, əsasən, şəhid ailəsi üzvləri və qazilərdən ibarət 841 şəxs işlə təmin edilib. Onu da bildirək ki, işəgötürənlərlə bağlanan müqaviləyə görə, onların 1 il ərzində əməkhaqqının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilir.

Qeyd edildiyi kimi, dövlət bütün kateqoriyadan olan vətəndaşların qayğılarının həll edilməsinə dəstək verir. O cümlədən köməyə ehtiyacı olan uşaqların problemləri daim diqqət mərkəzində saxlanılır. Bu kateqoriyadan olan uşaqların əlilliklərinin müəyyən edilməsi, onlara reabilitasiya xidmətlərinin göstərilməsi üçün ölkəmizdə hər cür şərait var. Göstərilən xidmətləri təkmilləşdirmək məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən, bu sahədə ən müasir avadanlıqlardan istifadə olunur. Bununla yanaşı, reabilitasiya mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm işlər görülür. Məqsəd hər bir uşağın yaşadığı ünvana yaxın ərazidə bu növ xidmətlərdən rahat istifadəsini təmin etməkdir.

Ötən ilin dekabrında fəaliyyətə başlayan Qəbələ Uşaq Reabilitasiya Mərkəzi də bunun üçün yaradılıb. Müasir cihazlar və tibbi-reabilitasiya avadanlıqları ilə təchiz olunmuş mərkəzdə hər cür şərait yaradılıb. Mərkəz tibbi, sosial, reabilitasiya tədbirlərinin aparılması yolu ilə 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərin sosial statusunun bərpası və onların cəmiyyətə inteqrasiya olunmasında önəmli rol oynayır. Onu da qeyd edək ki, 25 çarpayılıq müəssisədə ötən dövr ərzində regiondakı 1000-dən çox uşağa ambulator və stasionar formada fizioterapevtik üsullar əsasında, həmçinin müasir avadanlıqlardan istifadə etməklə xidmətlər göstərilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İngiltərənin yeni baş naziri kim olacaq?

## İlk tur hindəsilli Rişi Sunakın liderliyi ilə başa çatdı

Artıq bir həftədir ki, Böyük Britaniyada hökumət böhranı yaşanır. İyulun 7-də bir çox nazir və məmurun Böyük Britaniya hökumətini tərk etməsi səbəbindən Boris Consonun Mühafizəkarlar Partiyasının rəhbəri vəzifəsindən istefa verməsi vəziyyəti daha da mürəkkəbləşdirib.



Siyasi ekspertlər də qeyd edirlər ki, Consonun gedişi xarici siyasətdə Britaniyanı bir neçə ay iflic vəziyyətinə salacaq. Qeyri-müəyyənlik mərhələsi Londonda yeni hökumət formalaşana qədər davam edəcək. Böhranlar və beynəlxalq səviyyədə əməkdaşlığa təcili ehtiyac duyulduğu bir zamanda bu prosesin baş verməsi son dərəcə arzuolunmaz hal hesab edilir.

Boris Consonun istefasından sonra hakim Mühafizəkarlar Partiyasının sədri və hökumət başçısı vəzifəsi uğrunda qızğın mübarizə başlamışdır. Britaniyanın xarici siyasətinin iflic olmasının qarşısını almaq üçün qısa zamanda yeni Nazirlər Kabineti formalaşdırılmalı idi. Partiyanın lideri və baş nazir postuna namizədlərin sayı əvvəl çox olsa da, sonradan onların sayı səkkiz nəfərədək azalıb.

Seçkilər Böyük Britaniya İcmalar Palatasındakı "Parlament Komitəsi 1922" tərəfindən keçirilib. Növbəti partiya liderinin seçilməsi prosesinə cavabdeh olan komitənin rəhbəri Qrem Breydi bildirib ki, daxili seçki kampaniyasında iştirak etmək üçün namizəd Mühafizəkarlar Partiyasından azı 20 həmkarın dəstəyini almalıdır.

Dünən keçirilən səsverməninin birinci turuna sabiq maliyyə naziri Rişi Sunak, xarici işlər naziri Liz Trass, ticarət nazirinin müavini Penni Mordont, maliyyə naziri Nadim Zahavi, XİN-in sabiq başçısı Ceremi Hant, Britaniya parlamentinin xarici işlər komitəsinin rəhbəri Tom Tugendhat, İngiltərə və Uelsin baş prokuroru Syu-Ellen Breyvermen, həmçinin sabiq bərabərlik və yerli idarəetmə naziri Kemi Beydnok buraxılıblar.

Rişi Sunak 2015-ci ildə Böyük Britaniya parlamentinin üzvü olub, 2019-cu ildə isə maliyyə naziri təyin edilib. O, həmkarı, səhiyyə naziri Sacid Caviddən sonra istefa verdiyini elan edənə qədər bu il iyulun 5-dək bu vəzifədə qalıb.

Liz Trass Conson hökumətində xarici işlər naziridir. Sunak və Cavidin vəzifələrindən getməsindən sonra o, baş naziri dəstəklədiyini bəyan edib və bu, onun Consonun tərəfdarları arasında mövqeyini gücləndirib. O, Xarici İşlər Nazirliyinə başçılıq edən ikinci qadın kimi tarixə düşüb.

Penni Mordont 2019-cu ildə Britaniyanın müdafiə naziri vəzifəsini icra edən ilk qadın olub. Bundan əvvəl Kral Hərbi Dəniz Qüvvələrində ehtiyatda olan Mordont Silahlı Qüvvələr üzrə müşavir vəzifəsində çalışıb. Hazırda beynəlxalq ticarət nazirinin müavinidir.

Nadim Zahavi İraqda anadan olub, Səddam Hüseyn hakimiyyətə gəldikdən az sonra ailəsi ilə birlikdə Böyük Britaniyaya köçüb. O, Conson hökumətində peyvəndləmə üzrə nazir müavini idi və eyni zamanda təhsil naziri vəzifəsində çalışıb. Sunakın maliyyə naziri postundan getməsindən sonra Zahavi hökumətdə ikinci mühüm vəzifə olan bu postu alıb.

Ceremi Hant 2005-ci ildən parlamentin aşağı palatasının üzvüdür, 2010-cu ildə Devid Kemeron hökumətinə mədəniyyət naziri kimi daxil olub. Həmçinin Kemeron hökumətində Hant səhiyyə və xarici işlər naziri vəzifələrində çalışıb.

Tom Tugendhat İraq və Əfqanıstanda xidmət edib. Uzun müddət Mühafizəkarlar Partiyasının lideri olacağı ehtimal edilən keçmiş hərbçidir. 2020-ci ildən o, İcmalar Palatasının Xarici Əlaqələr Komitəsinə rəhbərlik edir. Tugendhat Qərbin, ilk növbədə ABŞ-ın qoşunlarını Əfqanıstandan çıxarmaq qərarını tənqid edib.

Syu-Ellen Breyvermen 2020-ci ildən İngiltərə Uelsin baş prokurorudur. Sabiq Baş nazir Tereza Meyin hökumətində o, "Brexit" ilə məşğul olub, lakin baş nazirin təklif etdiyi yekun saziş layihəsinə görə istefaya gedib.

Kemi Beydnok 2017-ci ildən parlament üzvüdür. Təxminən iki il Boris Consonun hökumətində bərabərlik və yerli idarəetmə naziri olub. İyulun 6-da vəzifəsindən istefa verib.

Dünən keçirilən seçkilərin birinci turundan sonra Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın baş naziri postuna 6 namizəd qalıb: Penni Mordont, Kemi Beydnok, Rişi Sunak, Liz Trass, Tom Tugendhat və Syu-Ellen Breyvermen.

Qeyd edək ki, ikinci turda iştirak etmək üçün namizədlərə azı 30 səs qazanmaq lazım olub. Namizədlərdən Ceremi Hant 18 səs, Nadim Zahavi 25 səs aldıqları üçün mübarizəni dayandırıblar.

Sabiq maliyyə naziri Rişi Sunak 88 səslə lider olub. O, ən yaxın rəqibi Penni Mordontu (67 səs) 21 səs qabaqlayıb. Sonrakı yerləri Liz Trass (50 səs), Kemi Beydnok (40 səs), Tom Tugendhat (37 səs) və Syu-Ellen Breyverman (32 səs) tutublar.

Səsvermənin ikinci turu bu gün keçiriləcək.

Əlavə edək ki, ilk turda lider olan Rişi Sunak hindəsillidir. Əgər sabiq maliyyə naziri ölkənin baş naziri seçilərsə, bu, Böyük Britaniya tarixində bir ilk olacaq.

Ancaq qeyd edilir ki, Mühafizəkarlar Partiyası iki namizəd qalanadək bir sıra səsvermələr keçirəcək. Bundan sonra partiya üzvləri öz liderini seçəcək.

Qeyd edək ki, mühafizəkarlar 650 yerlik İcmalar Palatasında 358 mandata sahibdirlər. Leyboristlər Partiyasının təşəbbüsü ilə keçirilmiş səsvermədə Tori parlament fraksiyası ilə yanaşı, İcmalar Palatasının bütün üzvləri də iştirak ediblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəki "İpək Yolu" XI Beynəlxalq Musiqi Festivalı sona çatıb

Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Bəstəkarlar İttifaqının və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyulun 7-də başlayan Şəki "İpək Yolu" XI Beynəlxalq Musiqi Festivalı uğurla başa çatıb.




Üç gün davam edən festivalda musiqisevərlər, şəhərin qonaqları, yerli sakinlər Azərbaycanın tanınmış teatr və musiqi kollektivlərinin çıxışlarını izləyiblər.

AZƏRTAC xəbər verir ki, iyulun 9-da axşam "Marxal" kompleksinin yay teatrında festivalın təntənəli bağlanış mərasimi olub. Tədbirə şəhər icra hakimiyyətinin rəhbər şəxsləri, festivalın təşkilatçı qurumlarının nümayəndələri, şəhərin qonaqları, musiqisevərlər qatılıblar. Mərasimdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri tamaşaçılar qarşısında geniş konsert proqramı ilə çıxış edib.

Konsertin əvvəlində məlumat verilib ki, Dövlət Kamera Orkestri 1964-cü ildə Azərbaycan musiqisinin klassikləri - Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılıb. Orkestrin ilk baş dirijoru və bədii rəhbəri Xalq artisti, Dövlət mükafatları laureatı Nazim Rzayev olub. Kollektiv 50 ildən çox davam edən fəaliyyəti dövründə dünyanın bir çox məşhur səhnələrində çıxış edib, nüfuzlu beynəlxalq festivalların iştirakçısı olub, Azərbaycanın musiqi mədəniyyətini təbliğ edib. Azərbaycan klassik musiqisinin dünyada geniş təbliğinə görə orkestr 2007-ci ildə "Humay" milli mükafatına da layiq görülüb. 2018-ci ildən kamera orkestrinin bədii rəhbəri və baş dirijoru Xalq artisti, Prezident mükafatçısı Fəxrəddin Kərimovdur.

Konsertdə Azərbaycan, Avropa və rus bəstəkarlarının əsərləri səsləndirilib. Solistlər - Əməkdar artistlər İnarə Babayevanın (soprano), Ramil Qasımovun (tenor), Beynəlxalq müsabiqələr laureatı Ümidə Abbasovanın (violin) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsert proqramı başa çatdıqdan sonra Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, Şəki "İpək Yolu" XI Beynəlxalq Musiqi Festivalının keçirilməsində əməyi olan bütün qurumlara, o cümlədən Mədəniyyət Nazirliyinin və Azərbaycan Bəstəkarlar İttifaqının rəhbərlərinə minnətdarlığını bildirib.

Sonda kamera orkestrinin bədii rəhbəri Fəxrəddin Kərimova şəhər icra hakimiyyəti adından festivalın rəmzi xatirə hədiyyəsi təqdim olunub.

Festivalın bağlanış mərasimi atəşfəşanlıqla başa çatıb.

# Özünüzü buzlu zəhərdən qoruyun

## Dondurma həm də təhlükə mənbəyinə çevrilib

Havaların istiləşməsi ilə bağlı insanların dondurmaya olan tələbatı artır. Bu səbəbdən marketlərlə yanaşı, parklarda, yol qıraqlarında dondurma satışı ilə məşğul olanlara daha çox rast gəlinir.

Yüksək qidalılıq dəyərinə malik, orqanizm tərəfindən asan həzm olunan, sərinlik gətirən dondurma, əsasən, süd, şəkər, yumurta, kərə yağı, ətirverici və stabilləşdirici maddələrdən hazırlanır. Dondurmanın da müxtəlif növləri var. Onların arasında südlü, qaymaqlı, meyvə-giləmeyvəli, şokoladlı dondurmaları qeyd etmək olar.

Mütəxəssislərin fikrincə, dondurma alarkən ilk növbədə onun istehsal tarixinə, saxlanılma şəraitinə və tərkibinə diqqət etmək lazımdır. Bu həssas qida olduğu üçün istiyə, soyuğa və qoxuya daha tez reaksiya verir. Ona görə də dondurmaların soyuducularda saxlanılması vacibdir. Yerli, yoxsa xarici istehsallı dondurmaya gəldikdə isə mütəxəssislər, əsasən, yerli istehsalı olan dondurmalara üstünlük verməyi tövsiyə edirlər. Çünki yerli istehsal olan dondurmalar həm yeni, həm də tərkiblərində əlavə kimyəvi qatqılar az olur.

### Qeyri-sanitar şəraitdə saxlanılan dondurmalar zəhərlənməyə səbəb olur

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, ölkədə istehsal olunan və idxal edilən qida məhsulları üzərində risk əsaslı nəzarət tədbirləri həyata keçirilir: "İlk növbədə məhsullardan nümunələr götürülərək onlar Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müayinələrdən keçirilir. Müayinələr nəticəsində təhlükəsizlik göstəriciləri uyğun olduqda dondurmalar yerli bazarda sərbəst ticarət dövriyyəsinə buraxılır. Eyni zamanda Qida Təhlükəsizliyi Agentliyi əhalinin sağlamlığının qorunması istiqamətində mütəmadi olaraq monitorinqlər həyata keçirir. Bakı şəhəri də daxil olmaqla, respublikanın bütün regionlarından konkret faktlara əsaslanan müraciətlər olduqda dərhal araşdırmalar aparılır və qanunvericiliyə uyğun tədbirlər görülür".

Dondurma alarkən qida dəyəri göstəriciləri və yağlılıq dərəcəsi diqqətə alınmalıdır. Küçə və parklarda açıq şəraitdə qablaşdırılmamış silindrik qablarda satılan dondurmaları alarkən məhsulun saxlanma şəraitinə diqqət etmək lazımdır. Qeyri-sanitar şəraitdə satılan dondurmalar asanlıqla təhlükəli məhsula çevrilə bilər. Bu cür dondurmaların istehlakı insanlarda qida zəhərlənmələrinə, bağırsaq çöplərinin yaranmasına və digər xəstəliklərə yola aça bilər.

### Dondurmanın tərkibinə yalnız kərə yağı qatılmalıdır

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, dondurma dilin üzərində qoyulduqda təzə qaymaq dadı verməlidir: "Onu yeyərkən boğazda acılıq hissi yaranırsa, deməli, məhsulun tərkibinə yağlılığı təmin etmək üçün kərə yağı əvəzinə marqarin və yaxud bitki yağlarının qarışdırıldığı məlum olur. Dondurmanın yağlılığını artırmaq üçün standartlara görə tərkibinə yalnız kərə yağı qatılmalıdır".

Mütəxəssisin sözlərinə görə, əhali dondurmanın bükülməsinə də diqqət yetirməlidir. Belə ki, əgər məhsul əzik şəkildə bükülübsə bu, onun isti temperatur rejiminə məruz qaldığını və çirkləndiyini göstərir. Ekspert məhsulun buraxılma və son istifadə tarixinə, "qaynar xətt"inin olub-olmamasına da diqqət yetirməyin vacib olduğunu vurğuladı: "İsti temperatura məruz qalan dondurmadan imtina etmək lazımdır. Çalışmaq lazımdır ki, gündə 200-300 qramdan çox dondurma yeyilməsin. Çox yeyilərsə, insanların bədən temperaturu aşağı düşə və xəstələnə bilərlər. Rəngli dondurmalar da məsləhət deyil, çünki tərkibinə bəzən rəngləndirici maddələr əlavə olunur".

Saxlanma temperaturunun sabitliyi dondurmanın keyfiyyətini təmin edən əsas səbəblərdəndir. Buna riayət etmədikdə məhsullarda mikrobioloji proseslər başlayır ki, bu da insan orqanizmi üçün təhlükələrə səbəb olur. Problemlərin yaranmaması üçün yediyiniz dondurmaların təhlükəsizliyinə əmin olmalısınız.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***



# Avropa su çatışmazlığından əziyyət çəkir

## İqlim dəyişikliyi, qlobal istiləşmə bəzi ölkələrdə fövqəladə hal yaradıb

Dünya əhalisinin, demək olar ki, yarısı su çatışmazlığından əziyyət çəkir. Hazırda dünyada 2,2 milyard insanın içməli suya çıxışı yoxdur. Hər il minlərlə insan təmiz su və sanitariya şəraiti olmadığına görə dünyasını dəyişir.

Son illərdə isə iqlim dəyişikliyi, qlobal istiləşmə səbəbindən su ehtiyatları qurumağa başlayıb. Bu vəziyyət artıq Avropada da müşahidə olunmaqdadır. Cənubi Avropa ölkələrinin hakimiyyət orqanları əhalinin su istehlakını məhdudlaşdırır və hətta fövqəladə vəziyyət elan edir.

### İtaliyada 70 ilin ən pis quraqlıq dövrü başlayıb

Vəziyyət antropogen iqlim dəyişikliyi ilə daha da ağırlaşır. Hazırda xüsusilə Cənubi Avropa ölkələri üçün çətindir. Əhalini su ilə təmin etmək üçün dövlətlər su istehlakını zəruri minimum həddə məhdudlaşdırmağa çağırır, lakin bəzi bölgələrdə belə tədbirlər də kifayət etmir.

Avropa Ətraf Mühit Agentliyinin (EEA) su ehtiyatları üzrə eksperti Nihat Zal hesab edir ki, problem ilk növbədə quraqlıqla və su təchizatından alınan suyun miqdarı ilə bağlıdır. Avropada əhalinin su istehlakı onun ümumi istehlakının cəmi 9 faizini təşkil edir. Əsas pay, təxminən 60 faizi kənd təsərrüfatının ehtiyaclarına istifadə olunur.

Problem son 70 ildə ən pis quraqlıqdan əziyyət çəkən İtaliyanın şimalında daha kəskindir. Orada yüzdən çox şəhərdə içməli su istehlakı məhdudlaşdırılıb. Yaranmış vəziyyətlə bağlı İtaliya hökuməti beş regionda fövqəladə vəziyyət elan edib. Həmin regionlar su böhranı ilə mübarizə üçün yaxın vaxtlarda 36 milyon avro alacaqlar. Po və Dora Baltea çaylarında suyun səviyyəsi hazırda normanın yalnız 1/8 hissəsidir. Bu çaylar Avropanın ən mühüm kənd təsərrüfatı rayonlarından birini qidalandırır. Quraqlıq yerli kənd təsərrüfatı istehsalının 30 faizini təşkil edən əraziləri təhdid edir.

Bu günlərdə Verona meri avqustun sonuna qədər bağların və idman meydançalarının suvarılmasını, avtomobillərin yuyulmasını, hovuzların doldurulmasını təcili olaraq qadağan edib. Bağları yalnız gecə sulamaq olar. Milanda isə dekorativ məqsədlər üçün istifadə edilən bütün fəvvarələr söndürülüb.

### Portuqaliyanın 97 faizi quraqlıq içərisindədir

Portuqaliya qışdan bəri bu ilin anomal quraqlığına hazırlaşmağa başlayıb. Yağışların olmaması səbəbindən yanvar ayında yerli su anbarlarında suyun səviyyəsi həddindən artıq aşağı düşüb. Buna görə də fevral ayında hökumət su-elektrik stansiyalarının istifadəsini həftədə 2 saatla məhdudlaşdırıb.

Səlahiyyətlilər ölkədə 10 milyon insanın ən azı iki il ərzində kifayət qədər içməli suya sahib olacağına zəmanət verib.



Mayın sonundan bəri Portuqaliyanın 97 faizi quraqlıq içərisindədir. Əvvəllər quraqlıqlar on ildə bir dəfə baş verirdisə, indi Aralıq dənizində onlar təxminən iki dəfə tez-tez baş verir. Mütəxəssislərin fikrincə, bu, kömür, neft və qazın yanması səbəbindən baş verib. Bəzi bölgələr min ildən sonra ilk dəfə belə bir fəlakətlə üzləşib.

Ölkənin cənubundakı Silveş, Laqoa və Portiman şəhərlərini özündə birləşdirən Suvarma Perimetrinin Suverənləri Assosiasiyası təxminən 1800 fermanı su ilə təmin etmək üçün fövqəladə vəziyyət planını işə salıb. Bəzi kənd təsərrüfatı bitkilərinin suvarılması iki dəfə azaldılıb.

Ekologiya və İqlim Dəyişikliyi naziri Duarte Kordeyru jurnalistlərə bildirib ki, bütün hazırlıqlara baxmayaraq, ölkə gələcəkdə istehlak məhdudiyyətləri və daha yüksək su qiymətləri ilə üzləşəcək. O, müəssisələri problemin həllinə kömək edəcək tədbirləri maliyyələşdirməyə çağırıb.

Ekspert Nihat Zal sudan istifadənin səmərəliliyini artırmaq və suya qənaət etmək üçün bir çox yol görür. O vurğulayır: "İçməli suyun orta hesabla 25 faizi göl kimi su hövzəsindən istehsal yerinə gedən yolda itirilir".

### İspaniyanın ərazisinin üçdəikisi səhralaşma təhlükəsi altındadır

İspaniyada da görünməmiş quraqlıq baş verib. Proses o qədər güclüdür ki, ölkə ərazisinin üçdəikisi səhralaşma təhlükəsi altındadır. Bərəkətli torpaq quma çevrilir. İspaniya meteoroloji xidmətinin məlumatına görə, bu qış 1961-ci ildən bəri ikinci ən quraq qış olub. Buna görə də ölkənin şimalındakı yaşayış məntəqələri artıq fevral ayından fövqəladə tədbirlər görməyə məcbur olub.

Aceredo kəndi 30 il əvvəl bənd tikintisi səbəbindən su altında qalmışdı. İndi suyun altından yenidən peyda olub. Kataloniyanın Kampelyes icmasının səlahiyyətliləri su təchizatını müvəqqəti olaraq gündə bir neçə saatla məhdudlaşdırıb. Fövqəladə hallarda hər gün təyin olunmuş 5 yerə su vedrələri qoyulacaq. Barselona yaxınlığındakı Vakarisses şəhərində quyular və su anbarları quruyub. Hazırda Vakarissesdəki kranlardan su cədvəl üzrə yalnız səhər saat 06:00-dan 10:00-a və axşam 20:00-dan gecə yarısına qədər axır.

İspaniyada istifadə edilən bütün şirin suyun ən azı 70 faizi kənd təsərrüfatına gedir. "Greenpeace"in İspaniyadakı nümayəndəsi Xuan Barea deyir: "Tələbat artır. Su istehlakını azaltmaq üçün hərəkətə keçmək əvəzinə, bol içməli suyu olan Norveç və ya Finlandiya kimi davranırıq. Əslində isə vəziyyət Şimali Afrikadakı kimidir".

Ölkənin kənd təsərrüfatında effektiv damcı suvarma üsulu getdikcə daha çox tətbiq edilsə də, onların beşdəbiri hələ də köhnəlmiş, ekoloji cəhətdən təmiz olmayan üsullardan istifadə edir. Ekspert Nihat Zal xəbərdarlıq edir ki, vəziyyəti daha yaxşı idarə etmək üçün indi su məhdudiyyətləri kimi böhran idarəçiliyindən uzaqlaşmaq və uzunmüddətli planlaşdırmaya keçmək lazımdır: "Sudan istifadənin səmərəliliyini artırmaq, böhranın qarşısını almaq üçün tədbirlər hazırlamaq və növbəti fövqəladə hallara hazırlıq üzərində işləməliyik".

Göründüyü kimi, Avropanın cənubunda vəziyyət getdikcə ağırlaşır. Qlobal istiləşmə, iqlim dəyişikliyi ölkələri çox çətin sınaq qarşısında qoyub. Problemdən çıxış yolu tapılmasa, faciələr qaçılmazdır.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

## Günün idman manşeti



## MOK-un 30 illik yubileyi münasibətilə "Heydər zirvəsi"nə yürüş olub

Milli Olimpiya Komitəsinin (MOK) 30 illik yubileyi münasibətilə MOK-un rəsmiləri, olimpiyaçılar və "ReAzerbaijan" üzvlərindən ibarət qrup "Heydər zirvəsi"nə qalxıb.

MOK-dan AZƏRTAC-a bildirilib ki, Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyevin rəhbərlik etdiyi qrup üzvləri 14 saatlıq yürüşün sonunda MOK-un 30 illik loqosunun əks olunduğu bayrağı "Heydər zirvəsi"nə sancıblar.

Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivinin mürəkkəb relyefinə baxmayaraq, qrup üzvləri yüksək əhvali-ruhiyyə və qürurla "Heydər zirvəsi"nə qalxıblar. Ulu Öndərin əziz xatirəsi yad edilib və Azərbaycan bayrağı dalğalandırılıb. Dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə MOK-un İdman İdarəsinin direktoru Həsənağa Rzayev, idman idarəsinin işçiləri Vaqif Əliyev, İntiqam Səfərov, Beynəlxalq əlaqələr idarəsinin direktoru Anar Bağırov, Marketinq idarəsinin üzvləri Səkinə Vəliyeva, Ruslan Məmmədov, Olimpiya çempionları Nazim Hüseynov, Fərid Mansurov, olimpiyaçı Fəridə Əzizova, həmçinin "ReAzerbaijan"ın təsisçisi Adnan Hüseyn, bloqçular Orxan Aslanov, Vəfa Əli, Fuad Tağıyev, Həvva Səfərova, Cəfər Nəcəfov və başqalarından ibarət qrup qalxıb.





# "Qarabağ"dan möhtəşəm qələbə

### Ağdam klubu Polşa "Lex"ini məğlub edib Çempionlar Liqasında növbəti mərhələyə yüksəldi




**UEFA Çempionlar Liqası, 1-ci təsnifat mərhələsi**

**"Qarabağ"** - "Lex" - 5:1
Qollar: Velde, 1 (0:1), Kadi, 14 (1:1), Ozobiç, 42 (2:1), Medina, 56 (3:1), Kadi, 74 (4:1), Abbas Hüseynov, 77 (5:1)
Baş hakim: Endryu Medli (İngiltərə)
**Tofiq Bəhramov adına Respublika Stadionu**
*İlk oyun - 0:1*

**Tofiq Bəhramov adına Respublika Stadionunda futbol bayramı yaşanırdı. Havanın çox isti olmasına baxmayaraq, tribunalarda boş yer qalmamışdı. Azarkeşlər Qarabağı tərənnüm edən şərqilər oxuyur, şüarlar səsləndirirdilər.**

Bir sözlə, hamı qələbəyə çox inanırdı. UEFA Çempionlar Liqasının 1-ci təsnifat mərhələsinin ilk oyununda səfərdə Polşa "Lex"inə 0:1 hesabı ilə uduzan Ağdamın "Qarabağ" komandasının növbəti mərhələyə çıxacağına inam böyük idi.

Əslində, oyun gərgin mübarizə şəraitində keçdi. Oyunu daha çox müdafiədən qurmaqla "Qarabağ"ı əks-hücumda yaxalamaq taktikası seçən qonaqlar 20-ci saniyədə müdafiənin arxasına atılan topdan sonra görüşdə hesabı açdı. Əslində, bu qol komandamızı daha fərqli motivasiya ilə oynamağa sövq etdi. Qarşılaşmanın ilk 10 dəqiqəsində "Lex" topu özündə daha çox saxlamaqla "Qarabağ"ın zəif nöqtələrini araşdırmağa çalışırdı. Düzdür, ilk dəqiqələrdə daha çox qonaq komanda fəal görünsə də, vaxt ötdükcə komandamız rəqibə qarşı üstünlük qazanmağa başladı. Qurban Qurbanovun oyun planı meydançada uğurla tətbiq edildi.

Futbolda taktika, oyun planı və sair çox vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmağa daha fərqli motivasiya edir. Məhz "Qarabağ" - "Lex" matçında bunun şahidi olduq. Ağdam klubu meydançanın "Lex"ə aid hissəsində tətbiq etdiyi pressinqlə qonaqların oyun qurmasına imkan vermədilər. Qısa ötürmələrlə oyunu meydançanın rəqibə aid olan hissəsində keçirən ağdamlılar itirilən hər topdan sonra demək olar ki, Polşa təmsilçisini boş zonaya buraxmadılar.

Onu da əlavə edək ki, müdafiənin mərkəzində daha sayıq görünən Polşa klubu cinahlarda heç də uğurlu deyildi. Çünki sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə dönməkdə ciddi problemlər yaşayırdılar. Belə ki, hücumda çoxalıb, müdafiə olunmaqda say baxımından geri qalan "Lex"in matçın 14-cü dəqiqəsində Kadi Borqesin vurduğu bərabərlik qolundan sonra "Qarabağ"a həm oyun, həm də psixoloji olaraq təslim olduğunu gördük.

Xüsusilə cinah ötürmələrinə üstünlük verən komandamız ikili mübarizədə də Polşa klubundan güclü idi. Qapıya uzaqdan vurulan zərbələrdən sonra geri qayıdan topların hamısına "Qarabağ" futbolçuları yiyələndilər.

Bir sözlə, "Qarabağ" meydançanın bütün zonalarında sona qədər mübarizə apardı. Bunun ardınca gələn qollar sayəsində qazanılan 5:1 hesablı qalibiyyət "Qarabağ"ı UEFA Çempionlar Liqasında 2-ci təsnifat mərhələsinə yüksəltdi. Bu mərhələdə rəqib isə İsveçrə çempionu "Sürix" olacaq. Komandalar arasında ilk qarşılaşma iyulun 19-da Tofiq Bəhramov adına Respublika Stadionunda, cavab matçı isə bir həftə sonra İsveçrədə oynanılacaq.

Qarşılaşmadan sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandasının çıxışını yüksək dəyərləndirib: "Çox möhtəşəm qələbə oldu. Bu cür qalibiyyətlər nadir hallarda olur. Sadəcə, hər şey istədiyimiz kimi alındı. Futbolçular çox mübariz idilər. İlk saniyələrdə qol buraxsaq da, sınmadıq. Oyun intizamını saxladıq. Çox yaxşı komandaya qalib gəldik. Onların fərqli, sürətli oyunçuları var. Yaxşı əks-hücuma çıxırdılar. Bu, bir başlanğıcdır. İlk oyundan sonra hamı Polşa azarkeşlərindən danışırdı. Bu gün gördük ki, bizim fanatlarımız onlardan üstündürlər. Dünən dedim ki, 10 milyon insan bizim arxamızdadır. Bu gün bunun şahidi olduq. Yerimizdə dayanmalı deyilik. Daha ciddi, məsuliyyətli olmalıyıq. Futbolçuların mübarizəsi alqışalayiqdir".

Sonda qeyd edək ki, "Lex"in bu günə qədər Azərbaycan, "Qarabağ"ın isə Polşa klubları önündə aşkar üstünlüyü var idi. Yəni indiyə qədər "Lex" qarşılaşdığı bütün Azərbaycan, "Qarabağ" isə bütün Polşa klublarından üstün olmuşdu. Bu statistikanı kimin öz tərəfindən davam etdirəcəyi böyük maraqla gözlənilirdi ki, o da "Qarabağ" oldu.

*"Qarabağ"ı, Qurban Qurbanovu obyektiv və subyektiv səbəbdən bəyənməyənlər, paxıllıq edənlər ola bilər. Lakin Ağdam klubunun və Qurban Qurbanovun hazırda Azərbaycan futbolunda ən güclü olduğunu qəbul və etiraf etmək lazımdır.*

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# 8 ölkə, 13 komanda, 75 idmançı

### "Əziz Şuşa" beynəlxalq velosiped yarışının qalibləri medallar və qiymətli hədiyyələrlə mükafatlandırılıblar

Həftəsonu "Əziz Şuşa" beynəlxalq velosiped yarışının ikinci mərhələsi keçirilib və turnirə yekun vurulub. 8 ölkəni təmsil edən 13 komandadan ümumilikdə 75 idmançının qatıldığı yarışın bu mərhələsi Füzuli Hava Limanından start götürməklə Şuşa şəhərindəki "Qarabağ" hotelinin qarşısında başa çatıb.

Respublika Velosiped Federasiyasından qəzetimizə verilən məlumata görə, idmançılar Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilən Zəfər yolu ilə 71 km məsafədə şose velosipedinin qrup ötüşməsi növündə güclərini sınayıblar. Yarış gərgin və maraqlı idman mübarizəsi şəraitində keçib.

İkinci mərhələnin nəticələrinə görə, Türkiyənin "Sakarya BB Pro Team" klubunun tərkibində yarışan Azərbaycan milli komandasının üzvü Elçin Əsədov (2:27:46) hamıdan çox sürət göstərərək qızıl, Özbəkistanın "Tashkent City" klubunun üzvü Akramjon Sunnatov (2:27:47) gümüş, Monqolustan milli komandasının üzvü İderbold Bold (2:27:48) isə bürünc medal qazanıblar.







İki günün yekunlarına əsasən, komanda proqramında birinci yerə Türkiyənin "Sakarya BB Pro Team" klubu, ikinci yerə Özbəkistanın "Tashkent City" klubu, üçüncü yerə Monqolustan milli komandası çıxıb. Şuşa qalasının önündə keçirilən mükafatlandırma mərasimində qalib idmançıya və komandaya, habelə mükafatçılara kuboklar, medallar və qiymətli hədiyyələr, digər qaliblərə isə medal və qiymətli hədiyyələr təqdim olunub. Bundan əlavə, Azərbaycan Velosiped Federasiyasının adından turnirin qalibi Elçin Əsədova 3 otaqlı mənzil hədiyyə edilib.



İdmançılara mükafatları Azərbaycan Respublikasının müdafiə sənayesi naziri, Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, Azərbaycan Respublikası gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Respublikasının Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov, gənclər və idman nazirinin müavini Mariana Vasileva, AVF-nin vitse-prezidenti Robert Eyyubov təqdim ediblər.

Xatırladaq ki, yarışın birinci mərhələsi Bakının Pirallahı rayonunda Nərəkənd parkının yaxınlığında fərdi ötüşmə növü üzrə keçirilib. Bu mərhələdə velosipedçilər 21 km məsafə qət ediblər. İlk yarış gününün qalibi də Elçin Əsədov olub.

Qeyd edək ki, yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Velosiped Federasiyası və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə Nazirlər Kabinetinin təsdiqlədiyi, "Şuşa ili"nə həsr olunmuş tədbirlər çərçivəsində keçirilib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "Azercell"in dəstəyi ilə Vətən müharibəsi qaziləri və şəhid övladları üçün keçirilən peşə təlimləri başa çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycanda Amerika Ticarət Palatası İctimai Birliyinin (AmCham Azərbaycan), "Azercell Telekom" MMC-nin və Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin (JA Azərbaycan) tərəfdaşlığı ilə Vətən müharibəsi qaziləri və şəhid övladları üçün həyata keçirilən sosial təşəbbüs başa çatıb. İyulun 6-da "Marriot Boulevard" hotelində baş tutan mərasimdə layihə çərçivəsində peşə istiqamətini seçməyə və peşəkar potensiallarını reallaşdırmağa yönəlmiş təlimlərə qatılan proqram iştirakçılarına xüsusi sertifikatlar təqdim edilib.



Qeyd edək ki, iştirakçılar 6 ay boyunca onlayn şəkildə təşkil edilən ingilis dili və kompüter kurslarına cəlb olunub, xüsusilə fərqlənən gənclər isə ölkənin aparıcı şirkətlərində təcrübə keçmək imkanı qazanıblar. Layihənin rəqəmsal tərəfdaşı "Azercell" proqram iştirakçılarını datakart və yüksəksürətli mobil internet xidmətləri ilə təmin edib. Tədbirdə çıxış edən "Azercell"in Korporativ Ünsiyyət departamentinin direktoru Sona Abbasova bildirdi: "Şirkətimiz şəhid və qazi ailələrinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən dövlət proqramlarını daim dəstəkləməyə çalışır, İkinci Qarabağ müharibəsi zamanı və ondan sonrakı dövrdə bu cür layihələrin təşəbbüskarı və dəstəkçisi olmaqdan şərəf duyur".

Xatırladaq ki, təlimlər "Celt Colleges" və "JA Azərbaycan"ın peşəkarları tərəfindən həyata keçirilib.


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsilalanların 2022-ci ilin sentyabr-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması

### *məqsədi ilə tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmasını təsdiq edən sənəd kimi qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin dövlət reyestrindən çıxarışı;*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə (təhsil müəssisələrinə) qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən 31 dekabr 2022-ci il tarixədək mallar (iş və xidmətlər) dövlət təminatında olan təhsilalanların müvafiq yaş qrupları üzrə hazırlanmış 14 sayda gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə bu müddət ərzində tenderin Əsas şərtlər toplusunda göstərilmiş 55 təhsil müəssisəsində gündəlik təhvil verilməlidir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **17.08.2022-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **25.08.2022-ci il 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.08.2022-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### balansında olan "Şahdağ" bərə gəmisi üçün MAN 5S26MC baş mühərriklərin ehtiyat hissələrinin satın alınması məqsədi ilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç. 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### xaricdə üzən gəmilərin heyəti üçün fərdi qəza (Tibbi sığorta) sığorta xidmətlərinin satın alınması məqsədi ilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç. 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132. (Uzadılma-2)**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### "Dənizçi" MTK-nın balansında olan yüksəkmərtəbəli 1A və 2A yaşayış binasında döşəməyə taxta reykanın yığılaraq dikt və laminatın vurulması xidmətləri (mal-material və işçiliklə birlikdə) satın alınması məqsədi ilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il iyulun 24-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# ADA-nın "Yay düşərgəsi" növbəti dəfə "Azercell"də

Məktəblilər mobil operatorun təqdimatında həm yeni nəsil rəqəmsal texnologiyaları, həm də müştəriyə xidmət mədəniyyəti ilə tanış oldular.



ADA Universitetinin ölkənin müxtəlif orta məktəblərinin şagirdləri üçün təşkil etdiyi "Yay düşərgəsi" proqramı "İnformasiya Texnologiyaları həftəsi" çərçivəsində "Azercell Telekom" MMC-yə növbəti səfərini gerçəkləşdirdi. Universitetin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının təşkil etdiyi yay məktəbinin iştirakçıları "Azercell"in Data Mərkəzini ziyarət edərək şəbəkə texnologiyalarının əsasları, mobil şəbəkənin qurulması, istismarı və nəzarəti barədə məlumatlarla tanış olub, eləcə də LTE şəbəkəsinin göstəricilərinin ölkə xəritəsi boyu əhatəsini canlı olaraq seyr ediblər. Daha sonra Big Data və Təhlillər departamentinin təqdimatında İKT sahəsində verilənlərin toplanması, saxlanması və emalı, Big Data üzrə qlobal trendlər və "Azercell"in bazarda yaxın zamanda təqdim edəcəyi yeni rəqəmsal məhsullar haqqında ətraflı məlumat alaraq şirkət ekspertlərinə öz suallarını ünvanlayıblar.

Ölkədə müştəri xidmətləri sahəsində ən nümunəvi sayıla biləcək bir şirkətlə tanışlığın davamı olaraq məktəblilər Fəvvarələr Meydanında yerləşən Bakıda ilk "Azercell"in Xidmət və Satış Mərkəzinə yollanıblar. Yay düşərgəsi iştirakçıları ön masa arxasında "Azercell" əməkdaşlarının abunəçilərlə ünsiyyətini canlı olaraq izləyib, şirkətin satış və xidmət ekspertləri tərəfindən "Azercell"də müştəriyə xidmət mədəniyyəti, müştəri məmnuniyyətinin əsasları, eləcə də əməkdaşların abunəçilərin suallarını cavablandırması prosesi ilə bilavasitə tanış olublar.

Qeyd edək ki, "Azercell" şirkəti uzun illərdir ADA Universiteti ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Şirkət ADA-nın təşkil etdiyi startap yarışmalarının tərəfdaşı qismində çıxış edərək karyera sərgilərində iştirak edib, universitetdə təhsil alan bir qrup xüsusi istedadlı tələbələrə təqaüd ayırmaqla onların fərdi və peşəkar inkişafına dəstək olub.

# Azərbaycanın hava limanlarında sərnişin axını pandemiyadan əvvəlki göstəricilərə yaxınlaşır



Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən verilən məlumata görə, cari ilin əvvəlindən Azərbaycanın beynəlxalq hava limanlarında ümumi sərnişin axını 2 milyon nəfəri ötmüşdür.

Cari ilin təkcə iyun ayında hava limanlarında 530 min nəfərə xidmət göstərilmişdir ki, bu da pandemiyadan əvvəlki 2019-cu ilin göstəricisinin 96 faizini təşkil edir. Heydər Əliyev Beynəlxalq Aeroportunda baza yeri olan "AZAL" və "Buta Airways" aviadaşıyıcıları tərəfindən ilin əvvəlindən müvafiq olaraq 618 min və 201 min sərnişin daşınmışdır. Bunlardan 457 min nəfəri beynəlxalq reyslərin sərnişinləridir və beynəlxalq daşımaların ümumi həcminin 36 faizini təşkil edir. 2022-ci ilin iyun ayında Heydər Əliyev Beynəlxalq Aeroportuna 24 xarici aviaşirkət müntəzəm reyslər yerinə yetirmişdir. Bundan əlavə, qeyd edilən ayda "Salam Air" aviaşirkəti Muskat/Maskat şəhərindən Bakıya birbaşa reyslər açmışdır. İyun ayında Bakıdan ən populyar beynəlxalq istiqamətlər onluğuna İstanbul, Moskva, Dubay, Tbilisi, Antalya, Əbu-Dabi, Ər-Riyad, Ankara, Şərcə və Minsk şəhərləri daxil olmuşdur. Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) - sərnişin və yükdaşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük kompleksinin iş gücünə görə Azərbaycanda və regionda ən böyük hava limanıdır. 2021-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Hava Nəqliyyatı Reytinq Agentliyi tərəfindən COVID-19 pandemiyası dövründə hava limanları üçün epidemioloji təhlükəsizlik üzrə 5 ulduzlu reytinqə layiq görülmüşdür. Bu mükafat öz sərnişinlərini və əməkdaşlarını koronavirusun yayılmasından qorumaq üçün Heydər Əliyev Beynəlxalq Aeroportunda tətbiq olunan COVID-19 tədbirlərinin səmərəliliyinin yüksək səviyyədə tanındığını göstərir.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında əməkhaqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin, birdəfəlik müavinətlərin və digər struktur bölmələrində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması məqsədilə 22.04.2022-ci il tarixdə elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "Azərbaycan Beynəlxalq Bankı" ASC qalib müəyyən edilmişdir. Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması məqsədilə 22.04.2022-ci il tarixdə elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "Kapital Bank" ASC qalib müəyyən edilmişdir. Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Aqil Abbasa bacısı

**ƏDİBƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**AKİF FƏRHAD OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi AMEA-nın müxbir üzvü, professor

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın Rəyasət Heyətinin üzvü, iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Aqil Abbasa bacısı

**ƏDİBƏ NƏSİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"GünayBank" ASC-nin rəhbərliyi və kollektivi 23 saylı Notariat ofisinin rəhbəri Zaur Dəmirova əzizi

**NAZİM XASIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Oqtay Atakişiyevə əzizi

**NƏNƏŞ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyev və Həmkarlar İttifaqı Komitəsinin üzvləri AMEA-nın müxbir üzvü, professor

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**AKİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4656
Sifariş 1928
Qiyməti 40 qəpik